AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ



# İNSAN EKOLOGİYASI YAŞIL DÜNYADA

**Gənc tədqiqatçıların Respublika elmi-praktik konfransının materialları (25 oktyabr 2024-cü il)**

**II hissə**

Bakı – 2024

**AZƏRBAYCAN RESPUBLİKASI**
**ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**SOSİAL ELMLƏR VƏ PSİXOLOGİYA FAKÜLTƏSİ**

# İNSAN EKOLOGİYASI YAŞIL DÜNYADA

Gənc tədqiqatçıların Respublika
elmi-praktik konfransının materialları
(25 oktyabr 2024-cü il)

II hissə

**Bakı – 2024**

## TƏŞKİLAT KOMİTƏSİ

**Sədr**: Rövşən Cavadov, Sosial elmlər və psixologiya fakültəsinin dekanı, dosent
**Sədr müavini:** Qızılgül Abbasova, Elmi işlər üzrə dekan müavini, professor
**Üzvlər**:
Daxil Vəliyev, Tədris işləri üzrə dekan müavini, dosent
Nəzakət Kərimova, Sosial məsələlər üzrə dekan müavini, dosent
Rəbiyyət Aslanova, Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri, professor
Ləzifə Qasımova, Pedaqogika kafedrasının müdiri, professor
Rafael Həsənov, Sosiologiya kafedrasının müdiri, professor
Kamilə Əliyeva, Sosial və pedaqoji psixologiya kafedrasının müdiri, professor
Rəna İbrahimbəyova, Gender və tətbiqi psixologiya kafedrasının müdiri, professor
Səxavət Əliyeva, Psixologiya kafedrasının müdiri, dosent
Kəmalə Pənahova, Fəlsəfə kafedrasının müdiri, dosent
Üzeyir Şəfiyev, Sosial iş kafedrasının müdiri, dosent
Kazım Əzimov, Sosiologiya kafedrasının professoru

## PROQRAM KOMİTƏSİ

**Sədr**: Eliza İsmayılova, Sosial iş kafedrasının baş müəllimi, fəlsəfə ü.f.d.
**Üzvlər**:
Yaqut Əliyeva, Sosiologiya kafedrasının dosenti
İlahə Şıxəliyeva, Pedaqogika kafedrasının müəllimi, pedaqogika ü.f.d.
Diyanə İbrahimova, Sosial və pedaqoji psixologiya kafedrasının müəllimi, psixol.ü.f.d.
Ramiyyə Cavadova, Gender və tətbqi psixologiya kafedrası, psixol.ü.f.d.
Samirə Veyisova, Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının dosenti
Vüsalə Musayeva, Sosial elmlər və psixologiya fakültəsinin tyutoru, fəlsəfə ü.f.d.

# PSİXOLOGİYA BÖLMƏSİ

***Bölmə rəhbəri – prof. Elnarə Şəfiyeva***

## YENİYETMƏLƏRDƏ SOSİAL FOBİYANIN FORMALARI

***psixol.ü.f.d. Piriyeva Elnarə Abbas qızı***
***Vəlizadə Şəbnəm Anar qızı***
***BDU-nun II kurs magistrantı***
*valizadeeh.sh@gmail.com*

Sosial fobiya şəxsin sosial fəaliyyət və tədbirlərə daxil olmasına qarşı əmələ gələn qayğı vəziyyəti olaraq izah edilir. Tək olarkən rahat şəkildə həyata keçirə bildiyi fəaliyyətləri başqalarının qarşısında eyni rahatlıqla həyata keçirə bilmir. Bu qayğı vəziyyətindən xilas olmaq üçün sosial mühit və fəaliyyətlərə daxil olmamaq, çəkinmək və ya uzaq durmaq kimi çarələr fikirləşirlər. Bir dərəcəyə qədər hər hansı bir sosial tədbirdən uzaq durmaq normal hesab edilməlidir. Çəkinmək və utancaqlıq şəxsin həyatında ciddi bir problem yaratmırsa, qorxu vəziyyəti meydana gətirmirsə, bu normal hal hesab edilir. Bunun xəstəlik olub-olmamasına, şəxsin yaşadığı maneələr və məhdudiyyətlər nəticəsində qərar verilir. Problemin sosial fobiya adlanmasına, şəxsin özü istədiyi halda,sırf qorxu və narahatlıq keçirəcəyini düşündüyü üçün sosial mühitdən uzaq durması, tədbirlərdən qaçması və.s. kimi hallar səbəb olur.

Sosial fobiyanın izahı tək bir sahəyə görə verilməməlidir. Müxtəlif situasiyalar meydana gələ bilər. Sosial fobiya qarşı cinsdən biri ilə söhbət edərkən meydana gələn qorxu və qayğı halından, tanıdığı biriylə qarşılaşıb söhbət etmək məcburiyyətində qalacağını düşündüyü üçün küçəyə çıxmamağa qədər genişləyə bilər. Ancaq sosial fobiyanın bütün növləri müalicə edilməli bir problem olaraq nəzərdən keçirilməlidir. Sosial fobiyası olan insanlar qayğı halı yaşamamaq üçün fərqli qaçma yollarına müraciət edirlər. Bu davranışlar qorxu keçirilən mühitə daxil olmamaq,

qorxu hiss keçirilən mühiti tərk etmək, danışılanları sanki eşitmirmiş kimi hərəkət etmək, xəstələnmə, başqalarının əksinə hərəkət etmə, göz təmasından qaçmaq. əlaqəsiz şeylər düşünmək, xəyallar qurmaq, mövzunu dəyişmək, spirtli içkidən istifadə etmək və s şəklində ola bilər. Belə olduqda utancverici bir hadisə yaşamayacaqlarını və özlərini başqalarının nəzərlərindən qoruduqlarını düşünürlər. Sosial fobiyalı insanlar səhv etmək, gülünc vəziyyətə düşmək, özlərinə yaraşmayacağını düşündükləri hərəkətləri etmək və s. kimi hallardan çox qorxurlar. Tədbirlərdə arxa plana atılmaq, idarəetməni itirmək, təşviş yaşamaq, nə deyəcəyini bilməmək və s. kimi hallardan çəkinirlər. Fiziki əlamətlərə eyni zamanda əllərin titrəməsi, əzələlərdə gərginlik, isti və soyuq basmaları, mədədə narahatlıq və s. də daxildir.

Sosial fobiya 2 əsas formada ortaya çıxa bilər: 1. Ümumi sosial fobiya və 2. Xüsusi sosial fobiya [1]. Ümumi sosial fobiya hər növ sosial tədbirdə və hər hansı bir sosial mühitdə meydana gələ bilər. Ümumi sosial fobiya zamanı şəxsdə qayğı yaradan halları ümumi şəkildə qeyd edəsi olsaq deyə bilərik ki, bu zaman sosial fobiyası olan yeniyetmələr başqalarından kömək istəmək, ünvan soruşmaq mövzusunda utandığlarını dilə gətirirlər. Bundan əlavə başqaları onu izləyərkən yazı yazmaq və ya imza atmaq, məktəb şəraitində müəllimlərlə yaxud statusu ondan daha yüksək olan insanlarla söhbət etmək, səmimi olmadığı insanların gözünün içinə baxmaq kimi bir məsələlərdə də çəkingən davranış göstərirlər.

Bu hal insanların həyatda zövq almalarınada mane olur. Onlar, əyləncənin olduğu sosial tədbirlərdə iştirak etmək, nəqliyyat vasitələrində digər insanlarla qarşılıqlı oturmaq, başqa insanların qarşısında yemək yemək, imtahan və yarışlara daxil olmaq və s. kimi hallarda da passiv davranış göstərirlər. Bundan başqa, cəmiyyət içərisində telefonla danışmaq, digər insanlarla qarşılaşmaq, topluluq qarşısında çıxış etmək, yeni insanlarla tanış olmaq, diqqət mərkəzində olmaq kimi davranəşlarda bu yeniyetmələr üçün dözülməz bir fəaliyyətdir. Eyni zamanda bura daxildir, qonaq qəbul etmək, idman fəaliyyəti ilə məşğul olmaq, başqalarının suallarına cavab vermək, qarşı cinsdən bir insanla söhbət etmək, digər sinif

yoldaşları ilə hər hansı bir mövzuda müzakirə etmək və s. hallarda bura daxildir.

Xüsusi sosial fobiya isə sadəcə müəyyən sosial şəraitdə meydana çıxır. Yuxarıda sadalanan vəziyyətlərdən hər hansı biri xüsusi sosial fobiyanın meydana gəlməsi üçün şərait yarada bilər. Ancaq bu vəziyyət şəxs üçün xüsusi bir problemə-qorxu və qayğıya səbəb olur. Məsələn, toplum qarşısında çıxış edərkən daha öncə tənqid edilmiş şəxslər bu təcrübəni eynilə təkrar yaşayacağını düşünür. Uşaqlarda isə sosial fobiya özünü müxtəlif şəkildə biruzə verir: məktəb fobiyası, imtahan qorxusu, başqa uşaqlar qarşısında gülünc vəziyyətə düşmək qorxusu və.s. Məktəb fobiyası olan yeniyetmələrdə aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, bu uşaqların 40%-də sosial fobiya mövcuddur [2].

Sosial fobiya yaşayan uşaqlarda uğurunun qiymətləndirilməsi qorxusu yüksəkdirsə, imtahandan yarıda çıxa bilər. Belə uşaqların imtahan nəticələri isə, digər uşaqların nəticələrinə nisbətən daha aşağı olur. Məktəbdəki uğursuzluğun isə sosial fobiyayla bağlı bir çox səbəbi ola bilər:daha yaxşı öyrənməyə şərait yaradan şifahi təqdimatdan uzaq durmaq, suallara cavab verməklə bağlı yaranan qorxu, dərsini avtoritar üslubda təşkil edən müəllimlə bağlı qayğıların meydana gəlməsi və s. Xüsusilə şagirdin çalışqanlığının qiymətləndirilməsi amili uşaqların öz davranışlarına daha çox diqqət etməsinə, sosial mühitdə titrəmə, qızarma, tərləmə, səs qısılması kimi fiziki əlamətlərin meydana gəlməsinə səbəb olur. Bu halda isə uşaq başqa şeylərə qarşı diqqətini toplaya bilmir, fikrini yazmaqla və şifahi şəkildə ifadə etməkdə çətinlik çəkir.

Sosial fobiya təxmin edildiyindən daha çox yayılan bir problemdir [3]. Dünyanın hər yerində milyonlarca insan bu problemdən əziyyət çəkir. Sosial fobiya bu insanların iş, sosial və ailə həyatına ciddi şəkildə təsir göstərir. Həyatları məhdudlaşan bu insanlar bir müddət sonra depressiyadan da əziyyət çəkə bilərlər. Sosial fobiya depressiya və alkoqolizmdən sonra en çox yayılan üçüncü psixoloji problemdir. Ümumi əhalinin 7-8%-i sosial fobiyadan əziyyət çəkir. 25 yaş üstü yetişkinlərdə nadir olaraq rast gəlinir. Qadınlarda kişilərə nisbətən 2 qat daha çox rast gəlinir.

## ƏDƏBİYYAT

1. D.Eldoğan, E.Barışkın Erken Dönem Uyumsuz Şema Alanları ve Sosyal Fobi Belirtileri. Anadolu Psikiyatri Dergisi. 2020. №2. s. 158-165
2. L.E. Alden, S.T. Wallace, Social phobia and social appraisal in successful and unsuccessful social interactions. Acta Psychiatrica Scandinavica. 2015. №5. s. 497-505 R.M.
3. D.C. Beidel, J. Randall Social Phobia. Pharmacoeconomics. 2015. №2. s. 111-129

# YENİYETMƏLƏRİN PEŞƏSEÇİMİNƏ TƏSİR EDƏN AMİLLƏR

***Səlimova Rəna Rövşən qızı***
***BDU-nun II kurs magistrantı***
*salimova52@icloud.com*

Yeniyetmələrin əməyə və peşə seçməyə hazırlanması məsələsi cəmiyyət qarşısında duran ən önəmli məsələlərdən biridir. Peşə seçimi prosesində müxtəlif mürəkkəb amillərin təsiri müşahidə edilir.

Yeniyetmələrin peşə seçiminə əsaslı təsir göstərən amillərdən ən başlıcası ailədir.

Ailə insanın ilk sosiallaşma institutu hesab olunur. Ailədəki mühit, dəyərlər, baxış bucağı və maraqlar toplusu sosial bir fərdin formalaşmasına müəyyən istiqamət verir. İnsanın sosial-peşəkarlıq obrazının formalaşması prosesi ilk olaraq ailədə başlayır. Uşağın peşə seçimi mövzusunda valideyn yanaşmaları müxtəlif ola bilər. Reallıqda uşağın ixtisas seçiminə göstərilən maraq və diqqət olması və ya bu mövzunu önəmsəməmə, uşağın öz maraq və istəklərinə önəm verməvə ya onun əvəzinə seçim etmə kimi müxtəlif hallara rast gəlinir. Valideynlərin əsas vəzifəsi uşaqda müsbət sosial mövqe formalaşdırmaq və onların özünü inkişaf etdirməsi üçün lazımi mühiti yaratmaq olmalıdır. Bunun həyata keçirilməsi prosesində uşaqların maraqlarını və istəkləri-

ni nəzərə almaq, onlara seçim etmə hüququ vermək, məsuliyyəti öz üzərlərinə götürə bilməyi öyrətmək çox vacibdir. [1]

Yeniyetmələrin peşə seçimində məktəb özünəməxsus təsir göstərir. Məktəb şagirdin dinamik cəmiyyətdə uğurlu adaptasiyası üçün onu daha şüurlu və məsuliyyətli bir seçim etməyə hazırlamalıdır.

A.A.Rean yazır: «Məktəb sosial institut kimi şagirdləri həyata hazırlamalıdır. Həyat isə yalnız akademik biliklərdən ibarət deyildir. Sosiallaşma təkcə elmlərin əsasları üzrə biliklərin verilməsi ilə tamamlanmır. Məktəbdə şəxsiyyət və fəaliyyətin subyekti kimi insanın inkişafı mütləq özündə aşağıdakıları birləşdirməlidir: 1) intellektin inkişafı; 2) emosional aləmin inkişafı; 3) streslərə dözümlülüyün inkişafı; 4) özünü qəbuletmə və özünəinamın inkişafı; 5) dünyaya müsbət münasibətin inkişafı və başqalarını qəbul etmə; 6) muxtariyyətlik, müstəqilliyin inkişafı; 7) özünütəkmilləşdirmə, özünüfəallaşdırma motivlərinin inkişaf etdirilməsi». [2, s.347]

Yeniyetmələrin peşə istiqamətləndirilməsi ən mühüm pedaqoji və psixoloji problemlərdən biridir. Məktəblərdə peşə məsləhət saatlarının yaradılması şagirdlərin adekvat peşə seçimi məsələsində önəmli rol oynayır.

Əmək tərbiyəsi və peşə seçmə probleminin psixologiyası haqqında bir sıra tədqiqatların müəllifi olan V.V.Çebişeva peşə seçmə problemini aşağıdakı kimi xarakterizə edir: Şagirdlərin sərbəst və əsaslandırılmış peşə seçməyə hazırlanması ümumi təlim-tərbiyə tədbirlərindən başqa, həm də bir sıra xüsusi iş formaları: peşəyönümü və peşə məsləhətləri tələb edir. Peşəyönümü dedikdə adətən peşəseçmə zamanı zəruri olan biliklərin verilməsi başa düşülür. Peşə məsləhətlərinin vəzifəsinə peşəseçmədə şagirdlərin fərdi xüsusiyyətlərinin öyrənilməsi əsasında onlara kömək etmək və məsləhət verməklə müəyyənləşmiş seçimin həyata keçirilməsi daxildir. Bu işin məzmunu aşağıdakılardan ibarətdir: 1) peşə seçmənin əhəmiyyəti, peşənin və əməyin əsas növləri, onların işçilərə verdikləri tələblər haqqında şagirdlərə lazımi biliklərin verilməsi; 2) şagirdlərin fiziki və fərdi- psixoloji xüsusiyyətlərinin

(maraq, meyl və qabiliyyətlərinin) öyrənilməsi; 3) fərdi məsləhətlər formasında peşəseçmə məsələsinin həll edilməsində onlara istiqamət verilməsi; 4) müəyyənləşmiş peşəyə yiyələnməkdə və işə düzəlməkdə kömək göstərilməsi [3, s. 49].

Yeniyetməlik dövrü üçün həmyaşıdlarla münasibətin yeniyetmə üçün xüsusi əhəmiyyət kəsb etməsi və ön plana çıxması səciyyəvidir. Həmyaşıdları ilə ünsiyət vasitəsilə yeniyetmələr özünü və ətrafı təhlil edir və təsəvvürlərini genişləndirir. Onlar üçün həmyaşıdları və dostları tərəfindən qəbul edilmək vacibdir. Buna görə də yeniyetmələr ixtisas seçərkən dost və həmyaşıdlarının mövqeyinə diqqət yetirir. Bu yaş dövründə onlar ortaq maraqlara, zövqlərə və hobbilərə əsaslanaraq müəyyən sosial qruplar yaradır və yeniyetmə belə sosial qruplara mənsubluğunu hiss edərək sosiallaşmanın önəmli mərhələrindən birinə qədəm vurur. [1]

Peşəseçmənin ən müvəffəqiyyətli, ən zəruri amillərindən olan şəxsi peşə planının olması peşə seçimində əsas yer tutur. Özünüqiymətləndirmə və öz arzu və marağını reallaşdıra bilmə nöqteyi nəzərindən şəxsi peşə planı məqsəd və ona çatmağın real mənzərəsini əks etdirən kompas rolunu oynayır. Peşə seçmənin düzgün həll olunması peşə planının hərtərəfli tərtibindən, məqsədin, ona çatmağın yol və vasitələrinin düzgün seçilməsindən çox asılıdır. Bunun üçün aşağıdakı məsələləri diqqət mərkəzində saxlamaq faydalıdır:

— əsas məqsəd və motivlərin müəyyənləşdirilməsi. Başqa peşənin, ixtisasın deyil, nə üçün məhz bu peşənin, ixtisasın seçilməsini zəruri hesab etdiyini əsaslandırmaq və seçiminin etibarlılığına inanmaq; bu seçimdə yaxın, orta və uzaq perspektivləri müəyyənləşdirmək. Yəni seçəcəyiniz peşə və ixtisas haqqında, ona haralarda yiyələnməyin mümkünlüyü barədə məlumat toplamaq, sorğu-məlumat xarakterli kitablara baxmaq, böyüklərdən və bu sahədə işləyən adamlardan məsləhət almaq; gələcək iş yeri, iş şəraiti haqqında ətraflı məlumata yiyələnmək; peşənin səndən tələb edəcəyi psixoloji, fizioloji və mənəvi tələblərin nələrdən ibarət olduğunu bilmək və s.

— seçmək istədiyin peşəyə, ixtisasa yiyələnmək yollarını müəyyən etmək. Bu seçimə təsir edən müsbət və mənfi amilləri müəyyənləşdirmək, əks təsir göstərə biləcək maneələri neytrallaşdırmaq planını nəzərdə tutmaq;

— planın ayrı-ayrı bəndləri üzrə sistem və ardıcıllığı müəyyənləşdirmək, planın həyata keçirilmə texnologiyalarını işləyib hazırlamaq; fəaliyyətdə fasiləsizliyi təmin etmək.

## ƏDƏBİYYAT


1. https://e-psixoloq.az/pese-seciminde-sosial-muhitin-rolu
2. Rean A.A., Bordovska N.V., Razum S.İ. Psixologiya və pedaqogika. SPb.: Piter, 2005, 432 səh.
3. İlyasov M. Peşəyönümünün əsasları. Bakı-2011, 350 səh.
4. İlyasov M. Peşə, ixtisas seçimi. Bakı-2015, 99 səh.


# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ДЕТЕЙ, ВОСПИТЫВАЮЩИХСЯ В УЧРЕЖДЕНИЯХ ИНТЕРНАТНОГО ТИПА


***Гаджизаде Хумар Рауф***
***магистрант 2-го курса БГУ***
*hajizadakhumar@gmail.com*


Современное общество стоит перед лицом серьезной проблемы. Согласно статистике каждый год в мире приблизительно 10 миллионов детей остаются без родительского попечительства. Большая часть этих детей остается без попечительства при живых родителях. Основными причинами этого явления является рост внебрачной рождаемости, материальные трудности родителей, асоциальный образ жизни родителей или плохое состояние их здоровья.

Рост числа детей, оставшихся без попечения родителей, ведет также к росту числа интернатных учреждений - детских домов, приютов, школ-интернатов и т.д. Дети, лишен-

ные родительского попечительства, помещаются в учреждения интернатного типа, которые находятся на государственном обеспечении. Государство заботится о таких детях, обеспечивает их безопасным жильем, питанием, всеми условиями для нормального проживания. Однако, создаваемые в этих учреждениях условия не способны заменить условия воспитания в семье. Семья играет важнейшую роль в жизни человека, она основа жизни и ее ничем невозможно заменить. От семьи зависит ощущение полноценной жизни и счастья. Ребенок становится личностью в семье, в семье ребенок овладевает социальными ролями, учится жизни. Для развития ребенка важна безусловная родительская любовь. Следовательно, родительская депривация негативно сказывается на физическом, психологическом и социальном здоровье детей.

Дети, которые воспитываются в учреждениях интернатного типа с самого рождения, испытывают нарушение в развитии чаще и в большей степени, чем дети, которые поступают туда позже. Исследования показывают, что дети, изолированные от родителей с рождения до 6-и месяцев, становятся менее разговорчивыми, чем их сверстники из семей. Изоляция детей от матери от 1 до 3 лет приводит к нарушению личностных функций и интеллекта.

Индивидуальное развитие, психологическое состояние и социальная адаптация детей, воспитывающихся в учреждениях интернатного типа, тесно связаны с социальной средой учреждений, с недостатком семейной заботы и с повседневным опытом воспитанников. Социально-психологические особенности воспитанников интернатных учреждений обусловлены рядом факторов.

1. Эмоциональное развитие и недостаток привязанности: Дети, воспитывающиеся в интернатных учреждениях, растут вдали от родительской опеки, что приводит к ослаблению их эмоциональных связей. Недостаток заботы и любви может вызывать у них негативные эмоциональные состояния и

снижение самооценки. Такие дети часто чувствуют себя изолированными и ненужными.

2. Социализация и групповое поведение: хотя дети, воспитывающиеся в интернатных учреждениях, учатся следовать определённым групповым правилам, им может быть трудно адаптироваться к более широкой социальной среде. Их социальные навыки, такие как умение общаться с другими возрастными группами и усваивать различные социальные роли, могут быть недостаточно развиты. Хотя они могут приспособиться к коллективному поведению, их индивидуальные социальные навыки могут оставаться слабо развитыми.

3. Восприятие социальных норм и ценностей: Находясь вдали от семейной среды, дети могут испытывать трудности в усвоении социальных норм и ценностей. Из-за ослабленных связей с семьёй у них может не сформироваться полное представление о семейных моделях и социальных ценностях, что может повлиять на их поведение в будущем в отношении семьи и общества.

4. Психологическая устойчивость и чувствительность к стрессу: Дети, воспитывающиеся в интернатных учреждениях, как правило, более чувствительны в психологическом плане. Они часто сталкиваются с такими проблемами, как стресс, тревожность и замкнутость. Недостаток психологической поддержки может привести к поведенческим нарушениям, агрессии и другим негативным эмоциональным реакциям [1].

5. Образование и возможности для развития: Академическое развитие детей, воспитывающихся в интернатных учреждениях, может варьироваться. Недостаток индивидуального внимания и учебной поддержки иногда приводит к неуспеваемости, что, в свою очередь, может снижать их самооценку и усложнять достижение будущих целей.

6. Социальная адаптация и интеграция в общество: Дети, воспитывающиеся в интернатных учреждениях, могут сталкиваться с определёнными трудностями в процессе социаль-

ной адаптации в обществе. Недостаточно развитые социальные навыки и эмоциональные дефициты могут повлиять на их решения в отношении выбора профессии, семейной жизни и участия в общественной жизни. Им требуется дополнительная социально-психологическая поддержка и программы подготовки к будущей интеграции в общество [2].

В интернатных учреждениях дети действительно отстают в развитии. Но здесь многое зависит и от условий учреждения. Апатичность воспитателей к детям негативно сказывается на психологическом здоровье детей. Однако ещё в тридцатые годы Н.М.Щелов писал, что в закрытых учреждениях дети также могут полноценно развиваться, но только при условии, что педагогическая работа в этих учреждений будет хорошо организована [3]. Следовательно, для

полноценного социального и эмоционального развития детей, воспитывающихся в учреждениях интернатного типа необходимы специальные программы поддержки.

## ЛИТЕРАТУРА

1. Детская психология // Большая советская энциклопедия: [в 30 т.] / гл. ред. А. М. Прохоров. 3-е изд. М.: Советская энциклопедия, 1969—1978.
2. Детская психология // Казахстан. Национальная энциклопедия. — Алматы: Қазақ энциклопедиясы, 2005. — Т. II. — ISBN 9965-9746-3-2. (CC BY-SA 3.0).
3. Кондратьев М.Ю. Социальная психология закрытых образовательных учреждений. СПб.: Питер, 2005.
4. Лангмейер И., Матейчек З. Психическая депривация в детском возрасте. СПб.: Прага, 1984.
5. Прихожан А.М., Толстых Н.Н. Особенности развития личности детей, воспитывающихся в условиях материнской депривации. Психология науки и образования, 2009, No 3.
6. Реан А.А. Психология человека от рождения до смерти. СПб.: Прайм-Еврознак, 2002.
7. Vannest J., Karunanayaka P. R., Schmithorst V. J., Szaflarski J. P.,

Holland SK; Karunanayaka; Schmithorst; Szaflarski; Holland. Language networks in children: evidence from functional MRI studies (англ.) // American Journal of Roentgenology: journal. 2009. May (vol. 192, no. 5). — P. 1190-1196.

## POSTTRAVMATİK STRESS POZUNTUSUNUN PSİXOTERAPİYALAR İLƏ MUALİCƏSİ

***Tuğba Hüseyin Qızı Kızılelma***
***Bdu-nun əyani doktorantı***
*psikologtugbabutun@gmail.com*
*https://orcid.org/0009-0002-7969-7201*

Post Travmatik Stres Pozuntusu, ciddi bir travmatik hadisədən sonra yaranır və psixoterapiya üsulları ilə müalicə oluna bilir. Müalicəsində istifadə olunan psixoterapiyalara aşağıdakılar daxildir:

1. Koqnitiv Davranış Terapiyası (CBT)

• Bilişsel Yenidən Qurulma: Travmatik hadisə ilə bağlı mənfi inanclar və düşüncələr üzərində işləyərək, bu düşüncələr daha realist şəkildə yenidən qurulur.

• Ekspozisiya Müalicəsi: Şəxs təhlükəsiz bir mühitdə travmatik hadisənin xatirələrinə yenidən məruz qalır. Bu, travma ilə bağlı qorxunu azaltmaq məqsədi daşıyır.

• Stressin Azaldılması Texnikaları: İnsanın narahatlığını idarə etməsinə kömək etmək üçün istirahət və nəfəs məşqləri öyrədilir.

2. Göz Hərəkətinin Desensitizasiyası və Yenidən Emalı (EMDR)

• EMDR travmatik xatirələri beyində təkrar emal etməyə imkan verir.

• Müalicə zamanı müştəri xüsusi göz hərəkətləri edir və ya travmatik yaddaşı xatırlayarkən ikitərəfli stimullaşdırma (məsələn, toxunma və ya eşitmə) alır.

• Bu proses travmanın emosional yükünü azaldır və insanın hadisəni daha sağlam anlamağa imkan verir.

3. Somatik təcrübə

• Travmanın bədənə təsirləri ilə işləməyi hədəfləyir.

• İnsan bədənindəki hisslərə fokuslanaraq travmatik enerjini sərbəst buraxır.

• Travmatik hadisə fiziki əlamətlərlə özünü göstərirsə, bu üsul xüsusilə faydalıdır.

4. Qəbul və Öhdəlik Terapiyası (ACT)

• ACT insanın travmatik təcrübələr haqqında məlumatlılığını artırır və bu təcrübələri qəbul etməyə təşviq edir.

• İnsanda öz həyat dəyərlərinə uyğun davranışlar inkişaf etdirməyə kömək edir.

5. Qoşma əsaslı müalicələr

• Xüsusilə TSSB uşaqlıq travması nəticəsində yaranarsa, qoşma əsaslı yanaşmalardan istifadə edilə bilər.

• Terapiyada məqsəd müştərinin təhlükəsiz bağlanma üslublarını inkişaf etdirməsi və münasibətlərində inam hissini bərpa etməsidir.

6. Hipnoterapiya

• Hipnoterapiya insanın şüuraltında travmatik xatirələri təhlükəsiz şəkildə emal etməyi hədəfləyir.

• Bu, insanı rahat bir ruh halına sala bilər, travmanın emosional yükü ilə üzləşməyi və öhdəsindən gəlməyi asanlaşdırır.

7. Qrup terapiyaları

• Bənzər təcrübələri olan şəxslərin bir araya gələrək dəstək aldıqları qrup terapiyaları təklik hissini azalda və mübarizə strategiyalarını gücləndirə bilər.

Müalicə zamanı nəzərə alınmalı olanlar:

• Təhlükəsiz terapiya mühitinin yaradılması: Özünü təhlükəsiz hiss etmək terapiyanın təsirini artırır.

• Müalicə fərdi olmalıdır: Hər bir insanın travmatik hadisəyə reaksiyası fərqlidir. Buna görə müalicə planı fərdiləşdirilməlidir.

• Davamlılıq vacibdir: TSSB-nin müalicəsi vaxt apara bilər; Buna görə də səbirli olmalı və müalicəni mütəmadi olaraq davam etdirməlidir.

## ƏDƏBİYYAT


1. Barrett DH, Green ML, Morris R et al. Cognitive functioning and posttraumatic stress disorder. Am J Psychiatry 1996; 153(11): 1492-1494.
2. Bremner JD, Innis RB, Salomon RM et al. Positron emission tomography measurement of cerebral metabolic correlates of tryptophan depletion-induced depressive relapse. Arch Gen Psychiatry 1997; 364-374.
3. Bremner JD, Southwick SM, Johnson DR et al. Childhood physical abuse and combat-related posttraumatic stress disorder in Vietnam veterans. Am J Psychiatry 1993; 235-239.
4. Breslau N, Davis GC, Andreski P et al. Sex differences in post-traumatic stress disorder. Arch Gen Psychiatry 1997; 1044-1048.
5. Breslau N, Davis GC, Andreski P et al. Traumatic events and posttraumatic stress disorder in an urban population of young adults. Arch Gen Psychiatry 1991;216-222.


## HAFİZƏNİN ÖYRƏNİLMƏSİNDƏ EBBİNQHAUZUN YANAŞMASI


***Məlikov Azər Akif oğlu***
***BDU-nun II kurs magistrantı***
*melikovazik27@gmail.com*


Herinqinin müasiri olan H.Ebbinqhauz 1860-cı ildə nəşr etdir-diyi "Psixofizikanın elementləri" adlı əsərində G.T.Feçnerin hiss hədlərinin və hiss intensivliyinin ölçülməsinə dair araşdırmaların-

dan təsirlənmiş, yaddaşı kəmiyyət və yaxud eksperimental olaraq araşdırmaqda maraqlı olmuşdur. O, bu istiqamətdə ilk addımı atdı və 1885-ci ildə "Yaddaş" adlı monoqrafiyasını nəşr etdirdi. Bu monoqrafiyanın girişində belə bir təəccüblü ifadə var idi: "Biz ən qədim mövzudan ən yeni elmi yaradacağıq" Əslində, bu, Ebbinqhauzun məqsədini dəqiq şəkildə ümumiləşdirir [1, s. 54].

Hermann Ebbinqhauz (1850-1909) psixologiya sahəsinə, xüsusən hafizə və öyrənmə sahələrinə əhəmiyyətli töhfələr verən alman psixoloqu idi. İlk əvvəllər fəlsəfə üzrə təhsil alsa da sonralar diqqətini psixologiyaya yönəltdi və bu sahədə sistemli eksperimentlər aparan ilk psixoloqlardan oldu. Ebbinqhauz ən çox yaddaş və öyrənmə sahəsindəki işi ilə tanınır. O yaddaşın təbiətini öyrənmək üçün öz üzərində təcrübələr aparıb və bu gün də geniş istifadə edilən yaddaş modelini işləyib hazırladı. Onun tədqiqatları həm də psixologiyanın mühüm tədqiqat sahəsi olan insanın və onun yaddaşının öyrənilməsinin əsasını qoydu [2].

Yüksək psixi prosesləri tədqiq edən əksər alimlərdən fərqli olaraq, Ebbinqhauz tədqiqatın təcrübələr vasitəsilə aparıla biləcəyinə inanırdı. O, öyrənmənin həmişə əvvəlki bilik və anlayışdan təsirləndiyini dərk edən bir sistem hazırladı. Ebbinqhauz asanlıqla əzbərlənəcək, lakin əvvəlki idrak assosiasiyaları olmayan bir şeyə ehtiyac duyacağını düşündü. Alim "cəfəngiyyat *hecaları*" yaratmışdır. Bu samit-sait-samit birləşməsi kimi başa düşülə bilər, burada samit təkrarlanmır və heca DAX, BOK və YAT kimi əvvəlki mənaya malik deyil. Hecalar toplusunu yaratdıqdan sonra Ebbinqhauz qutudan bir sıra təsadüfi hecaları çıxardı və sonra onları dəftərçəyə yazdı. Sonra metronomun adi səsi altında və eyni səsin dəyişməsi ilə hecaları oxuyar və prosedurun sonunda onları xatırlamağa çalışırdı. Təkcə bir araşdırma 15.000 qiraət tələb edirdi [3].

Hermann Ebbinqhauzun insan yaddaşını öyrənməyə başladığı dövrdə ali psixoloji proseslərin tədqiqi fəlsəfə sahəsi ilə çox sıx əlaqəli idi; Edvard Titçener və Vilhelm Vundtun müdafiə etdiyi introspektiv özünü müşahidə yanaşmaları bu sahədə üstünlük təşkil edirdi. Dəqiq elmi tədqiqat bir neçə psixoloji laboratoriyada aparılırdı, lakin bu, mahiyyətcə reaksiya vaxtı və hiss qavrayışı

kimi fizioloji proseslərin sınaqları ilə məhdudlaşırdı. Ebbinqhauzun yaddaşın öyrənilməsinə sistemli və diqqətli yanaşması daha yüksək idrak proseslərinin elmi şəkildə də öyrənilə biləcəyini nümayiş etdirməklə bu paradiqmanı dəyişdi. Bunu etmək üçün hazırladığı metodologiya yaddaşın öyrənilməsini fəlsəfədən çıxarıb empirik elm sahəsinə gətirdi. Onun bəzi yenilikləri, məsələn, cəfəng hecanın istifadəsi hələ də 21-ci əsrin öyrənmə və yaddaş tədqiqatlarında qiymətli alətlərdir [4].

Həmçinin Ebbinqhauzun məşhur “Unutma əyrisi” (Forgetting cruve) anlayışı da onun yaradıcılığının önəmli hissələri arasında öz yerini almışdır. İlk olaraq 1885--ci ildə Hermann Ebbinqhauz tərəfindən təklif edilən bu unutma əyrisinin varlığı müxtəlif sahələr üzrə tədqiqatçılar tərəfindən dəfələrlə təsdiqlənib. Bu unutma əyrisi onun ortaya atdığı bir riyazi düsturdur. Əyri, məlumatın zamanla hansı müddət aralığında unudulmasını göstərir. Xatırlama ilk saatda ən sürətlə itir, sonra bir qədər yavaşlayır və doqquz saatın sonunda öyrənilənlərin 60 faizi unudulur. 24 saatdan sonra yadda qalan hər şeyin təxminən üçdə ikisi unudulur.

Qrafikdə təsvir edildikdə, bu, kəskin enişlə başlayan və sonra yumşaq bir enişlə davam edən "unutma əyrisi" yaratdı. Ebbinqhauzun tədqiqatları yeni bir araşdırma sahəsi açdı və psixologiyanın yeni elmi intizam kimi formalaşmasına kömək etdi [5]. Məlumatın unudulma sürəti bir çox amillərdən təsirlənir. Öyrənilən məlumat nə qədər mürəkkəb olsa, onu unutmaq bir o qədər asan olar. Bundan əlavə, öyrənilən məlumatlar həyatımızla nə qədər çox əlaqəli olarsa, unutma sürəti bir o qədər yavaş olur. Bundan əlavə, yuxusuzluq, aclıq, stress və narahatlıq faktorları məlumatın unudulmasını asanlaşdırır. Miller müəyyən etdi ki, insan yaddaşı qısamüddətli yaddaşda yalnız yeddi elementi saxlaya bilir. Yeddi rəqəmli telefon nömrələrimizi onun işinə borcluyuq.

Bu unutma əyrisi bizə bunu göstərir:

- Unutmaq həyatın təbii və zəruri hissəsidir.

- Unutmaqdan bütünlüklə qaçmaq insan beyninin hər şeyi unutmaya olan təbii meylinə görə sonu olmayan yoxuşlu döyüşdür.
- Müəyyən bir hadisə ilə bağlı demək olar ki, bütün xatirələrimiz ilk 24 saat ərzində itirilir.
- Yaddaşın zəifləmə sürətində öyrənmə üsulları və öyrənmə tezliyi rol oynayır.
- Yaddaş izlərinin silinməsinin qarşısını almağın ən yaxşı yolu, "sıxışdırma" yerinə uzun müddət ərzində təkrarlamalarla öyrənməkdir.

Ebbinqhauzun unutma əyrisinin hesablandığı düstur aşağıdakı kimidir: $R = exp(-t/S)$ , $R$ yaddaşın saxlanmasını, $t$ vaxtı simvollaşdırır və $S$ yaddaşın nisbi gücünü göstərir [6].

### ƏDƏBİYYAT


**1.** Hacettepe Üniversitesi, Edebiyyat fakültesi dergisi 2005
**2.** https://ebbinghausmuseum.org/
**3.** http://scihi.org/hermann-ebbinghaus-memory
**4.** https://intelltheory.com/intelli/hermann-ebbinghaus/
**5.** https://www.ilhamipektas.com/unutma-egrisi-ebbinghaus-unutma-egrisi/
**6.** https://e-student.org/ebbinghaus-forgetting-curve/


## UŞAQLARDA BÖHRANIN ÜMUMİ ƏLAMƏTLƏRİ


***Soltanova-İsbəndiyarova Qəmzə Hafiz qızı***
***OYU-nun II kurs magistrantı***
*qmzsoltanova@gmail.com*


Böhran dövrü yeni bir mərhələdir, uşağın psixo-emosional inkişafında kəskin sıçrayış, həyat, bacarıq və davranış xüsusiyyətləri haqqında yeni anlayışların ortaya çıxmasıdır. Uşaq böhrandan çıxdıqda, o, yeni bacarıqları inkişaf etdirir, möhkəmləndirir və təkmilləşdirir.

Psixoloqlar yaşa bağlı böhranların konkret səbəblərini dəqiq və birmənalı olaraq adlandıra bilmirlər. Sinir fəaliyyətinin zəif və ya qeyri-sabit növü olan uşaqların ən kəskin təzahürlərlə böhran keçirmə ehtimalı yüksəkdir. Böhran xüsusilə xolerik və ya melanxolik temperamentli uşaqlar üçün çətindir. Sanqvinik və flegmatik uşaqlar böhran dəyişikliklərinə daha az həssasdırlar.

Avtoritar valideynlik məktəbəqədər yaşda ciddi böhranın başqa bir səbəbidir. Həmçinin valideynlərin artan narahatlığı və körpə üçün həddindən artıq qayğı da bu səbəblərdəndir. Valideynlər uşağı müstəqil hesab etmirlər, onun üçün hər şeyi edirlər.

Psixi pozuntular, nevroloji xəstəliklər və ağır xroniki patologiyalar da uşaqların reaksiyalarına təsir göstərir.

Ailədaxili münaqişələr zamanı da uşaqlarda böhranın əlamətləri kəskinləşir.

Psixoloqlar böhran davranışının 7 əsas əlamətini müəyyən edirlər:

**Neqativizm**. Uşaq böyüklərin göstərişlərinə əməl etməkdən qəti şəkildə imtina edir, hətta bu tələb uşağın özü üçün faydalı olsa belə.

**İnadkarlıq**. Körpə birdən-birə vərdişlərini dəyişir və rejimə riayət etmək istəmir. Qalmaqallar və isterik reaksiyalar vasitəsilə istədiyi kimi etmək hüququ qazanmağa çalışır.

**Müstəqillik**. Uşaq qərar verir və bu xəttə ciddi əməl edir. Onu müəyyən vərdiş edilmiş hərəkətlərə məcbur etmək, inandırmaq və ya həvəsləndirmək mümkün deyil.

**İradəlilik**. Körpə valideynlərin göstərişlərinə və ya sözlərinə məhəl qoymadan hər şeyi tək başına etmək istəyir.

**Etiraz**. Valideynlər uşaq üçün bir şey seçmiş və ya qərar vermişlərsə, uşaq bu şeylərdən və ya hərəkətlərdən imtina edir.

**Amortizasiya**. Körpə əvvəllər onun üçün vacib, sevilən və ya əziz olan şeyləri və ya hərəkətləri qiymətləndirməyi dayandırır. O, sevimli oyuncaqlarını atıb sındıra, valideynlərinin adını çəkə, qardaş və bacıları ilə dava edə, sevimli yeməklərindən imtina edə bilər.

**Despotizm**. Uşaq ailə üzvlərinə əmr etməyə çalışır, təslim olmağı və şübhəsiz itaət etməyi tələb edir. Əgər onun şıltaqlıqları yerinə yetirilməzsə, onun ardınca isterika və qışqırıqlar gəlir, ayaqlarını döyəcləyir, səsini ucaldır.

Bu əlamətlərin hamısı eyni dərəcədə aydın şəkildə özünü göstərə bilməz, hər uşaqda fərqli şəkildə özünü göstərir.

**ƏDƏBİYYAT**


1. Л.А. Тухужева, Д.С. Темирканова, Д.А. Гукова. Проблемы кризиса трех лет с точки зрения Л.С. Выготского // Вопросы науки и образования, 2018.
2. Д.М. Шакирова, А.Ф. Гильманова. Возрастные кризисы у детей дошкольного и школьного возраста // Скиф. Вопросы студенческой науки, 2019.
3. Тельнова Жанна Николаевна, Малашенкова Валентина Леонидовна. Взаимодействие дошкольной образовательной организации и семьи в период проявления у ребенка кризиса трех лет // Национальные приоритеты России №4 (39), 2020 г.
4. Кокорева Оксана Ивановна, Башинова Светлана Николаевна, Тараскина Ирина Викторовна. Коррекция негативных проявлений у детей трех лет в условиях детского сада // Гуманитарий: актуальные проблемы гуманитарной науки и образования №1 (22), 2022 г.


## SOSİAL İNTELLEKTİN İNKİŞAF ETDİRİLMƏ ÜSULLARI


***Zamanova Aytac Amil qızı***
***BDU- nun II kurs magistrantı***
*aytaczaman0@gmail.com*


Sosial intellekt digər insanları anlamaq, onların qeyri- şifahi və emosional işarələrini müəyyən etmək və müvafiq olaraq onların ehtiyaclarına cavab vermək qabiliyyətidir. Sosial intellekt özünü dərk etməyə yönəlmiş emosional intellektdən fərqli olaraq, bizə

mürəkkəb insan qarşılıqlı əlaqələri arasında səmərəli şəkildə hərəkət etməyə imkan verir.

Yüksək sosial intellektə malik olan insanları fərqləndirən əsas bacarıqlar sırasında aşağıdakıları qeyd etmək olar:

**Aktiv dinləmə-** digər insanları həqiqətən dinləmək, onların dediklərini yenidən ifadə etmək və mənalı söhbətləri təşviq etmək üçün diqqətlilik nümayiş etdirmək bacarığıdır.

**Uyğunlaşma-** Davranışını müxtəlif insanlara və vəziyyətlərə uyğunlaşdırmaq bacarığıdır.

**Qeyri şifahi dilin oxunması-** Digər insanların ruh halını daha yaxşı anlamaq üçün təbəssüm, göz təması, duruş və s. kimi bədən dili işarələrini şərh etmək bacarığı.

**Empatiya-** Başqalarının hisslərini və emosiyaları anlamaq və onlara cavab vermək bacarığı.

**Əlaqələrin qurulması-** Xüsusi şəraitdə başqaları ilə tez bir zamanda əlaqə qurmaq qabiliyyətidir.

**Etibarlı ünsiyyət-** Başqalarının perspektivlərini nəzərə alaraq, öz hisslərini və fikirlərini aydın şəkildə ifadə etmək bacarığıdır.

**Münasibətlərin idarə edilməsi-** Sağlam münasibətləri necə saxlamağı və idarə etməyi bilmək qabiliyyətidir.

Sosial intellektin inkişafının öyrənilməsində analitik metod tədqiqat zamanı əldə edilən böyük həcmdə məlumatların işlənməsini asanlaşdırmışdır. Bu üsul tələbələrin sosial intellektinin təkamülünə təsir edən vacib amilləri müəyyən etməyə və verilənlərə əsaslanan nəzəri konsepsiyaları formalaşdırmağa imkan verir.

Sintez üsulu, tələbələrin sosial intellektinin inkişafını bu prosesə təsir edən müxtəlif amilləri nəzəri almaqla bir çox aspektdən araşdırmağa imkan verir. Funksional metod, sosial intellektin cəmiyyət və tələbələrin şəxsiyyətlərarası münasibətləri kontekstində hansı rol və funksiyaları yerinə yetirdiyini müəyyənləşdirməyə imkan verir.

Konkretləşdirmə metodu isə müxtəlif sahələrdə tələbələrin sosial intellektinə təsir edən nüansları, dəyərləri və normaları müəyyən etməyə imkan verən nümunə araşdırmalarına diqqət yetirməyə imkan verir. Ümumiləşdirmə metodu, tələbələrin sosial intel-

lektinin inkişafının əsas meyllərini və qanunauyğunluqlarını müəyyənləşdirməyə eyni zamanda tələbələrin sosial adaptasiyasını və şəxsiyyətlərarası qarşılıqlı əlaqələri yaxşılaşdırmaq üçün tövsiyələr formalaşdırır.

Sosial intellekti inkişaf etdirməyin müxtəlif üsulları vardır:

Sosial intellekti inkişaf etdirməyin ən təccüblü, lakin təsirli bir üsulu improvizasiya teatrıdır. Bu üsul aktiv dinləməni mənimsəməyə, başqaları ilə müxtəlif əlaqələr qurmağa, söhbət zamanı onlara lazımı cavab verməyə kömək edir.

Sosial intellektin inkişafı üçün istifadə edilən metodlardan biri də sorğu metodudur. Sorğu metodu tələbələrin qavrayışları və sosial intekketin inkişaf səviyyəsi ilə bağlı rəy, baxış, qiymətləndirmələri toplamaq imkanı vermişdir. Eyni zamanda, sorğu metodundan istifadə kəmiyyət və keyfiyyət məlumatlarını toplamağa kömək edir, tədqiqatları zəngin məlumatlarla zənginləşdirir.

Komanda işinə diqqət yetirmək- Təvazökarlıq və əməkdaşlıq sosial intellektin əhəmiyyətli bir hissəsidir. Yeni ideyalar yaratmaq və onları sınamaq bacarığı güclü şəxsiyyətlərarası bacarıqları nümayiş etdirir.

Mədəni fərqlərə hörmət etmək- Əksər insanlar insanların bacarıqlarını ailələrindən, dostlarından və onları əhatə edən cəmiyyətdən öyrənsələr də, sosial intellektli insanlar başa düşür ki, onların tərbiyəsinə görə başqalarının fərqli reaksiyaları və adətləri ola bilər.

Həyatdan məmnunluq səviyyəsinin aşağı olması sosial intellektin inkişafına mənfi təsir göstərə bilər. Emosional narazılıq empatiya və şəxsiyyətlərarası münasibətlərə təsir göstərərək uğurlu sosial əlaqəyə maneələr yarada bilər. Həyatdan yüksək səviyyədə məmnunluq, adətən sosial intellektin inkişafına müsbət təsir edir. Özünü xoşbəxt hiss edən insanlar daha sabit emosiyalara sahib olurlar, başqalarına müsbət münasibət göstərirlər, ünsiyyətə daha açıqdırlar və uğurlu əməkdaşlıq edirlər. Bu, şəxsiyyətlərarası münasibətlərin qurulmasında, müxtəlif sosial vəziyyətlərə uyğunlaşmada və sosial bacarıqların inkişafında asanlaşmaya kö-

mək edir. Məmnunluq hissi stress səviyyələrini də azalda bilər ki, bu da sosial qarşılıqlı əlaqəyə kömək edir.

**ƏDƏBİYYAT**

1. Development of social intelligence of students in the process of thinking
2. https://physics.uz.ua/en
3. Methods of teaching social intelligence and its impact on service quality

## TƏLƏBƏLƏRDƏ SOSİAL-EMOSİONAL ÖYRƏNMƏNİN İNKİŞAF İSTİQAMƏTLƏRİNİN ÖYRƏNİLMƏSİ

***Rəhimova Leyla Məqsəd qızı***
***BDU-nun II kurs magistrantı***
*rehimovaleyla30@gmail.com*

Sosial-emosional öyrənmə müasir təhsil sistemində getdikcə daha çox diqqət mərkəzinə çevrilmişdir. Ənənəvi təhsil sistemlərində əsas diqqət akademik biliklər və məntiqi bacarıqların inkişafına yönəldilsə də, müasir yanaşmalar tələbələrin emosional rifahı, sosial bacarıqları və ümumi həyati hazırlığı üzərində daha geniş dayanır. Müasir dövrdə təhsil sistemində şəxsiyyətlərarası münasibətlərin adekvat qurulmasına, təhsil nailiyyətlərinin dövrün tələbləri səviyyəsinə yüksəldilməsinə, insanlarda empatik münasibətlərin adekvat istiqamətdə formalaşdırılmasına ciddi ehtiyac duyulur.

Bu proses nəticəsində sosial bacarıqlar meydana çıxır. Tələbələr özlərinin və həmçinin digər insanların emosiyalarını anlamağı, həmin emosiyaları idarə etməyi və eyni zamanda stresslə mübarizə aparmaq bacarığına yiyələnmələri üçün sosial-emosional bacarıqların onlarda formalaşması və inkişafı mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri kimi nəzərdən keçirilir. Öz zəif və güclü tərəfini analiz etməyə, qarşısına müvafiq məqsəd qoyaraq bu istiqamətdə davranışlar formalaşdıran bir tələbənin gələcəkdə müvəffəqiyyətli bir həyat qurması, qarşısına çıxan problemləri asanlıqla həll edib, maneələri aradan qaldırması yüksək ehtimal hesab olunur.

Müsbət sosial və emosional inkişaf uşağa, eləcə də onların valideynlərinə, müəllimlərinə və cəmiyyətə fayda gətirir. Tələbələri emosional bacarıqlar inkişaf etdirməyə təşviq etmək onlara daha yaxşı münasibətlər qurmağa kömək edir [1].

Araşdırmalar göstərir ki, müsbət sosial-emosional inkişaf həm də psixi sağlamlığı yaxşılaşdırır, məktəblərdə zorakılığı azaldır və uşaqların sinifdən kənarda uğur qazanmasına kömək edir. Gənclər öz duyğularını necə idarə etməyi və problemləri həll etmək üçün başqaları ilə ünsiyyət qurmağı, hər hansı bir vəziyyəti daha yaxşı başa düşməyi başa düşməyə başlayırlar [1].

Müxtəlif araşdırmalara görə, müəllimlər sinifdə intizam tədbirlərini həyata keçirmək üçün hər dərs üçün səkkiz dəqiqə vaxt itirirlər. Müsbət sosial-emosional inkişaf, uşaq özünü ifadə etməyi, müəllimlər və həmyaşıdları ilə əməkdaşlıq etməyi öyrəndiyi üçün məktəblərdə intizam tədbirlərinə ehtiyacı azaldır. Bu faydalı təsirlər daha sonra həyatda, işdə və şəxsi münasibətlərdə tələblərdə özünü göstərəcək.

Bir çox tədqiqatlar [3], eləcə də sosial-emosional öyrənmənin məzmununda əks olunan komponentlər emosional intellekti diqqət mərkəzinə gətirir. Emosional intellekt, doğum zamanı sosial-emosional öyrənməni müəyyən etmək və ölçmək üçün ən etibarlı fenomenlərdən biridir. Hesab olunur ki, sosial və emosional öyrənmə prosesində bir növ emosional intellekt inkişaf edir və bu tələbələr üçün çox vacibdir. Çünki onların gələcək fəaliyyətlərində emosiyaların idarə olunması, empatiya, özünüdərk və sosial bacarıqların inkişaf etdirilməsi müasir peşə sahələrində mühüm əhəmiyyət kəsb edir.

Emosiyalar tələbələrin akademik fəaliyyətinə, iş etikasına, öhdəliyinə və son universitetdə uğuruna kömək edə və ya mane ola bilər. Münasibətlər və emosional proseslər tələbələrin necə və nə öyrəndiyinə təsir etdiyi üçün təhsil müəssisələri və ailələr bütün tələbələrin xeyrinə təhsil prosesinin bu aspektlərini effektiv şəkildə həll etməlidirlər [2].

Müasir təhsil sistemində sosial-emosional öyrənmə bir neçə formada həyata keçirilir. Bunlardan birincisi məktəb mühiti hesab olu-

nur. Məktəblər sosial-emosional öyrənmə prinsiplərini öz tədris proqramlarına daxil edirlər. Sinif fəaliyyətləri, xüsusi dərslər və layihələr tələbələrin həm emosional, həm də sosial bacarıqlarını inkişaf etdirməyə yönəlir. Məktəb psixoloqları və məsləhətçiləri də tələbələrin emosional rifahını dəstəkləmək üçün fəal şəkildə işləyirlər.

Təhsildə sosial öyrənmə bir sinifdə birdən çox şagirdi öyrətmək üçün uyğundur, çünki bu öyrənmə müxtəlif səviyyələrdə və müxtəlif vəziyyətlərdə baş verə bilər. Uşaqlar daim başqalarını müşahidə edərək, bu cür öyrənməni həm interaktiv, həm də davamlı edir. Müəllimlər şəxsi təcrübələri mənalı məzmun kimi çərçivəyə salmaqla, həmyaşıdların qiymətləndirilməsi vasitəsilə cəmiyyətə töhfə verməklə, paylaşılan təcrübələri inkişaf etdirmək üçün qrup işindən istifadə etməklə və şagirdlərin şəxsiyyətlərinə təsir etmək üçün fənn təlimatının məqsədini genişləndirməklə şagird öyrənməsinə dəstək ola bilər [4].

İkinci olaraq, ailə və cəmiyyət dəstəyi sayəsində formalaşan sosial-emosional öyrənmə nəzərdə tutulur. Sosial-emosional inkişaf təkcə məktəbdə deyil, həm də ailə və cəmiyyət mühitində davam etməlidir. Valideynlər və digər icma üzvləri də bu prosesin bir hissəsi olmalıdır. Ailələr uşaqlarla açıq ünsiyyət quraraq onların emosional inkişafını dəstəkləyə bilər.

Bu sahədə həmçinin texnologiyanın rolu da danılmazdır. Müasir texnologiyalar da sosial-emosional öyrənməni dəstəkləyə bilər. Məsələn, bəzi təhsil proqramları və tətbiqlər sosial-emosional öyrənməni təbliğ edən oyunlar və fəaliyyətlər təklif edir.

Sosial-emosional öyrənmənin bir sıra faydaları vardır. Bunlardan ən başlıcası, sosial-emosional öyrənmənin akademik uğuru artırmasıdır. Tələbələr özünü idarəetmə bacarıqları ilə dərs prosesində daha çox fokuslana, vaxtı səmərəli idarə edə və stresslə mübarizə apara bilirlər. Bundan başqa sosial-emosional öyrənmə tələbələr arasında empatiya və hörmətə əsaslanan daha sağlam münasibətlərin qurulmasına kömək edir. Bu da siniflərdə harmoniyanı artırır və münaqişələrin sayını azaldır. Digər bir töhfə isə, tələbələrin emosional rifahı, onların şəxsi həyatlarında və gələcək işlərində uğurlu olmasına böyük təsir göstərməsidir. Sosial-emosional bacarıqları

inkişaf etdirən tələbələr gələcəkdə daha müstəqil və məsuliyyətli fərdlər olurlar.

Sosial-emosional öyrənmə müasir təhsil sisteminin ayrılmaz hissəsinə çevrilərək, tələbələrin hərtərəfli inkişafını dəstəkləyir. Bu yanaşma təhsilin məqsədini təkcə akademik uğurla məhdudlaşdırmayaraq, tələbələrin həyati bacarıqlarını və emosional rifahını artırmağa yönəlmişdir.

## ƏDƏBİYYAT


1. Bavarian N., Lewis K., David L. Using Social-Emotional and Character Development to Improve Academic Outcomes: A Matched-Pair, Cluster-Randomized Controlled Trial in Low-Income, Urban Schools // Journal of School Health, 2013.
2. Elias, M. J. et al. Promoting Social and Emotional Learning: Guidelines for Educators. Alexandria: Association for Supervision and Curriculum Development // **Creative Education**, Vol.8 No.13, October 30, 2017
3. Jabbarov, R., Mustafayev, M., Valiyeva, Y., Babayeva, T., &Abbasova, A. (2023). Study of the relationship between emotional intelligence and aggressiveness in students. *University Notes*, *13* (2), 155–174.
4. Restad, F. (2021). Exploring the problems and potential of curriculum-making for social learning: Implications for policy and practice. *The Curriculum Journal.3:5:145-147*


# AİLƏDAXİLİ KONFLİKTLƏRİN UŞAQLARIN İNKIŞAFINA TƏSİRİ


***Mansurzadə Nəzrin Elxan qızı***
***BDU-nun II kurs magistrantı***
*mansurzade.n883@gmail.com*


Hazırkı tezisin məqsədi ailə münaqişələrinin uşaqlara əsas təsirlərini və bu təsirlərin onların inkişaf səviyyəsinə necə təsir etdiyini müəyyən etməkdir. Uşaqların dözümlülük səviyyəsinə təsir

edən ailədaxili münaqişələrin əsas təsirləri bunlardır: aşağı özünə inam, zehni yorğunluq, narahatlıq, zəif məktəb performansı, introvertizm, depressiya, özünütənqid və s.

Hər hansı bir cəmiyyətdə münaqişələr qaçılmazdır, baxmayaraq ki, əsas diqqət silahlı münaqişələr , etnik və dini, iqtisadi, siyasi münaqişələrdir və ailə münaqişələri də təhlildə mühüm yer tutmağa başlayır. Ailələrdə daimi münaqişə mühitinin mövcudluğu zaman keçdikcə uşaqların dözümlülük səviyyəsinə təsir göstərə bilər, ailədaxili münaqişələr uşaqların fiziki, lakin xüsusilə zehni inkişafına bir sıra mənfi təsir göstərir.

Həmçinin, dözümlülük ailənin xüsusiyyətləri və ailə üzvlərinə üzləşdikləri problemləri həll etməkdə kömək etmək qabiliyyəti kimi müəyyən edilir və problemdən əvvəlki vəziyyətə qayıtmaq üçün zəruri olan müsbət davranış və münasibət nümunələri və fərdi səriştələr kimi qəbul edilə bilər. Bundan sonra deyə bilərik ki, uşağın inkişafı fiziki sağlamlıq, ruhi rifah, ailə ünsiyyəti və ahəngdar ailə mühiti kimi əlamətlər silsiləsi üzərində qurularsa, yüksək səviyyədə dözümlü ola bilər.

Ailə üzvlərinin fərqli baxışları və ya inancları ziddiyyət təşkil etdikdə münaqişə baş verə bilər. Bəzən insanlar bir-birini səhv başa düşdükdə və yanlış nəticəyə gəlməkdə münaqişə yarana bilər. Sülh yolu ilə həll olunmayan münaqişə məsələləri mübahisələrə və narazılıqlara səbəb ola bilər. Zaman-zaman bir-biri ilə razılaşmamaq normaldır. Ara-sıra münaqişə ailə həyatının bir hissəsidir. Bununla belə, davam edən münaqişə stresli və münasibətlərə zərər verə bilər. Bəzi insanlar öz hisslərini idarə etməkdə çətinlik çəkirlər və qəsdən incidici, aqressiv və ya hətta zorakı olurlar.

Bu cür münaqişələr ailədəki hər kəsə təsir edir, lakin uşaqlara elə təsir edir ki, böyüklər bunu dərk edə bilməz. Münaqişədə olan valideynlər sözləri və ya hərəkətləri ilə övladlarına nə çatdırıldığından çox diqqətli olmalıdırlar. Uşaqlar valideynləri arasında hər hansı bir münaqişəni təhdid kimi görürlər, nəticədə ilk baxışdan görünməyən psixoloji yük yaranır. Üstəlik, bu yükün nəticələri yalnız sonradan, məsələn, yeniyetməlik və ya erkən yetkinlik dövründə problemli davranışla ortaya çıxa bilər. Uşağın artıq ailə

münaqişəsinin təsirinə məruz qalmadığı yaş yoxdur – və bu, valideynlərin hələ də birlikdə yaşamasından, ayrılmaq üzrə olmasından və ya bir müddət əvvəl ayrılmasından asılı olmayaraq doğrudur.

Biz tez-tez uşaqlarda birdən-birə və ya ayrı-ayrılıqda baş verə bilən valideyn münaqişəsinə aşağıdakı üç reaksiyanı müşahidə edirik:

1. Uşaq ailə vəziyyətini özü ilə qəbul edir. Evdəki mübahisələrdən və gərgin atmosferdən hiss etdikləri narahatlıq və gərginlikdən xilas olmaq üçün uşaq öz dünyasına çəkilir. Uşaq kənardan çox "yaxşı davranışlı" olduğundan, digər insanlar vəziyyətin uşağa təsir etmədiyini və ya onların öhdəsindən yaxşı gəldiyini düşünürlər, halbuki əslində münaqişə uşağa icazə verdiyindən daha dərindən təsir edir.

2. Uşağın reaksiyaları xaricdən görünür – onlar narahat, əsəbi və yaxud aqressivdirlər. Uşaq narahat və əsəbi olduqlarını göstərmək və ya valideynlərini mübahisə etməkdən yayındırmaq üçün pis davrana bilər. Valideynlər bu təzahürləri sadəcə olaraq uşaqda yaramazlıq kimi şərh edə bilər və psixoloq, psixiatr və ya nevroloqun köməyi ilə onları aradan qaldırmağa cəhd edə bilərlər. Bununla belə, valideynlər çox vaxt uşağın nalayiq davranışına onların münaqişələri və boşanma və ya ayrılığın nəticələrinin səbəb olduğunu etiraf etmək istəmirlər.

3. Uşaq valideyn məsuliyyətini öz üzərinə götürməyə çalışır (başqa sözlə, uşaq valideyn rolunu oynamağa çalışır). Uşaq valideynləri üçün vəziyyəti həll etməyə çalışır (məsələn, "Ata, anaya bunu etmə" və ya "Ana, mən atama deyəcəm ki, sənin belə hiss edirsən").

Duyğular real, lakin görünməz olduqda, uşağın problemləri dərhal görünməyə bilər, çünki uşaq öz hisslərini gizlədə bilər, vəziyyətinin yaxşılaşacağına ümid edə bilər. Bu müddət ərzində onlar valideynlərini razı salmaq və problemlərini özlərində saxlamaq üçün çox çalışa bilərlər, əslində isə narahatlıq, kədər, ümumi depressiya, boşanma və münaqişələrə görə günahkarlıq, özünü ittiham etmə, qorxu, inamsızlıq kimi mənfi emosiyalar yaşayırlar.

Ailə münaqişəsində olan uşaqda yuxu pozğunluğu, diqqət çatışmazlığı pozğunluğu, davranış pozğunluğu, valideynə itaət etməkdən imtina və ya psixosomatik problemlər (baş ağrısı, mədə ağrısı və s.) müşahidə olunur. Uşaq düşmən kimi və ya aqressiv davrana və ya riskli davranışlar göstərə bilər. Çox vaxt uşağın məktəbdəki performansı və məktəbdəki davranışı pisləşir (narahatlığın artması və diqqəti cəmləmək qabiliyyətinin azalması nəticəsində) və bu, həmyaşıdları ilə münasibətlərin keyfiyyətinin aşağı düşməsinə səbəb ola bilər.

Uşaqlarda dağıdıcı, həll olunmamış valideyn-övlad münaqişəsi nəticəsində onların yaşaması üçün vacib olan emosional əlaqələrin gücünə dair qeyri-müəyyənlik yarana bilər. Buna görə də uşaqlar mübahisəni bitirmək üçün hərəkət edə bilər və ya bu cür təhdidlərdən qaçmaq üçün özlərinə və xoşagəlməz duyğulara çəkilə bilərlər. Bəzi uşaqlar özlərini günahlandırırlar ki, bu da öz dəyərini aşağı salır. Valideynlərinin mübarizəsini dayandıra bilməyən uşaqlar uğursuzluğa düçar ola bilərlər və bu, depressiyaya səbəb ola bilər. Valideyn təsəlli üçün uşağa müraciət edə bilər, tərəfdaşı ilə yerinə yetirilməyən əlaqəni itirməsini kompensasiya etmək üçün gəncə həddindən artıq təzyiq göstərə bilər. Bu, "kompensator" yayılma kimi tanınır.

Yeniyetmələrdə valideyn münaqişələri romantik münasibətlərdə mənfi fikirlər və təcrübə, tənhalıq hissləri, münaqişənin həlli və öz emosiyalarının öhdəsindən gəlməkdə problemlər, münasibətlərində aqressiv davranış, özünə hörmətin aşağı düşməsi və zəif məktəb performansı kimi hallar görülə bilər. Bu dövrdə uşaq dərsdən yayınma, alkoqol və narkotik istifadəsi, evdən qaçma, özünə zərər vermə və ya qanun pozuntusu kimi davranışlar kimi müxtəlif "qaçma reaksiyaları" da göstərə bilər.

Uşağın hisslərinin mənfi təzahürləri çox vaxt valideynlərdən birinin və ya hər ikisinin pis tərbiyəsinin nəticəsi kimi yanlış şərh olunur. Bunun belə olmadığını başa düşmək vacibdir; yuxarıda sadalanan problemlər adətən ailə münaqişəsi ilə üzləşmiş uşaqlarda müşahidə olunur və dərhal valideynləri günahlandırmaq olmaz.

Valideynlər münaqişələri ətrafında konstruktiv davrandıqda, uşaqların psixi sağlamlığı yaxşılaşır. Valideynlər birlikdə sakit danışa və diqqətlərini problemin həllinə yönəldə bilərlər. Ola bilsin ki, valideynlər danışarkən bir-birlərinə yumşaq bir şəkildə toxuna bilərlər, hətta bir-biri ilə yumordan istifadə etmək faydalı ola bilər, çünki bu, uşaqlara gücləndirici təsir göstərir. Valideynlərinin fikir ayrılıqlarını həll etdiyini görəndə, ailələrinin təhlükəsiz və təhlükəsiz olduğunu hiss edirlər.

Valideynlərinin münasibətlərinin keyfiyyəti, hətta uşaqlar yetkin olduqdan və evi tərk etdikdən sonra belə, onların psixi sağlamlığına və rifahına təsir edə bilər. onların psixi sağlamlığına təsirini pisləşdirə biləcək öz münasibətlərində şəxsiyyətlərarası üslublar. Daha kiçik tədqiqatlar göstərdi ki, müdaxilələrlə valideynlər münaqişələri daha konstruktiv həll etdikdə, problemləri birlikdə həll etdikdə və bir-biri ilə mehriban danışdıqca, uşaqların zehni rifahında qısamüddətli yaxşılaşmalar olur. Sağlam valideynlik tərbiyəsini təşviq edən və valideynlərin psixi sağlamlığını inkişaf etdirən müdaxilələr də təsirli olur. Uşaqlar həm də sinif yoldaşları, digər böyüklər və ya bacı-qardaşlarla əhəmiyyətli əlaqələr vasitəsilə valideynlərarası münaqişənin təsirindən qorunur

## ƏDƏBİYYAT

1. Effects of family conflicts on children’s personalities pdf. https://www.researchgate.net/publication/365661185_Effects_of_Family_Conflicts_on_Children's_Personalities
2. The impact of parental conflict on children for their growth, upbringing and proper grooming. The effects of family conflict on child development.
https://www.betterhelp.com/advice/family/understanding-the-effects-of-family-conflict-on-child-development/
3. https://www.scottishconflictresolution.org.uk/blog/how-family-conflict-affects-childhood-mental-health
4. Reducing parental conflict: the impact on children. https://www.gov.uk/guidance/reducing-parental-conflict-the-impact-on-children

# AİLƏ MÜHİTİ VƏ YENİYETMƏLƏRDƏ NATAMAMLIQ KOMPLEKSİNİN TƏŞƏKKÜL XÜSUSİYYƏTLƏRİ

***Xasıyeva Anarə Azər qızı***
***BDU-nun II kurs magistrantı***
*anarexasiyeva@gmail.com*

Yeniyetməlik fərdlərin şəxsiyyət kimi formalaşmasında mühüm mərhələdir və bu prosesdə ailə mühiti mühüm rol oynayır. Ailədaxili dinamika yeniyetmənin özünəinamına, müstəqillik axtarışına və çatışmazlıq kompleksini qiymətləndirməsinə həlledici təsir göstərir.

Yeniyetməlik dövründə yeniyetmələrin ailələrindən aldıqları emosional dəstək onların sağlam özünü inkişaf etdirmələri üçün lazımdır. Ailə yeniyetmədə özünə inam hissini inkişaf etdirmək və çətin anlarda dəstək tapmaq üçün kritik bir mənbə təmin edir. Ailə ilə yaxşı münasibətlər yeniyetmənin özünü dəyərli hiss etməsinə səbəb olur və onun xarici aləmdə qarşılaşdığı çətinliklərin öhdəsindən gəlmək qabiliyyətini artırır [1]. Dəstəklənən ailələrdə böyüyən yeniyetmələr tez-tez daha yaxşı psixoloji uyğunlaşmaya malikdirlər və daha az depressiya yaşayırlar [2]. Ailədaxili təhlükəsiz mühit yeniyetmələrin subyektiv rifahını artırsa da, ziddiyyətli ailə strukturu problemli davranışların yaranmasına səbəb ola bilər.

Sağlam ailə mühitində yeniyetmələr öz hiss və düşüncələrini rahat şəkildə ifadə etmək imkanı əldə edirlər. Bu, onların özünə hörmətini və sosial bacarıqlarını artırır. Ailələrin demokratik münasibətləri yeniyetmənin müstəqil qərarlar qəbul etməsinə kömək etsə də, avtoritar münasibətlər narahatlıq və etibarsızlıq hisslərini gücləndirə bilər. Avtoritar və ya təzyiqçi münasibət yeniyetmənin özünü ifadə etmə qabiliyyətini məhdudlaşdıra və passiv-aqressiv davranışın inkişafına səbəb ola bilər.

Yeniyetmələr ailələrindən müstəqillik axtarırlar. Bu prosesdə onlar valideynlərinin ideal keyfiyyətlərini şübhə altına almağa başlayırlar. Yeniyetmələrə öz şəxsiyyətlərini tapmağa imkan ve-

rən “Mən səndən fərqliyəm” ideyası ön plana çıxır. Ancaq bu müstəqillik axtarışı ailədaxili münaqişələrə də səbəb ola bilər [3]. Yeniyetmələr valideynlərinin dəyərlərini öz düşüncələri ilə tarazlaşdırmağa çalışdıqları üçün özlərini qeyri-adekvat hiss edə bilərlər. Yeniyetməlik dövründə baş verən qeyri-adekvatlıq hissləri nəticəsində fərd özünü qeyri-kafi hiss edə bilər. Ailə daxilində mənfi münasibət və ya ünsiyyətin olmaması yeniyetmədə aşağılıq kompleksinin inkişafına səbəb ola bilər. Bu, sosial münasibətlərdə qısqanclıq və ya qeyri-adekvatlıq hissləri kimi mənfi emosiyalara səbəb ola bilər. Yeniyetmələr həmyaşıdlarının qəbulunun kritik hala gəldiyi bir inkişaf mərhələsindədirlər. Əgər ailə dəstəyi yoxdursa, onlar özlərini həmyaşıdları ilə xoşagəlməz bir şəkildə müqayisə edə bilər, bu da qeyri-adekvatlıq hisslərinə səbəb ola bilər. Bu müqayisə xüsusilə ailələrindən kifayət qədər təsdiq almayan yeniyetmələrdə özünü göstərir [4].

Ailənin tərbiyə üsulu və münasibətləri, yeniyetmənin özünə inamının inkişafında və natamamlıq kompleksinin qarşısının alınmasında əsas rol oynayır. Açıq ünsiyyət və müsbət tərbiyə metodları, yeniyetmələrin özlərini dəyərli hiss etmələrinə və psixoloji sağlam inkişaf etmələrinə kömək edir. Yeniyetmənin həyatında müsbət rol modellərinin olması da çox önəmlidir. Bununla yanaşı, aşırı nəzarət və sərt tələblər, yeniyetmənin özünü yetersiz hiss etməsinə səbəb ola bilər. Valideynlərin çox yüksək gözləntiləri, onların özlərini daim mükəmməl olmağa məcbur etməsi, özlərini başqaları ilə müqayisə etmələrinə gətirib çıxara bilər. Bu da özünə inamsızlıq və natamamlıq kompleksinin yaranmasına səbəb olur .

Natamamlıq kompleksi, yeniyetmələrin öz dəyərini və bacarıqlarını qiymətləndirmələrinə mənfi təsir edir. Nəticədə onların özünə inamı və özünə dəyər hissi azalır. Yeniyetmələr, özlərini başqalarına qarşı "qeyri-kafi" və "natamam" hiss etdikdə, sosial əlaqələrdən çəkinir və izolyasiya meydana gəlir. Eyni zamanda, bu kompleks, depressiya, narahatlıq və stres kimi psixoloji pozuntuların yaranmasına səbəb ola bilər [5]. Natamamlıq kompleksinin uzunmüddətli təsirləri, yeniyetmənin psixoloji və sosial in-

kişafını mənfi təsir edə bilər. Yeniyetmələr özlərinə dair mənfi düşüncələrini aradan qaldırmadığı təqdirdə, bu kompleks davam edə bilər və gənc yaşlarda ağır emosional və sosial problemlərə səbəb ola bilər.

Yeniyetməlik dövrü, kimlik axtarışı və şəxsiyyətin formalaşması baxımından mühüm bir mərhələdir. Ailə mühiti və valideyn münasibətləri, bu dövrün inkişafında təməl rol oynayır. Ailədəki sevgi, dəstək və açıq ünsiyyət, yeniyetmələrin özünə inamlarını artıran müsbət amillərdir. Lakin ailə daxilindəki gərginliklər, aşırı nəzarət və yüksək gözləntilər, yeniyetmələrdə natamamlıq kompleksinin yaranmasına səbəb ola bilər. Bu kompleksin qarşısının alınması üçün valideynlərin öz övladlarına qarşı anlayışlı və dəstəkləyici olmaları, onların sosial və emosional inkişafını dəstəkləyən müsbət mühitlər yaratmaları vacibdir.

## ƏDƏBİYYAT


1. Aba psixoloji- Ergenlikde ebeveyin tutumu nasıl olmalı
2. Impact of Family Environment on Mental Well-Being of Adolescent Girls (Indian Journal of Psychiatric Nursing)
3. Deniz Tirit Karaca Ergenlik Dönemi ve Ergenle İletişim
4. Family Environment, Coping, and Mental Health in Adolescents Attending Therapeutic Day Schools
5. Çavdar, A. (2014). Aile Ortamının Ergenlerin Psikolojik Gelişimine Etkisi. Aile ve Sosyal Hizmetler Dergisi.


## İNTİHAR PROBLEMİ VƏ ONUN MƏSLƏHƏT PRAKTİKASINDA HƏLLİ İSTİQAMƏTLƏRİ


***Abdullayeva Sevinc Ruslan qızı***
***OYU-nun II kurs magistrantı***
*sevincabdulla97@gmail.com*


Hər il 720 000-dən çox insan intihar nəticəsində ölür. Hər bir intihar üçün təxmini 20 intihar cəhdi var. Rəqəmlərin sayı hər il artmaqda davam edir. İntiharın mahiyyətini anlamaq təbii ki buna

tarixi dövrlər ərzində müsbət və mənfi məna yükləyərək qiymətləndirmişlər. Günah və ya şanlı ölüm kimi mənalandırmışlar. İntihara ilk istinadların olması Misir mənbələrində olduğu qeyd olunur. Beləki intiharı sanki xəstə bir insanın sağalması kimi qiymtəndirilir. Bu ruhuyla mübahisə edən insan olaraq mənbədə qeyd olunur. Qədim Yunan Fəlsəfəsi intiharı qəbul etmədiyi halda qədim romalılar isə intiharı layiqli ölüm hesab edirdilər.

İngiltərədə isə özünü öldürməyə cəhd 1961-ci ilə qədər cinayət sayılırdı (və yalnız insanları müalicə almağa təşviq etmək üçün cinayətdən azad edilmişdir) və intihara və ya intihara cəhdə kömək edən, həvəsləndirən və ya məsləhət verən hər kəs hələ də on dörd il həbs cəzasına məhkum edilirdi. Şərq fəlsəfəsinə diqqət yetirdikdə görürük ki, intihar bir çox cərəyanlarda müsbət yüklüdür nümunə olaraq Yaponiya mədəniyyətində Seppuku və ya harakiri adlandırdıqları intihar növüdür. Buna baxmayaraq Müsəlman cəmiyyətində günah mənasını daşıyır.

Beləliklə, antik dövrdən on doqquzuncu əsrə qədər intihar fəlsəfi, etik, dini və hüquqi problem idi; narahatlıq hansı hallarda qadağan, məqbul və ya hətta arzuolunan ola bilərdi? 1800-cü illərin əvvəllərindən başlayaraq, bu, tədricən psixoloji və psixoloji araşdırmaya çevrildi: “Kim özünü öldürdü və niyə belə etdi” .

Bu sualların yaranması insan oz varlığını artıq dini və fəlsəfii aspektdən deyildə psixoloji aspektdən baxmağa vadar etmişdi. Ümumiyyətlə baxdıqda isə intihara ilk olaraq sosioloji aspektdə təhlil olunmağa başlanılmışdır. İntiharın etiologiyasında sosial amillərin təsirli rolu Durkheim tərəfindən vurğulanmışdır. Onun intihar modeli iki sosial qüvvə, sosial inteqrasiya və mənəvi inteqrasiyaya yönəlmişdir. Bu müstəvidə baxılması sosioloji tərəfləridir. Ancaq bu probelmə psixoloji aspektdə baxılması isə bunun hər hansı bir psixatrik diaqnozun təsiri ilə insanı intihar cəhd etməsidir. Beləki həyatın mənasının itirilməsi və öz varlığını qeyri-adekvat olaraq münasibətdə olmasıdır. Buna baxdıqda insanın özünü öldürməsi bir çox aspektlərdə baxılır və bu sosial və psixoloji amillərin fonunda baş verir.

1.**Sosial amillərin** təsirin araşdırılması isə burada cəmiyyətin rifah mərhələsindən söz açılmış olur. Beləki rifah və firavan cəmiyyətlərdə intiharın səviyyəsi digər cəmiyyətlərlə müqayisədə aşağı olmuş olur. Beləki burada sosial amillər dedikdə insanların iqtisadi vəziyyəti, təhsil səviyyəsi, sosial ailə dəstəyin olması böyük famillər olaraq qiymətləndirilir. Hər biri insanın öz həyatının məhsuliyyətini daha yaxşı başa düşməyə imkan vermiş olur. Ailənin dəstək olması isə intihara meyilli olan bir şəxsin özünün həyatına qəsd etməyi dayandırmıç olur bir növ kimi öz ailə məhsuliyyəti başa düşür. Mədəni dini faktlarda intiharın qarşısın almağa xidmət etmiş olur. Müxtəlif mədəniyyət və dini normalar insanlar üzərində təzyiqi çoxaldaraq intiharın artmasına səbəb ola bilir.

2.**Psixoloji amillər**. Psixoloji amilləri dedkdə is insan həyatının ağır bir stress səviyəsində olmasından xəbər verir. Belə olduğu təqdirdə isə fikrimcə psixatrik xəstəliyin fonunda olması ilə də baş vermiş olmur təbii ki burda bir insanın başqa insana hər hansı bir əmələ görə onu günahlandırması da intihara aparmış olur. Başqa mövqedən baxsaq isə intihara cəhdi isə digərlərinin diqqətini də çəkməyə yönləndirilmiş ola bilər.

Adlerin sözlərinə görə, intihar; Bu, qisas aktıdır. Onun sözlərinə görə və bu insanın öz yaxınlarına təsir etmək , bu yolla itirilmiş şeyləri yenidən qaytarmaq məqsədi daşıyır. Psixoloji aspektdən araşdırılmsı isə insan həyatının dəyər etalonun itirməsidir. İntihar riski olan şəxslərə psixoloji dəstəyin göstərilməsi birincili əlamətdir. Bu proses uzunmüddətli çəkən bir prosesdir ki burda ailə dəstəyin olması ən önəmli faktordur. Bu istiqamətdə insanlar yenidən cəmiyyətə qazanılmış olurlar.

## ƏDƏBİYYAT

1. Suicide worldwide in 2019, Global Health Estimates // World Health Organization ISBN (Online) 978-92-4-002664-3
2. Vital role of cultural and religious context on suicidal behavior // Psychiatry and Clinical Neurosciences, 2016, 70: 582–583 https://doi.org/10.1111/pcn.12458

3. Emile Durkheim, John A. Spaulding(translator) Suicide: Study in Sociology February 1, 1997 by Free Press
4. Vital role of cultural and religious context on suicidal behavior // Psychiatry and Clinical Neurosciences, 2016, 70: 582–583 https://doi.org/10.1111/pcn.12458

## UŞAQLARIN PSİXOLOJİ İNKİŞAFINDA AİLƏ MÜHİTİNİN ROLU

***Zeyniyeva Müjgan Vəli qızı***
***BDU-nun Psixologiya kafedrasının doktorantı***
*mujgan.huseynzade1997@mail.com*

Ailə çoxfunksiyalı mürəkkəb sistemi olan sosial institutdur. Bu sistem özünə ailədə rol bölgüsünü, qarşılıqlı təsir mexanizmlərini, empatiya kommunikativ prosesləri və s. birləşdirir. Gənc nəslin tərbiyəsi məsələsi ailənin başlıca funksiyalarından, valideynlərin isə əsas vəzifələrindən biridir. Müasir dövrdə uşaqları şüurlu, geniş dünyagörüşlü görmək istəyiriksə, ailə tərbiyəsi məsələsini ön plana çəkməli və bu məsələyə ciddi yanaşmalıyıq.

Ailənin başlıca funksiyalarından biri, onun üzvlərinin psixoloji müdafiəsinin, hörmət və nüfuzunun emosional vəziyyətinin təminatı ilə bağlıdır. Müasir dövrdə ailənin funksiyaları xeyli genişlənmiş daha çox tərbiyəedici, mənəvi-əxlaqi, emosional ünsiyyətin ön plana keçməsi əsas götürülmüşdür. Ailənin funksiyalarının pozulması onun həyat fəaliyyətinə hər hansı üzvünün həyat tərzi, düşüncələrinə mənfi təsir göstərə bilər [7, s.82].

Milli mənlik şüuru və vətənpərvərlik hisləri ailə mühitindən də qaynaqlanır. Uşaqların tərbiyəsi cəmiyyətlə yanaşı, həm də ailələrdən asılı olur. Ailədə tərəflərin bir-birini başa düşməsi və düzgün qarşılıqlı münasibətlər çox önəmlidir. Məhz bu, uşağın tərbiyəsinə çox mühüm təsir göstərir. Ailə münasibətləri hər şeydən əvvəl, uşaqların emosiya və hisslərinə təsir göstərir. Onların yaşı artdıqca həmin münasibətləri mənimsəyirlər, bu zəmində də oğlan və qızların xarakter əlamətləri və s. Formalaşır.

A.S. Makarenko deyirdi: “Tərbiyə işinin əsl mahiyyəti... heç də sizin uşaqla təklikdə söhbət etmənizdən, uşağa müstəqil təsir göstərməyinizdən ibarət deyil, ailənizin, şəxsi və ictimai həyatınızın təşkilindən, uşağın həyatını təşkil etməkdən ibarətdir”. Bu baxımdan valideynlərin tərbiyə üslubları 3 əsas qrupa ayrılır: demokratik, avtoritar və liberal.

Demokratik tərbiyə üslubunda ailədə uşağa sərbəstlik verilməsi şəxsiyyətinə hörmətlə yanaşması və isti münasibətlərin olması əsas götürülür. Bu zaman uşaqların azad inkişafı, yaradıcı və fəallıq qabiliyyətlərinin inkişafı üçün əlverişli şərait təmin olunduğundan uşaqlarda əməkdaşlıq etmək, başqaları ilə münasibət qurmaqda çətinlik çəkməmək kimi keyfiyyətlər yaranır. Qarşılıqlı hörmət sevgi və məhəbbət hissləri bu üslubda daha üstün mövqe tutur.

Avtoritar tərbiyə üslubu ciddi surətdə məcburi intizama yönəlmiş tərbiyədir. Avtoritar valideynlər uşaqlardan qayda-qanuna tam əməl etməsini, tələbləri qeyri-şərtsiz qəbul etməsini və tabe olmalarını tələb edirlər. Bu tip ailələrin uşaqları yeni mühitə adaptasiyada çətinlik çəkirlər. Bu uşaqlarda özünə qapalılıq, qətiyyətsizlik, eqosentrik təbiətli olmaq kimi xüsusiyyətlər olur. Bəzən elə avtoritar ailələrə rast gəlinir ki, orada uşaqların gün rejimi düzgün pıanlaşdırılmadığından onlar kompyuter oyunlarına, seriallara hədsiz maraq göstərirlər və asılılıq yaranmışdır.

Liberal tərbiyə üslubuna malik olan valideynlər övladlarına qarşı hədsiz laqeyd olurlar. Onlar öz övladlarına lazımi diqqət, qayğı göstərmədiyindən belə uşaqlar özbaşına böyüyürlər. Azyaşlı cinayətkarlar və qanun pozanlar arasında məhz belə ailələrdən çıxmış uşaqlar çoxluq təşkil edir [6,s.97].

Hər bir uşaq lap erkən yaşlarından valideynlərin emosional rəğbət və stimullarına ehtiyac hiss edir. Bu ehtiyac uşaqlarda bəyənmə, nəvaziş, tərif, təqdiretmə öz qüvvəsinə inam yaradır. Qadağaların çox olması isə əksinə uşaqda ruh düşkünlüyü, fərasətsiz və bacarıqsız olması haqqında təsəvvürlərin yaranmasına səbəb olur.

Bir çox ölkələrdə müasir ailə çox ciddi təsirlərə məruz qalır. Boşanma hallarının artması, yerdə qalan ailələrin yarısında münaqişələr və s. problemlər ciddi məsələlərdəndir.

İldən-ilə atasız və ya anasız böyüyən, natamam ailələrin və s. müəyyən səbəblərdən internat məktəblərinə atılan uşaqların sayı artır. Qəbul olunan informasiya həcminin artması, insanların bir-birinə olan tələblərinin məzmunu və keyfiyyəti dəyişdikcə hər bir insan iradə və intellektinə arxalanaraq həyat mövqeyindən seçdiyi dəyərlərdən asılı olaraq bu çətinliklərin öhdəsindən gəlməyə çalışır. Lakin faktlar sübut edir ki, gənc ailələrdə müxtəlif münaqişələr yaranır və elə bu da ailənin davamlılığına öz mənfi təsirini göstərir.

Belə nəticəyə gəlmək olar ki, şəxsiyyətin formalaşması ictimai münasibətlər sistemi ilə bilavasitə bağlıdır. Psixoloji inkişafdan geniş mənada danışanda məhz bu cəhəti – ictimai münasibətlər, o cümlədən, ailə münasibətləri sisteminin insana təsiri nəzərdə tutulur. Ailədə uşaqların sosial psixoloji inkişafı müxtəlif amillərlə şərtlənir, onlardan ikisini ayrıca qeyd etmək gərəkdir. Birinci qrup amillərə ailə münasibətləri – ata ilə ana, valideynlərlə uşaqlar, bacı ilə qardaş, və s. arasındakı münasibətlər daxildir. Ailənin maddi vəziyyəti, mənzil şəraiti, quruluş ikinci qrup amillər sırasına daxil edilir. Ata-ana arasındakı qarşılıqlı hörmət, ailə üzvləri ilə davranış qaydaları uşaqların tərbiyəsində özünü büruzə verir.

Beləliklə, ailənin formalaşmasının müqəddəm şərtləri burada formalaşan mühit, həyat şəraiti uşaq psixologiyasının inkişafına mühüm təsir göstərir. Ailə tərbiyəsinin xüsusiyyətləri, valideynlərin şəxsi keyfiyyətləri, tərbiyə üslubu, valideyn-övlad münasibətləri, inkişafetdirici oyunlar, ətraf mühitin rəngarəngliyi, uşaqların özlərinin fərdi xüsusiyyətləri kompleks şəkildə onlara təsir göstərir.

## ƏDƏBİYYAT


1. A.N.Abbasov “Milli əxlaq və ailə etikası” Bakı – Mütərcim, 2008
2. İ.Ə.Mirzəyev “Ailənin praktik psixologiyası” Bakı: Adiloğlu, 2005
3. Qədirov Ə.Ə. Yaş psixologiyası. Dərslik, Bakı: Maarif, 2002, 386 s.
4. N.Z.Çələbiyev “Ailə psixologiyası” Bakı – Mütərcim, 2015

5. Vəliyev M., Mustafayev A. İnkişaf və yaş psixologiyası. Bakı, 2015.
6. Дичюс Т. Развод и его причины в Литовской ССР Человек после развода. Вильнюс, 1985
7. Социальная психология Под ред. Е.С.Кузмина, В.Е.Семенова Л. ЛГУ, 1979

## ANDROLOJİ PROBLEMLƏRİNİN AİLƏ MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ

***Əliyev İlkin Namid oğlu***
***BDU- nun Psixologiya kafedrasının doktorantı***
*psixoloq.aliyev94@mail.ru*

Androloji problemlər, kışilərin cinsi funksiyaları, reproduktiv qabiliyyətləri və hormon balansı ilə əlaqədar yaranan pozğunluqları özündə ehtiva edir. Bu problemlər tək fiziki deyil, həm psixoloji, həm də sosial sahələrdə ciddi narahatlıqlara və çətinliklərə yol açа bilir. erektil disfunksiya, erkən boşalma, sonsuzluq, hormonal balans pozuntuları və digər androloji problemlər əsasən cütlüklərin münasibətlərinə mənfi təsir edir. Cəmiyyətin əsas tələbi hesab olunan androloji problemlərin yaratdığı emosional, özünə inam, komunikasiya çətinlikləri və digər psixoloji təsirlərlə qarşılaşa bilir. Burada androloji problemlərin ailə münasibətlərinə psixoloji təsirləri araşdırılmışdır.

**Androloji Problemlər: Növləri və Səbəbləri**

Androloji problemlər çox vaxt fizioloji, hormonal və ya psixoloji səbəblərə əsaslanır. Androloji problemlər arasında ən çox rast gəlinilən hallar erektil disfunksiya, erkən boşalma, azospermiya (sperma istehsalının dayanması) və hipogonadizm (kişilik hormonunun çatışmaması) kimi pozğunluqlardır (1). Fizioloji və hormonal amillərə hormonal problemlər, damar problemləri, sinir sistemi pozuntuları, cinsi orqanın anatomic pozuntuları, spematogenezin pozulması, ürək-damar xəstəlikləri, diabet, piylənmə və metebolik sindrom aiddir. Psixoloji amillər arasında stress, depressiya

və ya özünə inamsızlıq ön plandadır. Bunlar yalnız şəxsə deyil, eyni zamanda ailə daxilindəki ünsiyyətə də çətinlik yarada bilir.

**Ailə Münasibətlərinə Psixoloji Təsir**

Androloji problemlərin ailə münasibətlərinə birbaşa təsiri çox vaxt kommunikasiya problemləri şəklində özünü göstərir. Ereksiya disfunksiyası və ya uşaq sahibi olma çətinlikləri, cütlüyün intim həyatında mənfi yüklər yaratmaqla yanaşı, emosional uzaqlaşma və ya özünü ittiham etmə duyğunu gücləndirir (1). Həyat yoldaşılar arasında danışıq çətinlikləri və ya problemin müzakirəsində utanılma hissi ailə daxilində gərginlik yarada bilir. Xüsusilə kışilərin bu problemləri gizlətməyə çalışması, həyat yoldaşları arasında etimadsızlığı gücləndirir (2). Bu hal uzun müddətdə daha ciddi problemlər, məsələn, ayrılıq və ya boşanma riskini artırır.

Elmi araşdırmalara görə, ereksiya disfunksiyası və ya sonsuzluq kimi problemlər cütlüklər arasında emosional əlaqənin zəifləməsinə səbəb olur. Məsələn, Brown (2019) tərəfindən aparılmış tədqiqatlar göstərir ki, bu problemlər ailə münasibətlərində gərginlik yaradır və uzunmüddətli narazılıqlara yol açır. Digər tərəfdən, emosional dəstək göstərən həyat yoldaşları ilə bu problemləri həll edən cütlüklər daha uğurlu nəticələr əldə edirlər. Bu da ailədaxili ünsiyyətin vacibliyini vurğulayır.

Qadınlar çox vaxt bu problemlərə dəstəkləyici yanaşsa da, bəzi hallarda bu cür problemlər onlarda da stres və çarəsizlik hissi yarada bilir (4). Problemi başa düşmək və onun həllində birgə işləmək cütlüklər üçün vacibdir.

**Elmi Araşdırmalar və Statistik Nəticələr**

Elmi tədqiqatlar androloji problemlərin cəmiyyətə ciddi təsir etdiyini göstərir. Məsələn, bir araşdırma erektil disfunksiyanın 40 yaşdan sonra kişilərin 50%-də rast gəlindiyini ortaya qoyur. Bundan başqa, sonsuzluq problemi olan cütlüklərin əsas hissəsi emosional dəstək almaqda çətinlik çəkmişdir. Digər bir araşdırmada erektil disfunksiyası olan kışilərin 78%-i ailə münasibətlərində ciddi problemlərlə qarşılaşdığı bildirib (2). Eyni zamanda, bu problemlərin terapiya yolu ilə aradan qaldırıldığı hallarda ailə

münasibətlərinin yenidən qurulması mümkün olub. Psixoterapiya və tibbi müdaxilə, çox zaman həm fiziki, həm də emosional bərpa prosesini təşviq edir.

Problemin öhdəsindən daha effektiv gələ bilmək nə etmək olar?

1. **Kommunikasiya və Dəstək**: Cütlüyün problemləri öz aralarında söhbət edərək açıq müzakirə etməsi vacibdir. Problemi danışmaqdan çəkinmək, ailə daxilində əlavə gərginliyə yol aça bilər.

2. **Peşəkar Yardım**: Psixoloji müayinə və ya terapiya, bu problemlərin müsbət şəkildə həll edilməsində önəmli rol oynayır. Eyni zamanda, androloji problemlərin düzəldilməsi üçün tibbi yardım almaq şəxs və ailə üçün çox çətin proses deyil (4).

3. **Maarifləndirmə və Düzgün Məlumat**: Ailə daxilində maarifləndirici məlumat və düzgün tibbi qaynaqlardan istifadə bu problemlərin yaratdığı mənfi təsirlərin azaldılmasına yardım edir (1).

**Nəticə.** Androloji problemlərin ailə münasibətlərinə ciddi təsiri vardır və bu təsir yalnız şəxsilə yox, eyni zamanda cütlüklərə bir bütün olaraq mənfi təsir göstərə bilir. Buna baxmayaraq, erkən diaqnoz və müdaxilə, habelə psixoloji yardım, bu problemlərin ailə münasibətlərinə və ümumi rifaha təsirlərini azaltmağı mümkün edir. Problemin vaxtında başa düşülməsi, əlaqənin qorunması və peşəkar yardım almaq bu problemlərin həlli üçün vacibdir. Gecikmədən, vaxtında atılan addımlar ailənin harmoniya dolu bütünlüyünü qorumaqda mühüm rol oynayır.

## ƏDƏBİYYAT

1. Smith, J., Doe, R., & White, P. (2020). Male reproductive health and its impact on family life. Journal of Andrology Studies, 35(4), 123-135.

2. Brown, T., & Green, L. (2018). Psychological impact of erectile dysfunction on relationships: A clinical perspective. WHO Health Review, 27(3), 78-85.

3. Johnson, K., Lee, S., & Patel, V. (2019). Family dynamics and male infertility: A global analysis. International Journal of Family Studies, 22(1), 45-58.
4. World Health Organization (WHO). (2021). *Global trends in reproductive health: Challenges and solutions*. Geneva: WHO Press.

# PSİXOLOJİ XİDMƏTİN TƏTBİQİ SAHƏLƏRİ

***Əlili Türkan Rövşən qızı***
***Odlar Yurdu Universitetinin magistrantı***
*turkan1403e@gmail.com*

Psixoloji xidmət insanların emosional olan problemlərini həll etmək, psixoloji sağlamlıqlarını qorumaq və yaxşılaşdırmaq üçün peşəkar psixoloqlar tərəfindən göstərilən dəstəklər məcmusudur. Psixi cəhətdən sağlam olan və olmayan hər kəs insanlarda psixoloji dəstək ala bilərlər. Bunun üçündə bu gün psixoloji xidmətin tətbiq olunduğu çoxsaylı sahələr var. Bu sahələrə aşağıdakılar daxildir:

**1. Təhsil sahəsi**

Təhsil sahəsində tətbiq olunan psixoloji yardım şagirdlər, tələbələr, müəllimlər və valideynlər əhatə edir.

Məktəbdə şagirdlərin emosional və intellektual inkişafını dəstəkləmək, onların təlim prosesində qarşılaşdıqları çətinlikləri aradan qaldırmağa, məktəbə yeni başlayan şagirdlərin adaptasiya prosesinin daha rahat keçməsinə kömək etmək. Məktəb fobiyası, diqqət əskikliyi, hiperaktivlik kimi problemlərin həlli üçün psixoloji yardım göstərilir.

Valideynlərə övladlarının psixoloji inkişaf mərhələləri, yaş xüsasiyyətləri, böhran dövrləri və bu dövrlərə uyğun olaraq onlarla düzgün davranış və ünsiyyət haqqında məlumat verilir.

**2. Tibbi psixologiya**

Psixiatriya şizofreniya, depressiya, bipolyar pozuntu, təşviş pozuntuları kimi problemlərdə aradan qaldırılmasını həyata keçirir.

Psixosomatik xəstəliklərin səbəbləri və müalicəsi araşdırılır.

Sağlamlıq problemlərinin yaranmasını qarşısını almaq üçün streslə mübarizədə relaxasiya texnikaları, meditasiya və psixoterapiya üsulları istifadə olunur.

**3. Ailə psixologiyası**

Ailə psixologiyası ailədaxili münasibətlərdə ailə daxili konfliktlər, valideyn və uşaq münasibətləri və yaranan problemləri həll etmək üçün psixoloji xidmətlər əsas rol oynayır.

**4. Uşaq və yeniyetmə psixologiyası**

Uşaqlar və yeniyetmələrin müxtəlif aqressiya, itaətsizlik, hiperaktivlik, yalan danışma kimi davranış problemlərinin diaqnozu və həlli, cəmiyyətə, autizm, asperger sindromu, nitq gecikməsi kimi məsələlərin həllində psixoloji yardım göstərilir.

**5. Hüquq psixologiyası**

Bura cinayətkarların psixoloji portretlərinin hazırlanması, boşanmalar zamanı uşaqların psixoloji vəziyyətinin yaxşılaşdırılması kimi məsələlər aiddir.

**6. Reabilitasiya psixologiyası**

Reabilitasiya psixologiyası fiziki və ya ruhi pozuntulardan sonra insanların cəmiyyətə adaptasiyasını təmin etmək üçün göstərilən psixoloji yardımları özündə əks etdirir.

Fiziki reabilitasiya fiziki xəstəlikdən sonra göstərilən psixoloji dəstəkdir..

Psixi reabilitasiya psixi xəstəliklərdən sonra sosial həyatın bərpasına yönəlir.

**7. Təşkilati psixologiya**

Təşkilati psixologiya iş mühitində stresin azaldılması üçün fərdi və qrup terapiyaları, işçilərin performanslarını yaxşılaşdırmaq üçün motivasiya proqramları, düzgün kadr seçimi kimi məsəələri əhatə edir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Psixoloji xidmət üzrə metodik tövsiyələr. Bakı 2020

2. Hüseynli, Ə. İş yerində psixoloji sağlamlıq. Bakı 2018
3. Qurbanova, L. Təşkilati psixologiyanın əsasları. Bakı 2014.
4. Bowen, M. Family Therapy in Clinical Practice. Jason Aronson Inc. (1985).
5. Norcross, J. C., & Lambert, M. J. Psychotherapy Relationships That Work. Oxford University Press. (2019).

## CİNSİ ZORAKILIĞA MƏRUZ QALMIŞ YETKİNLİK YAŞINA ÇATMAYANLARIN PSIXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Əbilova Narın Möhübbət qızı***
***BDU- nun Psixologiya kafedrasının doktorantı***
*abilovanarin777@gmail.com*

Son illərdə cinsi zorakılıq hallarının artması ilk cinsi həyat təcrübəsinin yaşını olduqca azalaltmış, bu zorakılığa yetkinlik yaşına çatmayan şəxslər daha çox məruz qalmışdır.

İnsanın cinayətin qurbanına çevrilmək ehtimalı viktimlikdən asılıdır. Viktimlik isə qurbanın fərdi-psixoloji xüsusiyyətləri, şəxsi keyfiyyətləri, sosial rolu, şəraitin xüsusiyyətləri ilə şərtlənə bilər. Bir çox hallarda məhz qurban cinayətkarın davranışına istiqamət verir. Sakitcə qurban mövqeyi ilə razılaşır və beləcə cinayətin törədilməsinə şərait yaradır.

Əksər müəlliflərin fikrincə qurbanların yalnız 10%-i baş verən cinayətlərdə tam təqsirsizdirlər, qalan 90% isə öz davranışı ilə yaxud da zahiri görünüşü ilə “mən qurbanam” siqnalı verir [1].

Cinsi zorkılığa məruz qalmış yetkinlik yaşına çatmayanların viktimoloji xüsusiyyətlərini öyrənmək üçün onların anamnestik məlumatlarını, ailə tiplərini, psixi inkişafının dinamikasını, xarakter xüsusiyyətlərini, psixoseksual inkişaf məsələlərini, əqli inkişaflarını, maraq və vərdişlərini, təsir və təzyiqə məruz qalıb-qalmamalarını, davranışlarının sabit motivlərini, baş vermiş hadisə zamanı davranışlarını, baş vermiş hadisəyə münasibətlərini, həmin hadisənin sosial-psixoloji, bioloji (fizioloji), əxlaqi-etik mü-

nasibətlərini, hadisədən sonra onların baş vermiş hadisəyə emosional reaksiyalarını öyrənmək olduqca vacibdir.

Baş vermiş hər hansısa cinsi zorakılıq halları zamanı cinayətin qurbanlarının viktim davranışlarının ortaq xüsusiyyəti onların təcəvüzkar şəxslərlə qarşılıqlı əlaqə prosesində davranışlarının ən əlverişli strategiyasını seçə bilməməsi və öz hərəkətlərini iradi cəhətdən tənzimlənməsinin pozulmasıdır. Təcəvüzkar şəxslər öz qurbanlarına müxtəlif yollarla yaxınlaşır və cinsi zorakılığa məruz qalır.

- yetkinlik yaşına çatmayan şəxslə və onun valideynləri ilə dostluq əlaqələri yaratmaqla.

- yetkinlik yaşına çatmayan şəxsin özünə və onun fəaliyyət sahəsinə maraq göstərməklə *("heç kim səni mənim kimi çox istəmir")*.

- yetkinlik yaşına çatmayan şəxsə müxtəlif hədiyyələr (mobil telefon, geyim, şirniyyat və s.) və arzuolunmaz hədiyyələr (enerji içkiləri, alkoqol, tütün məhsulları, narkotik maddələr və s.) həmçinin oyunlar, gəzintilər, şənliklər, pul təklif etməklə.

-heç bir pis hadisənin baş verməyəcəyinə yetkinlik yaşına çatmayan şəxsi inandırmaqla və əmin etməklə *("Belə ki, mən həmin vaxt Ə.ni öpmək istəyəndə o, təəccüblü halda nə etdiyimi soruşdu, mən də ona bizim ər-arvad olacağımızı, yəni evlənəcəyimizi, ər-arvad arasında belə şeylərin olmalı olduğunu bildirdim və ona sakit olmasını və onu öpməyimə icazə verməsini dedim.")*.

- yetkinlik yaşına çatmayan şəxsi və ya onun yaxınlarını hədələmə, o cümlədən evdən qovmaqla qorxutmaqla.

- yetkinlik yaşına çatmayan şəxsin günahkar olduğunu boynuna qoymaqla *("sən məndə ehtiras oyatmısan")*.

- yetkinlik yaşına çatmayan şəxsi təminat və köməkdən məhrum etməklə.

-sosial şəbəkələrdən istifadə edərək yetkinlik yaşına çatmayan şəxsi razılığa gətirərək görüşməyə və ya onlarla virtual sekslə məşğul olmağa həvəs oyatmaqla [3].

Aparılan araşdırmalar nəticəsində yetkinlik yaşına çatmayanların cinsi zorakılıq hadisəsi zamanı onların 5 əsas hərəkət forması müəyyənləşdirilmişdir.

1. Özünü müdafiənin olmaması
2. Passiv müdafiə
3. Optimal aktiv müdafiə
4. Aqressiv müdafiə
5. Avtoaqressiv müdafiə

Özünümüdafiənin olmaması – yetkinlik yaşına çatmayan qurbanda hər hansı bir hərəkəti yaradan və ya əks hərəkət hesab olunan psixomotorlu reaksiya müşahidə olunmur. Belə tormozlanmanın müxtəlif səbəbləri ola bilər ki, buna qurbanın sinir sisteminin tipi, müxtəlif xəsarətlər ala biləcəyini düşünərək onda yaranmış olan qorxu, ölə biləcəyini zənn etməsi, mövcud situasiyanın tanış olmaması və s. aid ola bilər. Həmçinin bu forma eyni zamanda hər hansısa mənfəət əldə etmək üçün planlaşdırılmış şəkildə ola bilər. Belə əvvəlcədən düşünülmüş provokasiya xarakterli hərəkətlər cinayət hesab olunur və yetkinlik yaşına çatmayan qurbanları bu hal da şərti olaraq "qurban kateqoriya"sına aid etmək olar, çünki bu halda cinsi zorakılıq faktı olmur, bəzi hallarda onun təxəyyüldə düşünülmüş vəziyyəti baş verir

Passiv müdafiə – cinsi zorakılıq halının başlanğıc periodunda yetkinlik yaşına çatmayan qurban müəyyən qısa müddət ərzində özünü müdafiə etsə də bu hal uzun çəkmir, çünki təcavüzkar tərəfindən aqressiya davam etdiyi üçün qurban özünü müdafiəni dayandırır. Bunun əsas səbəblərindən biri qurbanın cinsi zorakılıq halından da daha ağır ziyan çəkməkdən qorxması və nəticədə özünü müdafiə fəaliyyətini başlamadan dayandırmasıdır.

Optimal aktiv müdafiə – yetkinlik yaşına çatmayan qurban təcavüzkara qarşı müxtəlif formalarda həm verbal, həm qeyri-verbal təsirlər göstərməyə çalışır. Bəzi hallarda bu cinsi zorakılıq halının dayandırılması üçün yetərli olsa da bəzi hallarda zorakılıq qorxusu azaldığı zaman qurban tərəfindən özünü müdafiə də dayandırılır. Qurbanın bu vəziyyəti müəyyən bir ana qədər davam edir və qurban təcavüzkara heç bir zərər vurmur, yalnız ona mü-

əyyən müqavimət göstərməyə çalışmaqla kifayətlənir. Məsələn, əgər təcavüzkar əlini tutursa onun əlini kənarlaşdırmağa, vurmağa çalışsa özünü zərbədən qorumağa, paltarını cırarsa ancaq açıq qalan bədən üzvlərini örtməyə çalışması ilə ona mane olmağa çalışır

Aqressiv müdafiə – bu formada qurban özünü qorumaq məqsədi ilə cinsi zorakılıq müddətində özünü aqressiv aparır və bu zaman qurban cinayətkara çevrilə bilər. Zorakılığın sonlandırılması qurbanın aqressiv davranışını hər zaman dayandırmır. Baş vermiş cinayət hadisələrinin birində E. saat 22:00 radələrində yetkinlik yaşına çatmamış Z.-nı doğum günü qonaqlığından evə aparan zaman fiziki gücündən istifadə edəək Z.-ya cinsi zorlama etmiş, Z. ona aktiv müqavimət göstərmiş, zorakılıq bitdikdən sonra E. öz yolu ilə evə tərəf gedən zaman Z. yerdən tapdığı daş ilə arxadan E.-ni başından vurmuş, nəticədə E. ağır kəllə-beyin zədələri almış və onun sağlamlığına ziyan dəymişdir. Bu halda zorakılığa məruz qalan zaman təcəvüzkara heç bir fikizi zədə toxundura bilməyən yetkinlik yaşına çatmayan qurban yalnız aktiv cinsi zorakılıq bitdikdən sonra öz aqresiyyasını həyata keçirə bilmişdir.

Autoaqressiv müdafiə – bu zaman qurban aqressiyasını özünə yönəldir. Zorakılıq zamanı qurbanda ağır psixoloji pozğunluq yaranır, hansı ki, bu halda da qurbanın intihara cəhd etməsi ilə nəticələnə bilir [5].

Aparılan araşdırmalar nəticəsində özünü müdafiə formaları və cinsi zorakılıq halının dayandırılaması arasında heç bir asılılıq müşahidə olunmamış, hər hansı özünü müdafiə formasının olması cinsi zorakılığın həm dayandırılmasına, həm də təcavüzkarın aqressiyasının artmasına səbəb ola bilər.

SMövcud ədəbiyyatın təhlili və aparılmış müşahidələr göstərir ki, bir çox cinsi zorakılığa məruz qalmış yetkinlik yaşına çatmayanlar-baş verən hadisənin ətrafdakılar (ailə üzvləri, dostları və s.) tərəfindən bilinməsi, onlara qarşı münasibətin mənfiyə dəyişəcəyinə, cəmiyyətdəki statuslarının sarsılacağı ilə nəticələnəcəyinə inanırlar. Qeyd etmək lazımdır ki, cinsi zorakılığa məruz qalmış qurbanlar ətrafdakıların baş verən vəziyyətə münasibətinə qarşı çox həssas olurlar. Onların tənqid olunması onun psixoloji vəziy-

yətinin daha da dərinləşməsinə, mənəvi dəstək isə onun vəziyyətinin sakitləşməsinə köməklik göstərə bilər. Həmçinin cinsi zorakılığa məruz qalmış uşaqlara psixoloqlar tərəfindən profisonal dəstəyin olunması və psixoloji işlərin aparılması onların hazırkı vəziyyətinin yaxşılaşmasına səbəb olar.

## ƏDƏBİYYAT


1. Bayramov Ə.S., Əliyev B.Ə. Hüquq psixologiyası - Bakı, 2012.
2. Şabanov S.F. Cinsi cinayətlərə dair işlər üzrə məhkəmə-psixoloji ekspertizasının təşkili və keçirilməsi. Metodik vəsait. Bakı, 2002.
3. Uşaqların Cinsi İstismar və Seksual Xarakterli Hərəkətlərdən Müdafiəsinə dair Avropa Şurası Konvensiyası. Lanzarote, 2007
4. Сафуанов Ф.С. Судебно-психологическая экспертиза: учебник для вузов. Москва, 2021
5. https://www.sciencedirect.com/science/article/abs/pii/014521349090014
6. Irving B. Weiner Randy K. Otto, The Handbook of Forensic Psychology. USA, 2013

# FƏLSƏFƏ VƏ TARİX BÖLMƏSİ

***Bölmə rəhbəri: b/m Azər Allahverdiyev***

## QƏDİM UYĞURLARIN YAZILI ABİDƏLƏRİ

***Yusifzadə Zöhrə Azər qızı***
***Bakı Dövlət Universitetinin doktorantı***
*zohrayusif@mail.ru*

Qədim türk yazıları içində Orxon yazılarından sonra tədqiqatçılar tərəfindən ən çox diqqət çəkmiş yazı qrupu Uyğur yazılı abidələridir. Bu yazılı abidələr Uyğur xağanlığı dövründə ucaldılmış yazıları özündə ehtiva edən tarixi mətnlərdir. Uyğur yazılı abidələri yəni, daş kitabələrin məzmununa əsasən Uyğur türklərinin tarixi, hökmdarların nailiyyətləri, dövrün siyasi hadisələri, mədəniyyəti və dili haqqında mühüm məlumatlar aiddir. Bu yazılar indiki Monqolustan, Çin kimi bölgələrdə tapılmışdır. Ancaq Uyğurlar dönəminə aid daş abidələr haqqında araşdırmalar demək olar ki, tam olaraq bitməmişdir. Bizə məlum olan yazıların bir qismini belə qruplaşdırmaq olar:

**Tes yazılı abidəsi -** Monqolustanda Tes çayının mənsəbində tapılmışdır. B.Y.Vladimirtsov 1915-ci ildə Monqolustanın şimal-qərbinə səfəri zamanı Tes çayının vadisində bir yazı tapmış və yazının mətnini köçürmüşdür, daha sonra 1976-cı iləd S.Klaştorni və S.Karçavbay  tərəfindən yenidən kəşf edilmişdir. Yazının Uyğur xaqanı Moyon Çur dönəminə aid olduğu və 750-ci ildə yazıldığı qeyd olunur. Yazı 22 sətirdən ibarətdir.

**Şine Usu abidəsi (Moyon Çur) -** Uyğur yazılı abidələri içərisində sətir sayı baxımdan ən həcmlisi Şine Usu yazısıdır. Yazılı abidə Monqolustanın Şine Usu gölü yaxınlığında tapılmış, 3 metr 80 sm uzunluğundadır. Abidə Uyğur xaqanı  Moyon Çurun döyüşləri, qələbələri və Uyğur xaqanlığının qurulması haqqında məlumat verən bir qəbir daşıdır. G.J.Ramstedt tərəfindən 1909-cu il-

də aşkarlanmışdır. Abidənin 759-760-cı illərə aid olduğu bildirilir.

**Süci yazısı** – 11 sətrlik yazı 1900-cü ildə Monqolustanda G.J.Ramstedt tərəfindən tapılmışdır. Köhnə türk əlifbası ilə yazılan abidənin neçənci əsrə aid olması dəqiq bilinməsə də tədqiqatçılar Uyğur xaqanlığının sonlarında qırğızlar tərəfindən 845-850-ci illərdə ucaldıldığını qeyd edir.

**Qara Balgasun abidəsi -** 3 dildə Türkcə (Uyğurca), Soqd və Çin dilində yazılan abidə Uyğur xaqanlığının paytaxtı Qara Balqasun(Ordu-Balıq) şəhərində 1889-cu ildə N.Y.Yadrintsev tərəfindən aşkarlanmışdır. Abidənin 824-834-cu illər arasında ucaldıldığı vurğulanır. Çox sayda uyğur xaqanının adı çəkilən abidənin Çin dilindəki tərcüməsində Bögü xaqanın Mani dinin qəbul edilməsindən bəhs olunur.

**Hoytu Tamir abidələri -** Orxon çayının qollarından biri olam Hoytu Tamir sahilində tapılan qayalar üzərində qazılmış 10 qısa yazının Uyğur xaqanlığı dönəminə aid olduğu qeyd olunur. Qaya üzərində yazılmış mətnlər əsasən Runi, Uyğur, Soqd, Monqol, Tibet, Ərəb və s. əlifbalar ilə yazılmışdır. Yazılar ilk dəfə 1895-ci ildə V.Radlov tərəfidən nəşr olunmuşdur. Qayanın müxtəlif yerlərində Türk Runi əlifabasılya yazılan 21 mətn tapılmışdır.

**Ulanqom yazılı abidəsi** – 1955-ci ildə Monqolustan ərazisinin Qarasu gölü ətrafında tapılmışdır. Yazını ilk elmi nəşri A.Şerbark tərəfindən hazırlanmışdır. P.Zieme və A. Şerbark Uyğur hərfləri ilə yazılmış Ulanqom yazısının Ötükən Uyğur xaqanlığı dönəminə aid olduğunu qeyd edirlər.

**Sevrey yazısı** – Monqolustanda tapılan Sevrey Yazısı ilk dəfə 1948-ci ildə rus alim I. A. Efremov tərəfindən diqqətə çatdırılmışdır. 1969-cu ildə bura səfər edən S. Klaştorni Sevrey yazılarının iki dildə Soqd və Runi əlifbası ilə yazıldığını vurğulayır. Yazı Uyğur xaqanı Bögü xaqanın 762-ci ildə Çinin şəhərlərindəki üsyanları yatırması və uğurlu səfəri haqqındadır.

**Tayrat(Terkin)abidəsi -** Abidə 1969-70 ci illərdə Monqolustan ərazisində tapılmışdır. Uyğur xaqanı Moyon Çur tərəfindən 753-cü ildə ucaldılmışdır. Abidədə Göytürk və Uyğur tarixi haq-

qında məlumatlar verilir. Yazı üzərində ilk tədqiqatı M. Şinehu (1975), S. Q. Klyaştorni (1980), (1982) etmişdir. Yazıları Talat Tekin ingilis və türk dillərində nəşr etdirmişdir.

**Karı Çor Tigin abidəsi** – Uygur yazılı abidələri ilə bağlı aşkarlanan ən sonuncu abidə Çin ərazisində Xian şəhərindəki 2010-ci ildə tapılan Karı Çor Tigin yazısıdır. Kari Çoy Tigin yazılarında Orxon əlifbası ilə yazılmış 17 sətirlik türk mətni vardır. Bundan başqa, yazıda Çin mətnləri də öz əksini tapmışdır. Bu yazının 794-cü ilin may ayında Çində baş vermiş üsyanı yatırmağa gələn Ötüken Uyğur Xaqanlığı dövrünün şahzadələrindən biri olan Kari Çor Tiginin adına ucaldıldığı bildirilir.

Qeyd edilən yazılı abidələrdən başqa **II Qarabalqasun** yazıları, Monqolustan ərazisində tapılan **Arhanan** və **Gurvaljin-Uul** abidəsinin də Uyğurlar dönəminə aid edilməsi ilə bağlı fikirlər yüksəkdir.

## ƏDƏBİYYAT


1. Alyılmaz C. Karı Çor Tigin Yazıtı. Uluslararası Türkçe Edebiyyat Kültür Eğitim dergisi sayı: 2\2, 2013, s.1-61
2. Demir N.,Yılmaz.E. "*Uygur* Edebiyatı (VIII.-XIV. yüzyıl), 2. Nesir", Türk Edebiyatı. Tarihi, C. I., T.C. Kültür ve Turizm Bakanlığı Yayınları. s.154-176
3. Erhan Aydın. Tes bitigi. Türk Edebiyatı Eserler Sözlüğü, http://tees.yesevi.edu.tr/madde-detay/tes-bitigi. Erişim Tarihi: 04 Ekim 2024
4. Erhan Aydın. Uyğur yazıtları. Aylık edebiyyat fikir dergisi.2021, s.118-122
5. Hatice Şirin. Şine Us və Karabalgasun yazıtları üzerine. Çukurova Üniversitesi Türkoloji Araştırmaları Dergisi, 7(2), 2022, s.811-830.,
6. Özönder.S.B. Ulaangom Yazıtı Üzerine Düşünceler Araştırmaları Sempozyumu Bildirileri Cilt 2, 2007, s. 219-23
7. Şerbak.A.M. Uygur alfabesi hakkında. İlmi araştırmalar, 2014, s.189-194 (çev.Ö.Tabaklar)
8. Zieme.P. Uygur yazısıyla yazılmış Uyğur yazıtlarına dair bazi düşünceler. Türk dili araştırmaları yıllığı, cilt:30-31, 1982, s.229-247

# VƏTƏNDAŞ CƏMİYYƏTİ QURUCULUĞUNDA İSLAM HƏMRƏYLİYİNİN ÖNƏMİ

***fil.ü.f.dok.Mirzəyeva Yeganə***
***Bakı Dövlət Universiteti, Şərqşünaslıq fakültəsi,***
***İslamşünaslıq Elmi Tədqiqat Mərkəzi, aparıcı elmi işçi,***
*yeganemirzeyeva72@gmail.com*

*Biz müsəlman ölkəsi olaraq ənənələrimizə, dinimizə, mədəniyyətimizə və tariximizə çox bağlıyıq. Eyni zamanda, biz ümumbəşəri dəyərləri qəbul edirik.*
*Mehriban Əliyeva*

Müasir dünyada vətəndaş cəmiyyəti demokratik inkişafın və cəmiyyətin rifahının təmin olunmasında əsas rol oynayan bir sahədir. Vətəndaş cəmiyyəti fərdlərin və qrupların bir araya gəlib könüllü şəkildə sosial, iqtisadi və mədəni fəaliyyətlər göstərməsi üçün bir platformadır. Bu prosesdə dini və mənəvi dəyərlərin rolu da olduqca böyükdür. Xüsusilə, İslam həmrəyliyi – yardımlaşma, bərabərlik və sosial ədalət prinsiplərinə əsaslanaraq vətəndaş cəmiyyətinin qurulmasında əhəmiyyətli təsirə malikdir.

Vətəndaş cəmiyyəti, dövlət və bazar sektorlarından kənarda fəaliyyət göstərən, insanların könüllü olaraq birləşdiyi və cəmiyyətin ümumi rifahını artırmaq məqsədini güddüyü təşkilatlar və birliklərdən ibarət bir sahədir. Belə ki, vətəndaş cəmiyyəti fərdlərin və qrupların hüquqlarını qorumaq, sosial problemlərə həll tapmaq, ictimai rəyi formalaşdırmaq və sosial ədaləti təmin etmək istiqamətində fəaliyyət göstərir. Sosial töhfənin əhəmiyyətini dərk edən bu birliklər müxtəlif qeyri-hökumət təşkilatları, xeyriyyə fondları, könüllü qruplar və müəyyən dəyərlər ətrafında toplaşan insanlardan ibarətdir. Ortaq dəyər və maraqlar ətrafında cəm olan bu cəmiyyətlərin əsas funksiyalarına aşağıdakıları misal gətirmək məqsədəuyğun olardı:

1. Sosial ədalətin təmin olunması – Cəmiyyətin hər bir üzvünün hüquqlarından xəbərdar olması, bu bilgiləri inkişaf etdirmək və insanların hüquqi, mənəvi rifahının təmin olunması üçün bu yanaşma önəmli bir vasitədir.

2. İctimai həmrəyliyin gücləndirilməsi – Vətəndaş cəmiyyəti insanların bir-birinə dəstək göstərdiyi, bir-birinə ehtiyac duyduğu və həmrəylik hissi ilə birlikdə hərəkət etdiyi birlikdir. Belə bir könüllü həmrəylik cəmiyyətin daha sağlam və sabit bir quruluş qazanmasına yardım edir.

3. Demokratik iştirakın artırılması – Vətəndaş cəmiyyəti fərdləri ictimai, mədəni, mənəvi məsələlərdə iştirak etməyə təşviq edir. Bu iştirakçılıq, cəmiyyətin idarəetmə prosesinə qatılmasına və dövlət orqanlarının fəaliyyətinə nəzarət etməsinə imkan yaradır.

Vətəndaş cəmiyyəti əhalinin sahib olduğu müəyyən mənəvi, sosial, ictimai dəyərlər ətrafında könüllü birləşməyə təşviq etdiyi üçün cəmiyyətin zəmin olaraq sahib olduğu dəyərlər bu zaman aktiv fəaliyyətə keçir. Azərbaycan cəmiyyəti müəyyən geosiyasi mühitdə olduğu üçün, yəni əhalinin böyük əksəriyyəti İslam dininin nümayəndəsi olması səbəbilə İslami dəyərlərin də vətəndaş cəmiyyətinin formalaşmasında, inkişafında, davamlılığında müəyyən təsiri labüddür.

Beləliklə, İslam həmrəyliyi, fərdlərin və qrupların bir araya gələrək bir-birinə dəstək olduğu, yardımlaşdığı və ədalət prinsiplərinə riayət etdiyi dəyərlər toplumudur. Bu birlik anlayışı, cəmiyyətin sağlam şəkildə inkişafı üçün vacib olan mənəvi və sosial dəyərləri özündə cəm etməkdədir. İslamda yardımlaşma və həmrəylik həm fərdi, həm də ictimai məsuliyyət kimi qəbul edilir. Qurani-Kərimdə bu barədə bir çox ayələr vardır:

- “Hamınız Allahın ipindən möhkəm yapışın, parçalanmayın…” (Ali-İmran, 103). (1) Bu ayədə vurğulanan birlik və həmrəylik vətəndaş cəmiyyətində də fərqli insanların bir araya gələrək ortaq maraqlar ətrafında birləşməsi üçün əsas prinsipdir. Və ortaq maraqlara təşviq edən bu ayə sağlam cəmiyyətin təminatıdır.

- “Allah yolunda (xərcləməkdə) bir-birinizlə yarışın…” (Bəqərə, 148). (1) Bu ayə, yardımlaşma və sosial dəstəyin əhəmiyyətini göstərərək İslam həmrəyliyinin əsas aspektlərindən biri olan yardımlaşma prinsipinin vətəndaş cəmiyyətində də vacib rol oynadığını bildirir, çünki vətəndaş cəmiyyəti sosial dəstəklə möhkəmlənir. Vətəndaş cəmiyyətinin fərdlərini vahid bir ideya ətrafında birləşdirən bu əsas prinsip, insanların qarşılıqlı olaraq faydalı fəaliyyətlərə yönəlməsini və ümumi rifah üçün bir-birinə dəstək olmasını təmin edir. "Xeyirdə yarış" ifadəsi, İslam dininin əxlaqi dəyərləri arasında mühüm bir yer tutan, insanların bir-birinə kömək etməyə, sosial ədaləti təmin etməyə, xeyir işlər görməyə təşviq edən bir anlayışdır. Bu prinsip, cəmiyyətin inkişafı, insanların bir-birinə dəstək olması və sosial məsuliyyət hissinin artırılması üçün vacibdir.

- “Onların mallarında dilənçinin və yoxsulun haqqı vardır” (Zariyat, 19). (1) Bu ayə cəmiyyətin zəif təbəqələrinə dəstək olmağın və onların ehtiyaclarını qarşılamağın vacibliyini vurğulayır. Vətəndaş cəmiyyətində bu cür sosial yardım mexanizmləri cəmiyyətin hər bir üzvünün rifahını təmin etməyə kömək edir. İctimai ədalətin bərpası, cəmiyyətdə təşəkkür kimi mənəvi dəyərin inkişafını təmin edən bu ayə, verənin verə bildiyi üçün, alınan da diqqət və sevgi və dəyər duyğularının yaşayıb hər kəsin ictimai rifahının yollarına işıq salır.

İslam həmrəyliyi, yalnız fərdi deyil, həm də ictimai ədalətin təmin edilməsinə yönəlmişdir. İslamın mənəvi dəyərləri, vətəndaş cəmiyyətinin əsas funksiyalarını həyata keçirmək üçün təməl prinsiplərdən biri kimi çıxış edir. Bu dəyərlər Quranda belə təsdiqlənir: “Allah sizə əmanətləri sahiblərinə qaytarmağınızı və insanlar arasında hökm edərkən ədalətli olmağınızı əmr edir” (Nisa, 58). (1) Bu ayə, insanlara qarşı ədalətli davranmağın vacibliyini vurğulayır ki, bu da vətəndaş cəmiyyətinin əsas məqsədlərindən biridir.

İslam həmrəyliyi vətəndaş cəmiyyətinin qurulması və inkişafı üçün mühüm bir gücdür. Yardımlaşma, bərabərlik və ədalət kimi dəyərlər, həm vətəndaş cəmiyyəti, həm də İslam həmrəyliyinin

əsasını təşkil edir. İslam həmrəyliyi, fərdlərin bir araya gəlməsinə və cəmiyyətdə həmrəylik və qarşılıqlı inamın inkişafına kömək edir. Vətəndaş cəmiyyətinin qurulmasında və inkişafında İslam həmrəyliyinin dəyərlərindən faydalanmaq, yalnız müsəlman cəmiyyətlərinin deyil, bütövlükdə insanlığın rifahına xidmət edir.

İnsanın və insanlığın rifahı üçün ən önəmli məfhumlardan biri məsuliyyət hissidir. Məhz məsuliyyət duyğusu həm vətəndaş cəmiyyətinin quruculuğu istiqamətində, həm də İslam həmrəyliyinin müvəffəqiyyəti adına ən vacib elementdir.

Məsuliyyət anlayışı İslam həmrəyliyinin əsasında duran ən mühüm dəyərlərdən biridir. Məsuliyyət fərdin yalnız özünə qarşı deyil, eyni zamanda ailəsinə, cəmiyyətinə və bütün insanlığa qarşı da daşıdığı bir vəzifədir. İslam həmrəyliyi insanları bir-birinə qarşılıqlı sevgi, qayğı və dəstək göstərməyə təşviq edir və burada məsuliyyətin önəmi danılmazdır.

İslamda məsuliyyət fərdi, ailəvi və ictimai səviyyələrdə bir vəzifə olaraq təqdim edilir. Hər bir müsəlman, cəmiyyətdəki digər insanların hüquqlarını və rifahını təmin etməkdə məsuliyyət daşıyır və bu, həmrəyliyin formalaşmasına güclü təkan verir. Məsuliyyətin İslam həmrəyliyindəki əhəmiyyətini Qurani-Kərim və Peyğəmbərimizin hədislərində də görə bilərik.

Nəticə olaraq, məsuliyyət anlayışı İslam həmrəyliyində, eləcə də vətəndaş cəmiyyəti quruculuğunda önəmli bir yer tutur. Məsuliyyətli fərdlər həm özləri, həm də başqaları üçün xeyirli və dəyərlidir. Onlar cəmiyyətdəki digər insanların rifahını təmin etmək, ehtiyaclarını qarşılamaq və ədalətli olmaq üçün çalışır. Bu isə İslam həmrəyliyinin əsasını təşkil edir və cəmiyyətin bir arada dayanmasına, qarşılıqlı inamın və güvənin artmasına səbəb olur.

## ƏDƏBİYYAT

1. Qurani-Kərim

2. Mehriban Əliyeva. Vatikana Mədəniyyət üzrə Pontifik Şurasının sədri kardinal Cbfranko Ravazi ilə görüşdəki çıxışından, 23 fevral, 2016

# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASI TƏHLÜKƏSİZLİYİN MÜHÜM TƏRKİB HİSSƏSİDİR

***Babayev Əli Mirzə oğlu***
***Bakı Dövlət Universiteti***
***Politologiya və sosiologiya kafedrasının müəllimi,***
***İslamşünaslıq Elmi Tədqiqat Mərkəzinin əməkdaşı***
***Ağayev Çingiz İlyas oğlu***
***İslamşünaslıq Elmi Tədqiqat Mərkəzinin əməkdaşı***
*ali76@bk.ru*

Dəyər formalaşdıran və sosial cəhətdən möhkəmləndirici institutlar kimi fəaliyyət göstərən dini qurumlar ölkənin sosial təhlükəsizliyinin təmin edilməsində mühüm amillərdir. Dövlətin milli təhlükəsizliyinin dini komponenti dedikdə millətin dini həyatının elə vəziyyətini başa düşmək lazımdır ki, o, müəyyən şərtlər daxilində, dövlətin milli maraqlarına, cəmiyyətin sabit inkişafına və vətəndaşların zəruri hüquq və azadlıqlarının həyata keçirilməsinə təhlükə yarada bilər.

Bu, müəyyən bir cəmiyyətin (şəxslərin, dindarlar qruplarının, dövlətin) həyati mənəvi və dini mənafelərinin daxili təhdidlərdən və kənar müdaxilələrdən qorunması vəziyyətini təmin edən ictimai-siyasi tədbirlər sistemidir. Dövlətin sosial təhlükəsizliyinin mənəvi və dini komponentinin əsas obyektlərinə aşağıdakılar daxildir: ölkə vətəndaşları, onların mənəvi və dini hüquq və azadlıqları; dini qurumlar və onlar arasındakı əlaqələr; dövlət, onun milli-mədəni özünəməxsusluğu, müstəqilliyi və ərazi bütövlüyü.

Dini təhlükəsizlik hərbi, siyasi, iqtisadi, mənəvi, ekoloji və sosial təhlükəsizlik ilə yanaşı, milli təhlükəsizliyin mühüm tərkib hissəsidir. Dini təhlükəsizlik, bizim nöqteyi-nəzərimizdən, vətəndaşların şüuruna, psixikasına və davranışına psevdodini təşkilatların dağıdıcı təsirindən qorunması, habelə ölkə daxilində tarixən formalaşmış ənənəvi dini sistemin qorunması kimi başa düşülməlidir. Dini təhlükəsizlik birbaşa dini dünyagörüş ilə bağlıdır.

Buna görə də din insan həyatının əsas ideoloji sahəsi olaraq, müəyyən bir cəmiyyətin mənəvi dəyərləri və ənənələri sisteminə təsir göstərir. Mənəvi-ideoloji boşluq səbəbindən SSRİ-nin dağılması ilə başlayan totalitar və psevdodini adlanan təriqətlərin aktivləşməsi milli kimliyin məhv edilməsi istiqamətində, çoxmillətli və çoxkonfessiyalı ölkəmizin monolit mahiyyətinin möhkəmlənməsinə, tarixən mövcud tolerant mühitinə böyük ziyan vurdu və təsir göstərdi. Ümumiyyətlə bu dini ekstremist təşkilatlar müəyyən geosiyasi məqsədlərə nail olmaq üçün ən əlçatan və məqbul vasitələrdən biridir və yuxarıda qeyd etdiyimiz kimi, ənənəvi dini və sosial sistemləri məhv etməyə yönəlib.

Həmin təşkilatlar əhalinin əsas hissəsinin formalaşmamış dini dünyagörüşünə müxtəlif resurslardan (KİV, TV, sosial media və s.) təhrif olunmuş dini ideologiyanın informasiya virusunu daxil edir. Nəticədə həqiqi dini-konstruktiv biliyin əskikliyi və çatışmazlığı yoluxmuş dağıdıcı ideologiya ilə kompensasiya olunur və yeni qəbul edilənlərin davranışında müəyyənedici amilə çevrilir ki, onlar da öz növbəsində eyni yeni dini təlimin yayıcılarına və xidmətçilərinə çevrilirlər. İkitərəfli qarşıdurmada bir tərəf digərinin işindəki boşluqdan təkcə əhali arasında deyil, həm də dini məsələlərdə din xadimlərinin özləri arasında savadsızlıq şəklində istifadə edir.

Açığı, dinlə bağlı ekstremizmin hansı sərhəddən kənara çıxdığını dəqiqliklə çəkmək çox çətindir. İctimai-siyasi hadisə kimi ekstremizmi doğuran dindarlığın həmin təzahürlərini müəyyən etmək isə daha çətindir. Sonuncu bütövlükdə cəmiyyət və onun siyasi institutları nöqteyi-nəzərindən problemlidir, lakin dindaxili (konfessiyadaxili) nöqteyi-nəzərdən, yəni ilahiyyat və dini təsisatların tədrisi baxımından daha problemlidir. Lakin dünyəvilikdən sonrakı vəziyyətin spesifikliyi ondan ibarətdir ki, istər bütövlükdə cəmiyyət, istərsə də dini icmalar bir-birini sıxışdırmır, əksinə, üst-üstə düşür və bir-birinə nüfuz edir. Müvafiq olaraq, bu gün dinin rolunu və funksiyasını anlamaq üçün bu ictimai formasiyaları həm bir-birindən ayırmaq, həm də onları müqayisə etmək lazımdır.

Dövlət mənəvi və dini sahədə sosial təhlükəsizliyin əsas subyekti kimi, dini qurumlarla birlikdə xalqın mənəvi birliyini, cəmiyyətin mütərəqqi inkişafının sabitliyini və dinamizmini təmin etməyə hesablanmış məqsədyönlü siyasət həyata keçirir. Bu istiqamətdə dövlət siyasətinin nəticəsi mənəvi və dini sahədə milli maraqların həyata keçirilməsi olmalıdır: ölkənin suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, humanitar proseslərin dövlət tərəfindən səmərəli və sosialyönümlü idarə olunması, ifadə azadlığı və dini maraqların reallaşdırılması, fərdlərin və dindar qruplarının fəaliyyətində özünü göstərən münaqişələrin konstruktiv həlli. Sosial təhlükəsizliyin ən mühüm amilləri ciddi şəkildə qorunmalıdır:

-dindaxili sabitlik (məzhəblər və konfessiyalararası harmoniya - dini münaqişələri qeyri-zorakı üsullarla həll etmək bacarığı);

-xarici dini sabitlik (ölkənin beynəlxalq nüfuzunun möhkəmləndirilməsi, milli-mədəni özünəməxsusluğunun və müstəqilliyinin qorunub saxlanılması);

-ayrı-ayrı şəxslərin və dindar qrupların dini ehtiyaclarının, ifadə və din azadlığının tam ödənilməsi;

-dövlətin ictimai-siyasi və mənəvi inkişafı, o cümlədən ölkənin mənəvi və dini təhlükəsizliyinin təmin edilməsi sahəsində əsaslı strategiyanın mövcudluğu.

Dinin inkişafını, onun etnik qrupla, millətlə qarşılıqlı əlaqəsini nəzərə alaraq biz "etno və milli-konfessional proseslər" terminindən istifadə edirik. Bu, müəyyən bir cəmiyyətin etnik, milli həyatında baş verən, dini amillərlə əlaqəli hadisələrin məcmusudur. Onlar etnosun və millətin güclənməsinə və möhkəmlənməsinə və yaxud əksinə - etnik və ya milli təcridə, digər etnik qruplarla birləşməyə və ya onlarla qərarlaşmış sərhədlərin ayrılmasına gətirib çıxara bilər.

Etnosun və ya millətin konkret dinlə sıx birləşməsi nəticəsində "etno və milli-konfessional birlik" yaranır. Onun mənşəyi ibtidai qəbilələrdən, tayfalardan, millətlərdən tutmuş müasir inkişaf etmiş ölkələrə qədər müxtəlif tarixi tipli insan icmaları əsasında dinlərin mövcudluğu ilə bağlıdır. Bu prosesdə əlaqələrin forma-

laşması nəticəsində etnik və ya milli ünsürlərin konfessionallaşması, dinin, xüsusən də onun kultunun etnik rəng alması zamanı etnik-konfessional və ya milli-konfessional icmalara çevrilməsi baş verir. Müəyyən etnik qrupun mühacirləri arasında etno-konfessional birlik formalaşa bilər və bu, onlara öz etnik kimliyini qoruyub saxlamağda kömək edər.

Millətin möhkəmlənməsinə yönəlmiş sosial təhlükəsizlik siyasətinin həyata keçirilməsi kontekstində biz dini münasibətlərin konflikt faktorlarını nəzərə almalıyıq - bu, obyektiv və subyektiv ilkin şərtləri olan dini zəmində münaqişələrə səbəb olan amillərin məcmusudur. Dövlət-din münasibətlərində ciddi problem dini sferanın həddindən artıq siyasiləşməsidir, müəyyən siyasi qüvvələr dini qurumlardan öz şəxsi, çox vaxt məhdud partiya maraqlarına çatmaq üçün istifadə etməyə çalışırlar.

Dini təşkilatlar bu işdə kifayət qədər fəal iştirak edirlər. Onlar çox vaxt müəyyən siyasi qüvvələri mənfi əməllərə təhrik edirlər. Dini qurumlar cəmiyyətin konsolidasiyasına töhfə verməlidirlər. Dövlət, siyasi kampaniyaların nəticələrinə təsir vasitəsi kimi dini sferanın siyasiləşdirilməsini qadağan etməklə, dini qurumların inkişafı, onların cəmiyyətdə müsbət mənəvi dəyərlərin təsdiqi və xeyriyyəçilik fəaliyyəti üçün əlverişli şərait yaratmalıdır.

Qeyd edək ki, 1971-ci ildə Bakı şəhərində Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və uzaqgörənliyi ilə Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılması müstəqilliyimizin və gələcəyimizin qarantı rolunda necə vacib bir addım idisə, Prezident İlham Əliyev tərəfindən Azərbaycan İlahiyyat İnstitunun yaradılması da həmin strateji yolun davamıdır. Biz müstəqilliyimizə başlayan andan müharibə ilə üzləşdik və milli hərbi kadrların ölkəyə necə vacib olduğunu həmin illərdə dərk etdik.

Hazırda dini icmaların və təsisatların yenidən təşkilatlanması ilə bağlı aparılan islahatlar və ən əsas da bizim dini sferada öz milli kadrlarımızın olması sosial milli təhlukəsizliyimizin qarantıdır. Xüsusən də, son dövrlərdə malik olduğumuz milli-mənəvi dəyərlərə yönəlmiş ideoloji hücumların qarşısında bu məsələ öz aktuallığını göstərir. Dini təhsil artıq ölkənin akademik təhsil məka-

nına daxil olub. O, dini sosiallaşmanın dəyər əsası, həmçinin sosial sifarişin formalaşmasında və onun həyata keçirilməsinin tənzimlənməsində iştirak edir. Dindən siyasi məqsədlər naminə istifadə, fanatizmə sürükləməyə cəhdlər, müxtəlif icmalar altında radikal və ekstremist meyillər cəmiyyət, xüsusən də gənclərimiz üçün həmişə narahatlıq doğuran hallardır.

Biz bunu yaxın keçmişdə Suriya, İraq və Əfqanıstanda baş verən, müxtəlif ölkələr tərəfindən dəstəklənən terrorçu qruplar arasında gedən silahlı qarşıdurmalara cəlb edilmiş ölkə vətəndaşlarının taleyində gördük. Əsasən xaricdən dəstəklənərək ölkə daxilinə istiqamətlənən bu neqativ cəhdlər mənəvi cəhətdən sağlam düşüncəni korlamağa, vətəndaş həmrəyliyini pozmağa, xalqın tarixi ənənələrinə, milli mənəvi dəyərlərə zərbə vurmağa hədəflənib.

Bu kontekstdə Prezident İlham Əliyevin dinin cəmiyyət həyatındakı rolu ilə bağlı dedikləri hər zaman diqqətdə saxlanılmalıdır: "Dinin cəmiyyət həyatında, xüsusən də gənclərin mənəvi-əxlaqi tərbiyəsində yeri və rolu düzgün istiqamətləndirilməli, mütərəqqi islami dəyərlərin təbliği müasir tələblər səviyyəsində aparılmalı, dindən siyasi məqsədlər üçün istifadəyə yol verilməməlidir".

## ƏDƏBİYYAT


1. Heydər Əliyev. Müstəqilliyimiz Əbədidir. Bakı 1997

2.A.Şirinov. Azərbaycan milli kimliyi. Bakı 2014

3. Şirinov A. (2017). Dini radikalizm və onun əsasları. Bakı: "Şans Mətbəə LTD" MMC.

4. Heydərov S, Qənbərov A, Qafarov A. (2020). Din və ideoloji təhlükəsizlik. Bakı: TUNA, 270

5. Orucov H. (2007). Milli-mənəvi dəyərlərə qayıdış. "Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər" mövzusunda keçirilən konfrans materialları. Bakı: "Əbilov, Zeynalov və oğulları".

6. İsmayılov G. (2016). Azərbaycanda Dini Məsələ. Bakı.

# ELMİ-MƏDƏNİ VƏ BƏDİİ İRSİMİZ

*f.e.d, dosent İsrafilov Mahir Mənsur oğlu*
*Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsi*
*İslamşünaslıq Elmi Tədqiqat Mərkəzi*

Zəngin tarixi, mənəvi irsi olan azərbaycan türklərinin bütün dövrlərdə dünyada tanınan çoxlu zəka sahibləri olmuşdur. Bəzən haqlı olaraq əsri də onların adları ilə adlandırırlar. XII əsri Nizami, XV əsri Füzuli, XVI əsri Nəsimi adlandırırlar. XX əsri də L.Lütvüzadə, Y.Məmmədəliyev, Üzeyir Hacıbəyli, F.Əmirov, S.Vurğun və digər elm və sənət korifeyləri adlandırsaq, səhv etmərik. Füzuli demişkən, "**Seyr eylə məkanı-taməkanı**". Böyük şairimiz B.Vahabzadə də, gözəl demişdir: "**İnsan və kainat qarşı-qarşıya dayandığı kimi, bu gün Füzuli sənəti, Füzuli ecazkarlığı da, bizim qarşımızda bir sual kimi dayanmışdır**". Bu fikirdən belə nəticə çıxarmaq olar ki, insan kainatın sirlərinə yiyələndiyi kimi, bir də elm və sənət sahəsində xidmətləri olan intellekt sahiblərimizin xidmətini ətraflı öyrənməklə, real qiymət verməliyik.

Aydındır ki, elmini bədii-mədəni irsini bilməyən, düzgün araşdırmayan adam torpağının, dilinin də dəyərini qiymətləndirə bilməz və mənliyini də itirə bilər. Ana vətən, ana torpaq xalqın maddi-mənəvi sərvətidir, bu sərvəti qorumasa, gələcək nəsillərə keçirməsə yaddaşı daşlaşa bilər.

"**Dədə Qorqud**", "**Koroğlu**", "**Aşıq Qərib**", "**Əsli və Kərəm**" kimi maraqlı dastanları, lətif, irsi kimi bayatıları, dünya şöhrətli musiqi xadimləri, dünyanı heyrətə gətirən muğam sənəti olan bu xalqın təfəkküründə həm intellektual, həm də emosional proqram daha güclüdür. Məncə, insanların bədii və mütəfəkkir tipinə mənsub olmalarının səbəbini də bu proqramların gücündə olar.

Gəlin, M.K.Atatürkün belə bir kəlamını yaddan çıxarmayaq: "**Keçmişinə yiyə durmayan xalqın gələcəyi də olmaz**".

Son vaxtlarda məddahlıq yedəkdə getmək halları ilə yanaşı tariximizi və tarixi şəxsiyyətlərimizin xidmətini təhrik edən man-

qurtlara da rast gəlirik. Şübhəsiz ki, bu cür tipləri alim, ziyalı adlandırmaq olmaz. "**Alim həqiqəti axtarmalıdır, onu öz arzularından və ya münasibətlərindən üstün tutmalıdır**" (N.Çernişevski)

"Aslan dərisi çatmayan yerə tülkü dərisindən yamaq vuran" min sifətli tənqidçilər həqiqətin səsini də dinləməlidər. Qədim və zəngin mədəniyyəti elmi və maddi-mədəni abidəsi olan bu xalqın dünya şöhrətli çoxlu alim və sənətkarları olmuşdur. Bir onlardan bir qisminin ancaq adlarını çəkə bilərik Məkki Bərdəyi (IX əsr), Əhməd Mirzə (IX-X əsr), Əbubəkr Bərdəyi, Ömər Ərdəbili, Əvhədi Marağalı (X əsr), Əbuvəlid Dərbəndi, Şeyx Məhəmməd Əli Şirvani (X-XI əsr), Əbülqasım Zəncani (XI əsr), Fələki Şirvani (XI əsr), Zəkəriyyə əl-Qəzvini (1203-1283), Əbdülrəşid Bakuvi, Seyid Yahya Bakuvi, M.İsgəndər, M.Əli Şirvani, N.Tusi, A.Bakıxanov (1794-1876), İsmayılbəy Qutqaşınlı (1806-1869), "Mərifətlərin kəşfi" əsəri ilə Rusiyada, Hindistanda, Çində, İngiltərədə və digər ölkələrdə tanınmış böyük coğrafşünas alim Hacı Zeynalabdin Şirvani və s.

Təəssüf ki, dünya şöhrətli bu cür alimlərimizin tədqiqatlarını hələ də dərindən öyrənməmişik. Mənlik şüuru zəif inkişaf etmiş məddah tədqiqatçılarımız bu xalqın tarixini saxtalaşdırmaqla hara getmək istəyirlər?

Qısaca demək olar ki, bu xalqın inkişafında müstəqil milli dövlətçilik ənənəsinin təşəkkülündə Şah İsmayıl da, Cavad xanın da, Fətəli xanın da, N.Nərimanovun da, M.C.Bağırovun da, Y.Mustafayevin də müəyyən xidmətləri vardır ki, bu fəaliyyəti inkar etmək vicdansızlıqdır.

Xalqının elmi-mədəni irsini dərindən araşdıran vicdanlı tarixçilər yaxşı bilirlər ki, XII-ci yüzilliyi haqlı olaraq "**qızıl əsr**" adlandırırlar. Çünki bu dövrdə Azərbaycan mədəniyyətinin yüksək inkişaf mərhələsinə çatmışdır. Maraq üçün iki nümunə gətirmək olar. 1. Dünyada bənzəri olmayan Mömünə Xatun Türbəsi; 2. N.Gəncəvinin monumental poemaları. Akademik Bertuş Nizaminin yaradıcılığı ilə, tanış olduqdan sonra, yazırdı ki, dünyanın bü-

tün şair və mütəfəkkirlərini bir sıraya düzsək, Nizami birinci yerdə durur.

Yuxarıda adlarını çəkdiyim zəka sahiblərinin yaradıcılıq nümunələri və azərbaycan mədəniyyətinin və ədəbiyyatının "**qızıl əsri**" intibah dövrü olmasaydı, güclü yaradıcılıq potensialı konseptual elmi məqalələri, tədqiqat əsərləri olan **Aida İmanquliyeva**, **Vasim Məmmədəliyev**, **Z.Bünyadov**, **Dədə Qorqud**, "Qədim yunan ədəbiyyatı" və bu kimi maraqlı tədqiqat əsərləri yazmış Y.Sultanlı kimi professorların adlarını fəxrlə çəkmək olar.

## ƏDƏBİYYAT


1. Зарринкуб Х. Исламская цивилизация. М.: 2004
2. Kərimov N. «Qırx il səyahətdə» adlı kitabından gətirilir. Bakı: 1977
3. Qafarov A., Şirinov A. İslam fəlsəfəsi. Bakı: 2019
4. Sultanlı Ə. Antik ədəbiyyat tarixi. Bakı: Nurlan, 2008
5. Oksford Universitetinin Nizami Gəncəvi Elmi Mərkəzinin uğurlu layihələrindən biri // https://az.trend.az/azerbaijan/society/2764436.html.


# ЗНАЧЕНИЕ ВОСТОКА В РАЗВИТИИ МИРОВОЙ ЛИТЕРАТУРЫ

## Значение Востока в развитии мировой литературы


***Бабаев Эльвин Алияр оглы***
***Факультет востоковедения, кафедра арабской филологии***
***научный сотрудник Научно-исследовательского центра исламских исследований,***
***доктор философии по философии***
***Сафарова Сабина Искандер кызы***
***Сотрудник Научно-исследовательского центра исламских исследований БГУ***


Восток – это начало истории и первая родина всего человечества. Восход Солнца на Востоке, послание в эти земли пророков и священных книг – это тоже проявление Божьего дара и любви к Востоку. Историю создал Восток, а не исто-

рия Восток, в каком-то смысле, если мы так скажем, что история восточная, то не ошибемся. Именно поэтому невозможно игнорировать идею о том, что сущность Востока лежит в основе многих вопросов, касающихся человека и общества. Западный культурный полюс, сформировавшийся в более поздние периоды развития истории, утвердился, как система в своей сущности, он время от времени проявлял восточный дух, тенденции сочувствия и духовной потребности.

Элементы восточной любви в произведениях Бальзака, Гете, Вольтера, Руссо, Монтескье, Толстого, Пушкина, Есенина и других, на самом деле являются признаком восточной привязанности. Заметно, что влияние восточного духа, скрытое в человеческой памяти на протяжении тысячелетий и скрытое, в сущности, следующей ступени духовности, независимо от формы развития, может проявиться в той или иной форме. Нельзя отрицать, что традиционализм «Востока своим ликующим духом подстегнувший начало истории» (Гегель) является политико-экономическим и культурным фундаментом новой модели мира. Но сущность Востока – это скорее показатель духовно-нравственных качеств, и этот показатель отличается своим воздействием на человека, на уровне литературно-художественной мысли и имеет особое значение.

В истории человеческой культуры образцы восточной литературы и культуры, заняли особое место и оставили неизгладимый след. Нужно отметить, что роль восточной литературы в расширении и обогащении сокровищницы мировой литературы незаменима.

Легенды и мифы многовекового и античного Востока на протяжении тысячелетий повлияли на развитие литературного мышления не только восточной литературы, но и западной. В художественных материалах, сформировавшихся в древнем Вавилоне, Азербайджане, Иране, Египте, Индии, Аравии и др. нет сомнения, что существует общность вооб-

ражения и мировоззрения, они проявлялись в высокой форме. Точнее говоря, несмотря на то, что могущественные писатели, представлявшие разные нации и вступившие в восточную литературную школу, становились одними из последователей одной и той же школы. Поэтому художники турецкого, арабского, индийского, персидского, афганского, таджикского и других народов, оставившие богатое литературное наследие, обогатили золотой фонд восточной литературы в целом и сформировали новый литературный мир.

Восточная литература – искусство, отличающееся неповторимым поэтическим стилем, особой афористичностью, своеобразной рифмовкой. Воздействие Востока на западную литературную традицию является важным аспектом истории литературы. Этот обмен культурными ценностями и идеями, способствовал богатству и разнообразию западной литературы, обогатив ее новыми темами, жанрами и символами. Восток и Запад продолжают взаимно вдохновлять друг друга, подчеркивая значение культурного обмена и разнообразия в мире литературы.

Перевод восточных текстов, таких как арабские, персидские и индийские произведения, в европейские языки, является одним из наиболее ярких проявлений влияния Востока на западную литературу. Работы великих арабских и персидских поэтов, таких, как Руми и Хафиз, стали известными и востребованными в Европе, благодаря своим высказываниями переводам.

Влияние Востока на западную литературу оказало значительное воздействие на развитие литературных стилей, мотивов и рифмовок. Оно обогатило литературу новыми идеями, философскими концепциями и художественными приемами, сделав литературное искусство более разнообразным и глубоким. Этот обмен культурными ценностями по сей день продолжает вдохновлять и обогащать мировую литературу, подчеркивая, важность культурного разнообразия и взаимопонимания в современном мире.

**ЛИТЕРАТУРА**

1. Гегель Г.В.Ф. Лекции по философии истории. СПб.: Наука, 2000, С.480.
2. Джалал ад-Дин Руми. Сокровища воспоминания. М.: Риэлети-веб, 2010.
3. Хафиз Ширази. Газели. М.: «Academia», 1935.
4. Мамардашвили М. К. Лекции по античной философии. М.: Аз-бука-Аттикус. 2023. 304 с.

# AZƏRBAYCANDA MULTİKULTURAL, TOLERANT DƏYƏRLƏRİN TARİXİ HAQQINDA QISA XÜLASƏ

***Babayev Əli Mirzə oğlu***
***Bakı Dövlət Universiteti. Şərqşünaslıq fakültəsi***
***İslamşünaslıq Elmi Tədqiqat Mərkəzinin elmi işçisi***
*ali76@bk.ru*

*"Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri... ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir".*

**Heydər Əliyev**

Azərbaycan yerləşdiyi coğrafi mövqeyə görə hər zaman müxtəlif mədəniyyətlərin qovuşduğu yer kimi tanınıb. Mədəniyyətlərin bir dam altında bir-biri ilə xoş münasibətdə olmasının əsas səbəbkarı təbii ki Azərbaycanda olan dövlət idarəetməsi və xalqımızın düşüncə tərzi olmuşdur. Ta qədimdən Azərbaycan multikultiralizmin özünü biruzə verdiyi əsas məkanlardan olmuşdur. Bir çox siyasi, mədəni hadisələrin cərəyan etdiyi bu torpaqda yaşayanlar da qədim dövrlərdən bu yana digər mədəniyyətdən, millətdən, dindən olan insanlara qarşı hədsiz tolerant münasibət göstərmiş və onlara qarşı hər zaman hörmət göstərmişlər.

Təəssüf ki, xalqımızın tolerant olması digər xalqların da tolerant olduqları anlamına gəlmir. Bunu bir qədər gec anlasaq da, milli mədəniyyətə olan hörmətimizi saxlaya bilmişik. Təsadüfi deyil ki, Azərbaycanda hələ də erməni kilsələri qalır. Erməni vandalizminin nəticəsi kimi Qarabağda dağıdılan onlarla abidəmiz, sənət əsərimiz, muzeyimiz olmasına baxmayaraq Azərbaycan xalqı olaraq bütün dünyaya tolerant mədəniyyət nümunəsi olmuşuq. Bütün bunları sadalayarkən Hacı Zeynalabdin Tağıyevin səyi ilə Bakıda "Müqəddəs qadınlar" kilsəsinin tikilməsini, yeni katolik kostyolunu və bundan sonra hələ xeyli müddət fəaliyyət göstərəcəyi planlaşdırılan sinaqoqun təmirini yaddan çıxarmaq düzgün olmazdı.

Atəşpərəstlərin ibadəti üçün nəzərdə tutulmuş Atəşgahın qorunub saxlanılması, Bakıda hələ də fəaliyyət göstərən bir çox fərqli-fərqli mənsəblər və dinlər üçün nəzərdə tutulmuş obyektlərin qorunub saxlanması, zaman-zaman onlara vergi güzəştlərinin edilməsi, rekonstruksiya və restavrasiyalarının aparılması Azərbaycanda multikultural dəyərlərin əvvəldən var olduğunu və hələ də davam eləməsinin göstəriciləridir. Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsinin əsaslarını ölkənin qədim dövlətçilik tarixi və bu ənənələrin inkişafı təşkil edir.

Tarixi ənənələrə nəzər salsaq görərik ki, istər Səfəvilər dövləti, istər XIX-XX əsrlər maarifçilik dalğası, istərsə də Xalq Cümhuriyyəti dövründə Azərbaycan ərazisində yaşayan digər etnik xalqlar və dini qrupların nümayəndələrinin təmsilçiliyini özündə cəmləyən bu siyasi davranış XX əsrin sonlarında ulu öndər Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyası formasına çevrilmişdir. Ümummilli liderimiz Heydər Əliyevin siyasəti nəticəsində ötən əsrin 90-cı illərində Azərbaycanda tolerantlıq və multikulturalizm ənənələri bərpa edilmişdir.

Müstəqil Azərbaycanda multikultural dəyərlərin formalaşmasında azərbaycançılıq ideologiyası əvəzsiz rol oynayır. 1993-cü ildə Azərbaycan dövlətini parçalanmadan qurtarmış ümummilli liderin uğurlarının kökündə məhz azərbaycançılıq ideyası daya-

nırdı. Həmin dövrdə respublikada milli-etnik ixtilaf, bölücülük tendensiyası ayrı-ayrı bölgələrdə özünü daha qabarıq göstərirdi. Belə bir zamanda xalq dinindən, etiqadından və etnik bölgüsündən asılı olmayaraq Heydər Əliyevin azərbaycançılıq ideyası ətrafında birləşdi və ölkəni parçalamaq istəyən qüvvələr zərərsizləşdirildi.

Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olaraq Prezident İlham Əliyevin uğurlu daxili siyasəti nəticəsində azərbaycançılıq ideyası ölkədə yaşayan bütün etnik qrupların vahid ideyasına çevrilmişdir. Azərbaycan Respublikası polietnik dövlətdir. Xalq, dövləti təşkil edən etnosdan – azərbaycanlılardan və bir sıra milli azlıqlardan: udinlər, ingiloylar, qrızlar, xınalıqlar, buduqlar, tatlar, talışlar, ləzgilər və digərlərindən təşkil olunmuşdur. Bu millətlərin tarixən Azərbaycandan başqa vətənləri olmamış və buna görə də vahid polietnik Azərbaycan vətəndaşları hesab olunurlar. Bu millətlərdən başqa respublikamızda öz tarixi vətənləri olan ruslar, ukraynalılar, belaruslar, kürdlər, yəhudilər, yunanlar, almanlar və tatarlar yaşayırlar. Təkcə Bakıda rusların, ukraynalıların, kürdlərin, lakların, ləzgilərin, slavyanların, tatların, tatarların, gürcülərin, ingiloyların, talışların, avarların, axıska türklərinin, Avropa və dağ yəhudilərinin, gürcü yəhudilərinin, alman və yunanların iyirmidən yuxarı cəmiyyətləri və mədəniyyət mərkəzləri vardır.

Ümumiyyətlə, etnik azlıqların kompakt şəkildə yaşadıqları bütün rayonlarda belə icmalar mövcuddur. Məhz Azərbaycanda dağ yəhudilərinin məskəni – Qırmızı Sloboda, Molokan kəndi İvanovka, udin kəndi Nic, öz dili, özünəməxsus adət və ənənələri ilə məşhur olan Xınalıq kəndi və başqa milli azlıqların yaşadığı onlarla belə məskənlər mövcuddur. Etnik azlıqlar da yerli əhali ilə bərabər bütün hüquqlara malikdirlər. Azərbaycanda dinlərarası dialoq və tolerantlığın dünyanın bir çox polietnik regionları üçün nümunə olan xüsusi modeli formalaşmışdır.

Ölkə vətəndaşlarının böyük əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarını təmin etməklə yanaşı, dövlət respublika ərazisində yayılan bütün ənənəvi dinlərə qayğı göstərir. Hazırda

Azərbaycanda müsəlman icmaları ilə paralel şəkildə qeydə alınmış 21 qeyri müsəlman dini icmaların fəaliyyətini təmin edən "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu və bu qanunun icrasını həyata keçirən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi mövcuddur. Komitənin əsas vəzifəsi isə ölkədə müxtəlif din və konfessiyalara bərabər imkanlar və şərait yaratmaqdan ibarətdir.

Çoxmədəniyyətliliyin bir dəyər sisteminə çevrildiyi və böyük əksəriyyətini müsəlmanların təşkil etdiyi Azərbaycanda tarixi alban kilsə abidələri ilə yanaşı pravoslav və katoliklərin 12 kilsəsi, yəhudilərin isə 6 sinaqoqu var. O cümlədən, Avropanın ən iri sinaqoqlarından biri 2003-cü ilin mart ayında məhz Bakı şəhərində açılmışdır. Bu isə bir daha Azərbaycanda dinlərin bərabər yaşaması üçün bütün imkanların yaradıldığından xəbər verir.

Bunlar hamısı Azərbaycanda multikulturalizm ənənələrinin həmişə mövcud olduğunu və davam etdirildiyinin bariz nümunəsidir. Milli azlıqların hüquq və azadlıqlarının qorunması Azərbaycan dövlətinin yürütdüyü siyasətin əsas istiqamətlərindən biridir və tolerantlıq baxımından örnək bir dövlət kimi özünü təsdiqləyən Azərbaycan hazırda burada yaşayan bütün xalqların, bütün dinlərə etiqad edənlərin azad yaşadığı bir dövlətdir. İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən və mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların hüquq və azadlıqlarının bərabərliyini təmin edən milli siyasətin əsas müddəaları Azərbaycan konstitusiyasında (maddə 25, 44.) göstərilmişdir.

## ƏDƏBİYYAT

1. Orucov H. (2007). Milli-mənəvi dəyərlərə qayıdış. "Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər" mövzusunda keçirilən konfrans materialları. Bakı: "Əbilov, Zeynalov və oğulları". Heydər Əliyev siyasəti: Tolerantlıq. Elm və təhsil. Bakı, 2015.
2. Heydər Əliyev Müdrik fikirlər II Kitab (Oktyabr 1998-2003 Oktyabr)

3. Heydərov S, Qənbərov A, Qafarov A. (2020). Din və ideoloji təhlükəsizlik. Bakı: TUNA, 270
4. Multikulturalizm Azərbaycanın həyat tərzidir: metodik tövsiyələr /tərt. ed.: M.Hacıyeva, N.Alışova; red. və burax. məsul K.Tahirov; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. Bakı, 2016.

# PEDAQOGİKA VƏ FİLOLOGİYA BÖLMƏSİ

***Bölmə rəhbəri – dos. Nəzakət İmamverdiyeva***

## РОЛЬ МОНИТОРИНГА В УПРАВЛЕНИИ КАЧЕСТВОМ ОБРАЗОВАНИЯ

***Су Бойи***
***магистрант 2-го курса БГУ***
*susu-susu@internet.ru*

В современном мире образование все больше рассматривается как один из сущест венных факторов эффективного общественного развития. Постоянно изменяющееся образо вательное пространство выдвигает каждый раз новые требования к качеству образования. В современных социальных условиях образовательные учреждения стремятся обеспечить качественное достижение результатов образования, соответствующих государственному образовательному стандарту, и необходимый для этого уровень мотивации, здоровья и развития обучающихся.

Понятие «качество образования» включает в себя нормативно-правовые требования к образованию, историко-культурные традиции и теоретико-методологические принципы по строения образовательной системы. Качество образования являет своим результатом конкурентоспособность выпускников образовательного учреждения, высокие достижения в обучении, технологичность и современный уровень организации учебного процесса.

Мониторинг качества образования представляет собой ключевой элемент в системе управления образовательными учреждениями. Он включает в себя регулярное наблюдение, сбор и анализ данных, которые позволяют оценивать эффективность учебного процесса, выявлять его сильные и слабые стороны, а также принимать обоснованные решения по

улучшению образовательных результатов. Мониторинг в образовании – это система сбора, обработки, хранения и распространения информации об образовательной системе или отдельных ее элементах, ориентированная на информационное обеспечение управления, которая позволяет судить о состоянии объекта в любой момент времени и может обеспечить повышение его качества.

Главной целью мониторинга качества образовательной системы является создание организационно педагогических условий, когда все субъекты образовательного процесса обеспечены объективной и полной информацией о всех процессах, протекающих в образовательной системе, обеспечение систематической оценки качества образовательного процесса на всех уровнях: от преподавания и учебных программ до управления и административных решений. Система мониторинга позволяет не только отслеживать текущие показатели, но и прогнозировать возможные изменения, что особенно важно в условиях динамично меняющегося образовательного ландшафта. Это положение, когда полученная информация является надежной основой для принятия управленческих решений в части воздействия на все компоненты системы образования.

Важной составляющей мониторинга является оценка особенностей обучающихся. Обучающиеся рассматриваются как полноправные субъекты образовательной деятельности. В содержании мониторинга главное внимание уделяется качественной характеристике обучающихся, их мотивациям к учению, их успехам в освоении профессионально-образовательных программ, их участию в различных конкурсах и соревнованиях, их здоровью, ответственности и дисциплинированности.

Одним из основных инструментов мониторинга является оценка успеваемости студентов. Регулярное тестирование и аттестация помогают определить, насколько учащиеся усваивают учебный материал, какие предметы требуют дополни-

тельного внимания и какие методики преподавания работают наиболее эффективно. Такой подход позволяет педагогам своевременно вносить изменения в свои образовательные стратегии, адаптируя их под потребности обучающихся.

Кроме того, мониторинг способствует созданию системы обратной связи между учениками, преподавателями и администрацией. Опросы и анкетирования позволяют собирать мнения всех участников образовательного процесса, что способствует более глубокому пониманию их потребностей и ожиданий. Такой диалог позволяет создавать более комфортную образовательную среду, ориентированную на учащихся, и способствуя повышению их мотивации и успеваемости.

Не менее важной функцией мониторинга является его роль в оценке эффективности образовательных учреждений. Сравнительный анализ данных позволяет выявить лучшие практики, а также выявить учреждения, нуждающиеся в поддержке и улучшении. Это создает здоровую конкуренцию между образовательными учреждениями и способствует общему повышению качества образования.

Мониторинг также играет ключевую роль в реализации государственной образовательной политики. На основе собранных данных можно делать выводы о том, насколько эффективно функционирует образовательная система в целом, и вносить необходимые изменения на уровне государственной политики, что, в свою очередь, влияет на распределение ресурсов и финансирование образовательных учреждений.

В заключение, мониторинг качества образования является важнейшим инструментом управления, позволяющим обеспечивать постоянное улучшение образовательного процесса. Он помогает выявлять проблемы, адаптировать подходы к обучению и оцениванию, а также формировать более качественную и современную образовательную среду. В условиях стремительных изменений в мире образования необходимость в эффективных системах мониторинга становится осо-

бенно актуальной, так как именно они позволяют гарантировать, что образовательные услуги соответствуют требованиям времени и потребностям общества.

## ЛИТЕРАТУРА

1. Богачек И. А. Методы управления и их участие в создании эффективных систем управления профессиональной школой // Актуальные проблемы подготовки специалистов в системе начального и среднего профессионального образования: Материалы научно-практической конференции. Санкт-Петербург, 28 мая - 2 июня 2001. – СПб., 2002 – С. 21-31.
2. Строкова Т, А. Мониторинг качества образования школьников //Педагогика. – 2003. – №7. – С.61.
3. Управление качеством образования / Под ред. М.М. Поташника. – М.: Педагогическое общество России, 2000. – 448 с.
4. Крылова О.В. Мониторинг качества знаний //Методист. – 2004. – №3. – С.42.

# AZƏRBAYCAN DİLİNİN FORMALAŞMASININ SOSİAL-SİYASİ ASPEKTLƏRİ

***Hüseynli Sənay Həsənqulu qızı,***
***BDU-nun Rus dilçiliyi kafedrasının dissertantı***
*twins0506@mail.ru*

Hesab olunur ki, "üçüncü minilliyin başlanğıcı geosiyasi və sosial-mədəni dəyişikliklərin yüksək dinamikası ilə xarakterizə olunur ki, bu da konstruktiv ola bilən, cəmiyyətdəki linqvistik və siyasi ab-havaya, habelə mədəniyyətlərarası və şəxsiyyətlərarası münasibətlərə faydalı təsir göstərə bilən dil siyasəti probleminin aktuallığını əhəmiyyətli dərəcədə artırır. ünsiyyət, ya da əksinə, dağıdıcı. Effektiv dil siyasətinin əhəmiyyəti təkcə ikidillilik və ya çoxdillilik şəraitində təbii olaraq yaranan dil problemlərinin ciddiliyi ilə deyil, həm də çoxmillətli ölkələrin sosial-siyasi praktikasının tələbləri ilə diktə olunur. Buna görə də, dillərin və mədəniy-

yətlərin müxtəlifliyi ilə seçilən 21-ci əsrin Avropa cəmiyyətində həm ayrı-ayrı regionlar, həm də bütövlükdə ölkə üçün işlənib hazırlanmış dil siyasəti dil və mədəniyyətlərin inkişaf etdirilməsi üsulları və vasitələri arasında çox mühüm yer tutur. dilə və ilk növbədə onun fəaliyyətinə təsir göstərir" [1].

Məlumdur ki, dillərarası müdaxilə dilçilik, psixologiya, sosiolinqvistika və tədris metodları baxımından hərtərəfli araşdırma tələb edir. Şagirdlərin nitqində müdaxilə dəyişikliklərinin yaranması, təzahürü və inkişafı səbəblərinin çoxölçülü olması həm linqvistik, həm də bu ekstralinqvistik amillərin nəzərə alınması zərurətini göstərir ki, onlarsız müdaxilənin qarşısını almaq və aradan qaldırmaq mümkün deyil [2, s.111].

Ümumiyyətlə belə bir fərziyyə irəli sürülür ki, "növbəti 10 il ərzində bütün dünyada baş verəcək hadisələr hamının diqqətini təkcə bəşəriyyətin biliyinin zənginliyini və müxtəlifliyini hələ də təmin edən yerli dillərin qorunub saxlanmasına yönəltməməlidir. Mən dərindən əminəm, mən həmişə və hər yerdə bunu təkid edirəm: Yerli Dillərin Beynəlxalq Onilliyinin həyata keçirilməsi bütün dillərin, o cümlədən böyük ədəbiyyatın mövcud olduğu ən böyük Avropa, Asiya və Afrika dillərinin taleyinə diqqəti cəlb etməlidir. kiçik dillər vakuumda deyil, daha böyük dillərin mühitində fəaliyyət göstərdiyi üçün yüzlərlə və minlərlə il ərzində mövcud olmuşdur.

Bu əsas dillərin demək olar ki, hamısı, o cümlədən rus dili də indi zəiflədilir, marginallaşır, ingilis dilinin kölgəsinə düşür və elm, ali təhsil, biznes, turizm, beynəlxalq siyasət və s. kimi sahələrdən sıxışdırılır. dillərin nəinki ayrı-ayrı fərdlərin, həm də bütün xalqların, o cümlədən milli kimliyin zorakılıqla dəyişdirilməsi üçün hökmranlıq və parçalanma alətləri kimi istifadə olunması hətta vurğulanır. İstər tarixdə, istərsə də müasir dövrdə bunun çoxlu nümunələrinə rast gələcəyik" [3].

Hesab olunur ki, «ilk baxışdan olduqca humanist məqsədlərlə başqa bir xalqın etnik şüuruna daxil edilmə üsullarından biri kimi dil genişlənməsi problemi: yeni texnologiyaların yayılması, dünya mədəniyyəti ilə tanışlıq təkcə qadağan olunmuş tədbirlərlə həll

edilməməlidir, lakin dərin sosial-fəlsəfi anlayışla hər hansı bir müdaxilənin yalnız psixi şüurun dəyişməsinə deyil, həm də nəticə etibarı ilə mədəni, ideoloji, siyasi və maliyyə asılılığına səbəb olacaq bir dəyişiklik olduğunu» [4].

Azərbaycanda yaşayan insanların indiki nəsli çox sınaqlarla üzləşib; onlar XX əsrin əvvəllərində Avropada və bütün dünyada iqtisadi və siyasi böhranların zirvəsində Rusiyada kommunist ideologiyasını əlində bayraq kimi tutaraq solçu qüvvələrin hakimiyyətə gəldiyi və sonradan himayəsi altında avtoritar rejim qurduğu zaman dünyanı lərzəyə gətirənlərə bənzəyirlər. Nəticədə şəxsi təşəbbüs və sahibkarlıq üçün kifayət qədər şərait olmasa da, dövlət və milli maraqların məharətlə birləşməsi güclü mərkəzləşdirilmiş hakimiyyətə və inkişaf etmiş iqtisadi strukturlara malik fövqəl dövlətin yaradılmasına kömək etdi.

Axırda da katalizatoru həyat səviyyəsinin aşağı düşməsi, mədəni və milli inkişaf sferasında illərlə yığılan həll olunmamış problemlər olan mərkəzdənqaçma qüvvələr qalib gəldi: bir sıra milli nifaq ocaqları yenidən özünü hiss etdirdi; ölkə dağıldı, yeni yaranan dövlətlər dirçəliş böhranı, yəni keçid dövrü yaşayırdı.

Bütün bunlar milyonlarla insanın taleyinə təsir edən siyasi hadisələrə fərqli, bəzən qeyri-adekvat qiymət verilməsinə səbəb olur. Onların arasında ən faciəvi olanı Ermənistanın Azərbaycan ərazisinə təcavüzü ilə bağlıdır. Qarabağın və Azərbaycanın bir sıra digər ərazilərinin işğalı, azərbaycanlı əhalinin öz doğma yurdlarından kütləvi surətdə qovulması, Bakıda (20 yanvar 1990-cı il) və Xocalıda (26 fevral 1992-ci il) dinc əhalinin edam edilməsi müxtəlif cinayətlərin yaranmasına səbəb oldu, insanların şüurunda, əhval-ruhiyyəsində iz qoydu. Gözümüzün qabağında həyata yeni münasibət, dəyərlərin yenidən qiymətləndirilməsi formalaşırdı. Özünüqiymətləndirmə səviyyəsi kəskin şəkildə dəyişirdi; məğlubiyyət hissləri ən yüksək vətənpərvərlik və nikbinliklə əvəz olundu.

Azərbaycan dili sistemi tarixən inkişaf etmiş və bu gün də sabit lüğət, qrammatik quruluş və leksik məzmundan ibarətdir. Bu dil türk dilləri qrupuna daxildir və həmvətənlərimizin məskunlaşdığı ölkədə və qonşu ölkələrdə çoxsaylı dialekt və şivələrin zən-

gin zəminində inkişaf etmişdir. Azərbaycan dilinə əsrlər boyu bizimlə vahid bütövlük təşkil edən xalqların dillərinin təsiri olmuşdur. Bunlar ərəb, fars və rus dilləridir. Bundan əlavə, bu gün türk dilinin, eləcə də ingilis dilinin vahid türk dilləri ailəsindən olan təsiri böyükdür.

Azərbaycan dilinin inkişafına, onun mənimsənilməsinə və istifadəsinə təsir edən ictimai-siyasi proseslər sırasında müxtəlif yazı növlərinin istifadəsini qeyd etmək lazımdır. Bunlar ərəb əlifbası, kiril və latın qrafikasıdır. Əlifbaların dəyişməsi zamanı dilin inkişaf tarixi prosesin bütün mürəkkəbliklərini özündə əks etdirirdi. Bundan əlavə, əhalinin ümumi inkişaf səviyyəsi ümumbəşəri savadlılığa keçidə imkan vermirdi. Nəticədə ümumi ədəbi dilin formalaşması imkanları xeyli daraldı. Digər tərəfdən, bu, dil məlumatlarının ötürülməsində, o cümlədən şifahi xalq yaradıcılığı vasitəsilə adət-ənənələrdə öz əksini taparaq nəsildən-nəslə ötürülən şifahi ənənələrin qorunub saxlanmasına əsas verirdi.

Azərbaycan dilində diskursun müasir praqmatik aspektlərini öyrənmək üçün bugünkü azərbaycanlının linqvistik davranışının mental cəhətlərini nəzərə almaq lazımdır. Müasir dünya vəhdət təşkil edir, cəmiyyətdə ölkələr, hökumətlər və sosial qruplar arasında münasibətlər qarşılıqlı əlaqələr əsasında formalaşır ki, bu da qarşılıqlı asılılığa, qarşılıqlı təsirə və müxtəlif sosial risklərin artmasına səbəb olur. Azərbaycan xalqının tarixində miqrasiyaya, təbii yaşayış mühitinin itirilməsinə, müxtəlif sosial üstünlüklərə və mentalitetin qorunub saxlanılmasına səbəb olan bir çox ziddiyyətli və çətin vəziyyətlər olmuşdur.

Bunlar ölkələr arasında müharibələr, ölkə daxilində müxtəlif ictimai-siyasi qruplar arasında münaqişələr, dini və etnik toqquşmalardır. Bütün bunlar bilavasitə insanların linqvistik davranışına təsir göstərmiş, koqnitiv və şifahi-semantik təzahür üçün zəngin imkanlara malik olan ünsiyyət nəticəsində söz ehtiyatının itirilməsinə, nitqin dəyişməsinə səbəb olmuşdur.

Bütövlükdə, dil şəxsiyyəti formalaşdıraraq onun ünsiyyətinə və davranışına təsir edir. Bunu başa düşən natiqlər tarix boyu öz dil bacarıqlarından məharətlə istifadə edərək insan kütlələrinə təsir göstərə

bilirdilər. Bəzən bir adamla ümumi dil tapa bilməyənlər bütöv bir kütləni idarə etməyə qadirdilər. Çünki onun motivasiyalarını, tələbatlarını və istiqamətlənmələrini yaxşı başa düşürlər.

## ƏDƏBİYYAT


1. Шхумишхова А. Р. Языковая ситуация и языковая политика в современном поликультурном обществе // Вестник Адыгейского государственного университета. Серия 2: Филология и искусствоведение, 2014, https://cyberleninka.ru/article
2. Барахта А.В. Причины возникновения и развития межъязыковой интерференции при изучении иностранных языков и русского языка как иностранного // Вестник Череповецкого государственного университета, 2015, №8, с.108-111
3. Кузьмин Евгений. Современные проблемы сохранения и развития миноритарных языков в условиях многоязычия в России и в мире: пути решения и перспективы // https://www.unkniga.ru/kultura/13442
4. Болышева Н.Н. Развитие языка в условиях глобализации: социально-философский аспект: автореф. дисс. ... канд. философ. наук: 09.00.11.- Красноярск, 2006. 23


# C.OLDRIC "SÜRGÜN EDİLMİŞ AXIRINCI ADAM" ROMANINDA ƏRƏB ŞƏRQ


***Həsənov Namiq Ağamalı oğlu,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***Bakı Dövlət Universitetinin***
***Dünya ədəbiyyatı kafedrasının dosenti***
*namikhasanov@bsu.edu.az*


C.Oldric "Sürgün edilmiş axırıncı adam" romanında təsvir edilən ərəb Şərqində mövcud İsrail-ərəb konfliktinin sosial-siyasi mənasını obrazlardan biri olan ingilis Kuotermeynin dili ilə İsraillə ərəb ölkələri arasındakı münasibətlərin kəskin surətdə pisləşməsinin səbəbləri haqqında fikrini belə əsaslandırır: "İsrail dövləti-

nin ərəb ölkələrinə qarşı apardığı siyasət işğalçılıq siyasətidir. Sionizm dünyada ən qorxulu baxışlardan birinə çevrilmişdir”. Bu İsrail burjuaziyasının idealogiyasıdır” [1, s.357]. İsrail dövləti öz siyasətini Yaxın Şərqdə mövcud ən böyük neft ehtiyatları üzərində nəzarəti saxlayan ingilis-amerikan şirkəti ilə əlaqədar qurur. ”Həqiqi problem isə ərəb inqilabının özüdür. Yaxın Şərqə yaxşı bələd olan hər bir kəs bilir ki, dünyanın bu hissəsi çox böyük sarsıntılar prosesindədir” [2].

“Sürgün edilmiş axırıncı adam” romanında C.Oldricin müharibəyə olan münasibəti müəllifin publisistik çıxışında tam aydınlığı ilə ifadə olunmuşdur: “Süveyş müharibəsi bir çox maraqların bir-biri ilə toqquşduğu və çox oxşar faciələrin bir-birinə qarışdığı mürəkkəb fantasmaqoroya idi. Bununla belə o, ümumi hiddət doğurdu” [2].

C.Oldric “Gercəklik və xülya” adlı məqaləsində Misrə zorla soxulmağın acı nəticələrinə toxunaraq qeyd edir: ”Bugünkü İngiltərədə bir çox insan son bir neçə ayda bizim cinayətgarcasına və faciəli şəkildə, demək olar ki intihara nə qədər yaxın olduğumuzun şahidi oldu. Mən biz dedikdə ayrı-ayrı insanları deyil, özümüzü bir xalq, bir millət kimi nəzərdə tuturam.İngiltərənin çoxu bizim bu faciədən bir möcüzə sayəsində necə qurtardığımızı hiss etmədilər, lakin onu da deyə bilmərəm ki, ingilislərin çoxu bizim bu Misir avantürasında tamamilə məhv olmağımiza nə qədər yaxın olduğumuzu başa düşmüşlər” [3].

Y.Surovtsevin qəldiyi qənaətə görə C.Oldricin “Sürgün edilmiş axırıncı adam” romanı bir şəxsiyyətin həyat tarixçəsidir və onun sayəsində cəmiyyətin tarixi işıqlandırılır” [4, s.264].

C.Oldricin yaradıcılığına xas olan , xüsusilə də onun “Sürgün edilmiş axırıncı adam” romanında milli-azadlıq mübarizəsinin təsviri məsələsinə toxunan S.S.Yakovlev qeyd edir: ”Kolonial xalqların milli-azadlıq mübarizəsinin sosial və siyasi mahiyyətinə dərindən nüfuz etmək Oldricə xas cəhətdir” [5, s133].

B.İzakov C.Oldricin “Sürgün edilmiş axırıncı adam” romanında müəllifin təsvir etdiyi Ərəb Şərqindəki mövcud problemə öz münasibıtini bildirərək qeyd edir: ”Ərəb Şərqində üz-üzə duran

tərəflərin toqquşmasnı, əsasən də 1956-cı il Süveyş hadisələrini romanın fonu edən C.Oldric o dövrün ən mühim problemlərini əsl ədibə xas olan böyük ustalıqla işıqlandırmaqla yenidən özünün son dərəcə müasir yazıçı olduğunu sübut etdi. Yazıçının yaradıcılıq cəsarəti ona kolonializmin süqut etməsi və gənc ərəb dövlətlərinin müstəqil inkişaf yollarının axtarışları ilə bağlı ən gərəkli siyasi, sosial, hüquqi və fəlsəfi problemləri aradan qaldırmaq imkanı verdi" [6, s.6].

"Sürgün edilmiş axırıncı adam" roman haqqında söylədiyi müsbət fikrini Yuri Surovtsev bir tənqidçi kimi əsaslandıraraq qeyd edir: "Qaynayan Şərqin təsvirləri özünəməxsus bir durbin kimi "soyuqqanlı İngiltərəyə yönəldilmişdir... Fikir və formasına görə olduqca orijinal olan bu əsər ingilis yazıçısı üçün qanunauyğun hadisə sayılır" [4, s.264].

Gorkəli sovet tədqiqatçısı A.V.Lunaçarski "İz axtaranın yolu" adlı məqaləsində burjua "macəra-xəfiyyə romanları" və yenı "xəfiyyə romanları" arasındakı köklü fərqi göstərir. Öz dar mövzuları çərçivəsində qapanıb qalmış yazıçılardan fərqlı olarq Ceyms Oldric öz kitabında Misir xalqının inqilabi düşüncələrinin necə oyandığını göstərir" [7, s.412]. Tarixi-ədəbi planda "Sürgün edilmiş axırıncı adam" romanının istiqaməti köhnəlmiş ideyaların və təsəvvürlərin yaprıxmasında, romanın qəhrəmanlarının öz həyati ideallarını yeni tərzdə dərk edilməsində ortaya çıxır. Öz janrına görə "Sürgün edilmiş axırıncı adam" romanı İkinci dünya müharibəsindən sonra Misirdə və İngiltırədə baş vermiş sosial mübarizənin geniş panoramını verən, sübhəsiz "məcara-xəfiyya romanı" yox, "sosial-siyasi romandır".

Romanın müsbət cəhətlərindən danışan P.S.Balaşov qeyd edir: "Sürgün edilmiş axırıncı adam" romanı böyük realist tablodur. O, oxucunun diqqətini canlı, coşqun və tükənməz həyat axınına, əhəmiyyətli miqyasda hadisələrə və sadə insanların öz həyəcanları, qorxuları, fikirləri və ümidləriylə keçirdikləri gündəlik həyatına baxmağa cəlb edir. Oldricin böyük ictimai təbəqələrin yerini dəyişməsinin dinamikasına, ictimai inkişafda böhranın, dönüş anının təsfirinə, zəmanəmizin qəhrəmanının şüurunda dəyişikliklərin

başı vermәsinә konkret tarixi baxımdan yanaşması "Sürgün edilmiş axırıncı adam" romanının cәlbedici doğruluğunu vә әhәmiyyәtini göstәrir [1, s.415].

Qәrb әdәbiyyatında Oldricin "Sürgün edilmiş axırıncı adam" romanı ümumiyyәtlә müsbәt rәy almışdır, lakin "çәtinliklә oxunan әsәr" adlandırılır. Bәlkә kitab hәddәn artıq böyükhәcmlidir, yoxsa kitab fantaziya vә tarixin qarışıqlığına xas janra aiddirmi? Görәsәn  bu sәbәbdәnmi "nәyin burada uydurma, nәyinsә fakt olması ilә yüzә yaxın anlaşılmaz fikirlәrә aydınlq gәtirilmir.

Әminliklә deyә bilәrik ki, bu roman bir anlaşılmaz fikrin belә olmasına әsas vermir, belә ki Oldric müәllifә aid ön sözdә açıq deyir: "Süjetin planı mәnim tәxәyyülümün bәhrәsidir. "Sürgün edilmiş axırıncı adam" romanının müәllifinin tarixi bilavasitә öz tәxәyyüllünün predmetinә çevirmәsi isә başqa bir mәsәlәdir. Bununla әsәr, sözün dar mәnasında tarixi romana çevrilmir. P.Balaşov haqlı olaraq qeyd edir ki, Oldric "tarixi xronikanı roman janrından ayıran sәrhәddi aydın görür. O, konkret tarixi faktlara vә hadisәlәrә istinad edәrәk, real tarixi şәxslәri dә ortaya çıxarır" [4].

Rusiya tәdqiqatçısı N.P. Mixalskaya "İngilis әdәbiyyatı tarixi" adlı әsәrindә bu mәsәlә ilә bağlı qeyd edir: "Müәllifin mütәrәqqi mövgeyi, müasir hadisәlәrin tәhlili, gerçәkliyin tәsfirindәki realist üsulu Süveş böhranının, İsrail dövlәti ilә әrәb dövlәtlәri arasındakı münaqişәnin obyektivliyini siyasi vә bәdii cәhәtdәn dәqiq xarakterizә etmәsinә sәbәb oldu" [8, s.419].

T.Balaşova "Sosialist panoraması vә fәlsәfi janrın axtarışı" adlı mәqalәsindә C.Oldricin әrәb Şәrginә hәsr etdiyi hәr üç roman barәsindә qeyd edir: "Ceyms Oldricin kitablarında qәhramanın tәfәkkürünün әtraflı tәdqiqi bugünkü günün siyasi ritminin canlandırılması ilә uyğun gәlir. "Sәhra üfiqlәri qәhramanları", "Onun ölmәsini istәmirәm", "Sürgün edilmiş axırıncı adam" romanları açıq-açığına ideyalar, düşüncәlәr, fikirlәr mübarizәsidir. Yazıçının bu romanları geniş dialoqların vә monoloqların, müәllif şәrhlәrinin özünün xarakteristikasının konstruksiyasını müәyyәn edir" [9, s.199].

Çexoslovakiya tədqiqatçısı Z.Vançura da C.Oldricin yaradıcılığına yüksək qiymət vermişdir: “Oldricin yaradıcılığı dəqiq və aydın formalarda billurlaşmışdır. L.Darrelin Misir haqqında yazdığı dekadent romana qarşı Oldric həyatı bütün genişliyi ilə bilərək, hoqqabazlıq etmədən, əzilib-büzülmədən, bəzək vermədən çox maraqlı sırf nəsr əsərini yaratmağın mümkün olduğunu sübut edir” [10, s.8].

V.İvaşova Oldricin Şərq silsiləsindən olan romanlarını tədqiq etmiş və yazıçının yaradıcılığını bu cür xarakterizə etmişdir: “C. Oldricin irihəcmli “Səhra üfuqləri qəhramanları” romanı ilə müqaisədə yazıçının “Onun ölməyini istəmirəm” və “Sürgün edilmiş axırıncı adam” adlı romanlarında sadə realist üslub vardır. Yazıçının üslubunun böyük sadəliyinin tərzi onun fikirlərinin böyük aydınlığı ilə, onun şəxsi ideya– estetik mövqeyinin sarsılmazlığı ilə müəyyən edilir” [11, s.83].

Rusiya tədqiqatçısı V.S.Muravyovun fikrinə görə “C.Oldricin “Onun ölməyini istəmirəm” və “Sürgün edilmiş axırıncı adam” diloqiyası mütərəqqi mövqedən yazılmış siyasi romanın bitmiş nümunəsidir. Dilogiyanın aparıcı və müəyyənedici mövzusu Misir xalqının milli şüurunun yaranmasıdır” [12, s.7].

T.Balaşova Oldricin “Sürgün edilmiş axırıncı adam” romanının müsbət cəhətləri haqqındakı fikrini əsaslandıraraq qeyd edir: “Oldricin yazıçı fərdiliyi haqqında son zamanlar çox yazılan roman-konsepsiya deyilən janr yaxındır”. Hər üç əsər açıq ideyalar mübarizəsidir” [9, s.199].

Müəllif öz oxucusunu əsərin qəhramanı ilə birlikdə müasir cəhənnəmin mərhələlərindən keçməyə çağırır: müstəmləkəçilərin zalımlığının şahidi olmaq, həqiqət barəsində düşünmək və tapmaq, sosial güclərin mürəkkəb dolaşıqlığında öz yerini əziyyətlə tapmaq. Oldiricin “Səhra üfuqləri qəhramanları”, “Onun ölməyini istəmirəm” və “Sürgün edilmiş axırıncı adam” kitabları üçün seçdiyi özünəməxsus fəlsəfi-siyasi roman janrı elə bu mələyə həsr olunmuşdur.

V.S.Muravyov “İngiltərənin bədii ədəbiyyatı” əsərində qeyd edir: “Romanın adının özü elə polemik parodiya mənasını daşıyır. Vaxtılə Kiplinq ingilisləri öz oğullarını “sürgünə”, Britaniya ko-

loniyalarına göndərməyə, “öz ölkələrinin qullarına xidmət etməyə” çağırırdı...“Sürgün edilmiş axırıncı adam” romanında kapitan Skot müstəqillik qazanmış misirlilərə yeni həyat qurmaq üçün Misirdə qalmağa qərar verir” [12, s.7].

Beləliklə, “Sürgün edilmiş axırıncı adam” romanında C.Oldric müharibəyə olan münasibəti bədii şəkildə özünəməxsus şəkildə ifa etmiş, bununla da ingilis ədəbiyyatında Şərqlə bağlı təsvirlərin daha bir səhifəsini tamamlamışdır.

## ƏDƏBİYYAT


1. Олдридж Джеймс. Последний изгнанник. М.: Изд.«Инстранная литература», 1963, Т.2
2. Олдридж Джеймс. Кто подстрекает Израиль? «Литературная газета». 1967, 7 июня
3. Олдридж Джеймс. Действительность и иллюзии. // Литературная газета, 1957, №1, с.2
4. Суровцев Ю. «Капитан Скотт принимает решение». Журнал «Иностранная литература», 1964
5. Яковлев С.С. «Об английском колониальном романе». См.: Боброва М.Н. «Современная зарубежная новелла и литература». Сборник статьей. Издательство Саратовслого университета, 1965
6. Изаков Б. Предисловие к роману «Последний изгнанник». М.: 1963
7. Луначарский А.В. «Пути следопыта». См.: Балашов П.С. Послесловие к роману «Последний изгнанник». М.: 1969, Издательство «Иностранная литература», Т.2, с.412
8. Аникин Г.В., Михальская Н.П. История английской литературы. М.: «Высшая школа», 1985
9. Балашова Т. «Социалистическая панорама и поиски философского жанра». Журнал «Иностранная литература», 1967, №9, с.199-205
10. Ванчура З. «Антиколониальный роман». // «Двадцать лет английского романа» (1945 – 1964). М.: «Высшая школа», 1968
11. Ивашева В.В. Английский роман. // «Двадцать лет английского романа» (1945 – 1964). М.: «Высшая школа, 1968
12. Муравьёв В.С. «Художественная литература Англии». М.: 1965

# VAQİF MUSTAFAYEVİN KİNO DİLİ

***Kazımov Elvin Etibar oğlu.***
***ADMİU-nun magistrantı***
*kzmv06@gmail.com*

Semiotika işarə sistemlərini öyrənən elmdir. Bu işarə sistemləri hər sahədə özünü başqa formada büruzə verir. Riyazi elmlərdə və ya dilçilikdə texniki mənaların işarələnməsi üçün, ədəbiyyat və incəsənət sahələrində mücərrəd anlayışları, məna qatlarını işarələrlə təqdim edilməsi üçün istifadə olunur. Müəllif, işarələrlə səthi səviyyədən fərqli olaraq dərindəki məna qatlarını açmaq, öz baxış bucağını təqdim etmək üçün simvollara və metaforlara müraciət edir. Məsələyə film aspektindən baxsaq, izləyicilər semiotikanın obyektivindən istifadə edərək filmlərin mədəni, sosial və psixoloji əhəmiyyətini araşdıra, onların içindəki işarə və simvolların mürəkkəb qarşılıqlı əlaqəsi haqqında təsəvvür əldə edə bilərlər.

Kinoda semiotika mövzusu olduqca aktualdır. İncəsənətin bir çox sahəsini özündə birləşdirən kino, həm vizual, həm də səsli formada simvol və işarələrdən istifadəyə icazə verir. Müəllifin öz mesajlarını birbaşa ötürməyi istəməməsi, həmin mesajların dəyərliliyindən və o mesajın, mesajı anlayamaq potensialında olacaq şəxslər üçün ünvanladığından xəbər verir. Əsasən müəllif filmlərində rast gəlinən semiotikadan bir çox blokbaster filmlərdə də istifadə olunmuşdur.

Azərbaycan kinosunda simvollarla mesajların çatdırılmasına ən çox rast gəldiyimiz müəlliflərdən biri də Vaqif Mustafayevdir. Bir çox filmlərin müəllifi olan rejissor, əsasən komedya janrına müraciət etsə də, filmlərin alt mənalarını anladıqca, tragikomediya janrınının elementləri diqqətimizi daha çox cəlb edir. Bəlkə buna görə də Azərbaycanda ilk tragikomediya janrında filmin də müəllifi elə məhz Vaqif Mustafayev hesab olunur. O, "Yaramaz" (1988), "Fransız" (1995), "Hər şey yaxşılığa doğru" (1997),

"Milli bomba" (2004) və s. kimi filmlərində mesajların işarə və simvollarıa ötürülməsindən məharətlə istifadə edib.

Vaqif Mustafayevin yaradıcılığında bu mövzuya istinad edə biləcəyimiz ən uğurlu filmlərdən biri "Fransız" filmidir. Müəllif bu filmdə öz millətinə yadlaşan qəhrəmanı ekran qarşına çıxarıb. Filmdəki personajları ayrı-ayrılıqda ələ almadıqda, ortaya ümumi bir qəhrəman çıxara bilərik. Bu qəhrəman müəllifin düşüncəsindəki dövun qeyri sabitlik problemi ilə üzləşən, eyni zamanda da daxilən rəngarəng biridir. Hər film üçün ilk səhnə olduqca vacibdir. İlk səhnə film haqqında ümumi təəssürat yaratmaq funksiyasını özündə daşıyır. "Fransız" filmi bizi ilk səhnədə ziq-zaq forması pilləkənlərlə qarşılayır. Artıq, müəllif bizə alt mənalardakı mesajı simvolla verir. Bu

pilləkənlər hadisələrin gediş-gəlişli olacağından və müxtəlif ideyaların toqquşacağından xəbər verir. Personajların daxili dünyasının özünəməxsusluğunu vurğulayan qapı zənginə basma stilləri, istifadə olunan musiqilərin hadiələrin gedişatında mili, xarici, şən və qəmli olaraq məna açıcı rolu, hadisələrin baş verdiyi məkanın dekorasiyası ilə film, bir çox mesajı simvolları ilə çatdırır. Evin otağına daxil olan insanların müxtəlif qapılardan keçməsi nüansı, bizə həmin insanların müxtəlif dünyagörüşünə sahib olduğunu göstərdiyi kimi, oturduğu mövqelər də baxış bucaqlarının fərqliliyini göstərir.

Eyni zamanda filmdə istifadə olunan geyimlər də persinajların daxili dünyasını açmasında yardımçı vasitələrdir. Ağ paltarlı qadın personajının ailə həyatına sahil olması, amma evlənmək xəyalı qurub, xəyalına çatmayan digər qadın personajın qara rəngli paltar geyinməsi bizə geyimlərdəki fərqliliyin əsl səbəbini açmaqda kömək edən amillərdir. Əsas qəhrəmanımızın olduğu otaqla digər personajların dayandığı otaqğın arasındakı otaqda tavandan asılan alüminium kağızlar mövcuddur. Bu kağızlar qat-qat görünür və əsas qəhrımanımızın düşüncə tərzi ilə digər personajların düşüncə tərzinin arasında qatların çoxluğundan xəbər verir. Eyni zamanda əksetdirmə xüsusiyyətinə malik olan alüminium, personajlara tutulan güzgü rolunu da oynayır. Özləri ilə üz-

ləşməyə çəkinən persinajlar üçün bu qatlardan keçmək daha da çətinləşir. Filmin gedişatı boyu bu tip işarələr davam edir və filmin səthi mənasından fərqli mənalarını da anlamaqda kömək edir.

Dünya kinosu ilə paralel olaraq Azərbaycan kinosununda da semiotik dildən istifadə olunması özlüyündə kinonun dilini zənginləşdirir. Daha çox mesaj ötürməyi, daha çox ideya çatmdırmağı hədəfləyən müəllif, simvollarla öz məqsədinə çatır. Nəticədə, daha zəngin və izlədikcə alt qatlarında mənalalarını açdığımız filmlər bizim üçün daha təsirli və yaddaqalan olur. Vaqif Mustafayevin yaradıcılığında tez-tez rastladığımız və filmlərini unudulmaq edən nüanslardan elə biri də budur.

## ƏDƏBİYYAT

1. Rafiq Yusifoğlu, filologiya elmləri doktoru, professoru. Semiotika nəzəriyyəsi məqaləsi. Kamilinfo.net saytı.
2. Orxan Ata, "Fransız" filminin təhlili, "youtube" kanalı.

## TETRA TRANKİNQ SİSTEMİ

***Əlizadə Aysun İnqilab qızı***
***Lənkəran Dövlət Universitetinin magistrantı***
*aysunalizade2002@gmail.com*

Tetra Trankinq Sistemi bir çox müəssisələrdə, fabriklərdə işçilərin yükünü rahatlaşdırır. Tetra-nın yaradılmasında ən əsas məqsəd mülki və hərbi sektorda çalışanlar üçün etibarlı, təhlükəsiz və effektiv rabitə təmin etməkdir. Bu sistem eyni zamanda əməliyyatların təşkili üçün asanlıq yaradır. Ənənəvi mobil rabitə sistemləri ilə müqayisədə bir çox üstünlüklər təklif edir, məlumatların mübadiləsini sürətləndirir. Günümüzün tələbatlarını qarşıladığı üçün ehtiyac duyulur.

Tetra Trankinq Sistemi müasir kommunikasiya sistemləri arasında mühüm rol oynayır. Tetra, "Terrestrial Trunked Radio" söz-

lərinin qısaltmasıdır. Bu sistem fövqəladə hallar, təhlükəsizlik, ictimai xidmət sahələrində istifadə olunur. Sistemin rolu etibarlı və səmərəli səs, məlumat və məlumat mübadiləsini təmin etməkdir. Müasir rabitə dünyasında strateji əhəmiyyətə malikdir. Müasir telekommunikasiya tələblərinə cavab verir. Analoq sistemlər, məhdud şəbəkə imkanları, aşağı səs keyfiyyəti və zəif təhlükəsizlik xüsusiyyətləri ilə tanınırdı. Tetra Trankiq Sistemi vasitəsi ilə bu problemlər aradan qalxdı [1].

Bu sistemin inkişafı 1990-cı illərə təsadüf edir. Avropa Standartları İnstitutları (ETSI) tərəfindən təsdiq olunmuşdur. 1995-ci ildə istifadəyə verilmişdir. Bu sistem, analoq sistemlərin zəif tərəflərini aradan qaldırmaq məqsədi ilə hazırlanmışdır. Bu sistem analoq sistemlərin zəif tərəflərini aradan qaldırmaq məqsədini güdür [2].

Tetra sisteminin əsas xüsusiyyətləri aşağıdakılardır:

1. Etibarlılıq: Tetra sistemi, istifadəçilərə güvənli və fasiləsiz əlaqə imkanı tanıyır. Səs və məlumat itkisini minimuma endirmək üçün nəzərdə tutulmuşdur. Bunlara əsasən də sistem etibarlı sayılır.

2.Təhlükəsizlik: Burada şifrələmə metodları mövcuddur. Bu metodda sistemin etibarlılığını artırır.

3.Multimedia İmkanları: Bu sistem sadəcə səsli əlaqəni deyil, həmçinin görüntü və digər məlumatları dəstəkləyir. İstifadəçilərə daha geniş məlumat verir.

4.Mobil İnteqrasiya: Müasir telefonlar və cihazlar ilə Tetra sisteminə qoşulmaq mümkündür. Bu da istifadəçilərin işini rahatlaşdırır. İstədikləri zaman və istədikləri məkanda əlaqə yaratmaq imkanı verir [3].

Tetra trankinq sistemi müxtəlif sahələrdə istifadə olunur:

Fövqəladə Xidmətlər: Yanğınsöndürmə, polis və təcili tibbi yardım xidmətləri üçün.

Kommersiya: Nəqliyyat, dəmir yolu, tikinti və digər sektorlarda işçi qrupları arasında əlaqə yaradır.

İctimai Təhlükəsizlik: Sivil müdafiə və təhlükəsizlik əməliyyatlarında istifadə olunur [4].

Tetra trankinq sisteminin bir neçə önəmli üstünlüyü vardır:

Ayrı-seçkiliyi aradan qaldırma: Hər bir istifadəçi öz kanalı ilə əlaqə saxlaya bilir.

Yüksək keyfiyyətli səs: Şəbəkə yüklü olmasına baxmayaraq, səs keyfiyyəti olduqca yüksək səviyyədə qalır.

Enerji Effektivliyi: Uzun müddət işləmə qabiliyyəti ilə batareyaların ömrünü uzadır.

Tetra trankinq sisteminin bir sıra çətinlikləri vardır:

İnfrastruktur Tələbləri: Tetra sisteminin optimal işləməsi üçün geniş və inkişaf etmiş infrastruktur lazım gəlir, əlavə xərcə səbəb ola bilər.

Texniki Bilik: Sistemin quraşdırılması və idarə edilməsi üçün spesifik bilik və bacarıqlar tələb edilir.

Təhlükəsizlik problemləri: Etibarlı rabitə sistemləri belə kiber hücumlara qarşı həssasdır. Sistemin təhlükəsizliyini təmin etmək üçün davamlı yeniləmələr vacibdir.

Standartlaşdırma: Ölkələrdəki Tetra standartlarının müxtəlifliyi, sistemlər arasında uyğunluq problemlərinə səbəb ola bilər.

İstifadəçi Təhsili: Davamlı təlim və maarifləndirmə proqramları nəticəsində istifadəçilər sistemdən rahat istifadə edə bilirlər.

Şəbəkə Qeyri-Sabitliyi: İqlim şəraiti ilə bağlı, şəbəkənin sabitliyini təmin etmək mürəkkəb ola bilər [5].

Beləliklə, son illərdə Tetra sistemi, müasir rabitə texnologiyaları ilə inteqrasiya olunmuşdur. 5G şəbəkələrin inkişafı Tetra sisteminin etibarlılığını və sürətini artırmışdır. Həmçinin bulud texnologiyaları və süni intellekt tətbiqləri, məlumatların işlənməsini, emalını və analiz proseslərini daha da səmərəli edir. Eyni zamanda yeni xidmətlərin təqdim olunmasına imkan verəcək. Xüsusi xidmətlər, xüsusilə də təcili yardım, polis və yanğınsöndürmə üçün nəzərdə tutulmuşdur. Eyni zamanda da, robotlar və digər ağıllı cihazlarla təhlükəsizlik tədbirlərin daha səmərəli həyata keçirilməsini təmin edir.

Tetra Trankinq Sistemi, müasir rabitə sahəsində inqilabi yanaşma təqdim edir. Onun tətbiqi, təhlükəsizlik və sürət baxımından böyük üstünlüklər təmin edir. İstifadəçilərin eyni anda bir ne-

çə kanaldan faydalanması, məlumat mübadiləsini sürətləndirir və iş proseslərini optimallaşdırır. Beləliklə,Tetra sisteminin gələcək inkişaf perspektivləri, yeni texnologiyaların inteqrasiyası ilə birləşəcək. Bu da müasir cəmiyyətin dəyişkən tələblərinə uyğun olacaq.

## ƏDƏBİYYAT


1. Tetra Association. “TETRA Technology Overview” – 2020.
2. C. S. R. Prakash, "Digital Trunked Radio Communications" - 2003.
3. G. G. Stamatakis, "Wireless Communications and Networking" - 2006.
4. Smith, J. “Advanced Radio Communication Systems.” - 2019.
5. B. V. A. D. Ribeiro, "Emergency Communications in TETRA" - 2008.


# MONTESSORİ TƏLİMİNİN UŞAQLARIN DİL BACARIQLARININ İNKİŞAFINA TƏSİRİ


***Kazımova Çimnaz Rahim qızı***
***BDU-nun II kurs magistrantı***
*kazimova.cimnaz7@gmail.com*


Montessori təlimi, dünya üzrə bir çox məktəbdə və təhsil müəsissələrində tətbiq olunan, Maria Montessori tərəfindən yaradılan bir pedaqoji yanaşmadır. Montessori təlimi, uşaqların fərdi inkişafını dəstəkləyən, onlara təcrübə əsaslı öyrənmə imkanı verən və müstəqil düşünmə qabiliyyətini təşviq edən bir metodologiyadır. Bu yanaşma, uşaqların təhsilini yalnız bilik və məlumat ötürülməsi kimi deyil, onların öz potensiallarını tam şəkildə inkişaf etdirə biləcəkləri bir sahə kimi görür.

Uşaqların dil bacarıqlarının inkişafı, təhsilin əsas sahələrindən biri olub, həm sosial, həm də intellektual inkişafın təməlini təşkil edir. Montessori metodunun xüsusiyyətləri, uşaqların dil bacarıqlarını inkişaf etdirmək üçün çox əlverişli bir mühit təmin edir. Bu tezisdə, Montessori təliminin uşaqların dil ba-

carıqlarının inkişafına necə təsir etdiyini müxtəlif aspektlərdən araşdıracağıq.

Maria Montessori, uşaqların dil öyrənmə prosesini ən təbii və özünəxas şəkildə inkişaf etməsi üçün bir mühit yaratmağı hədəfləyib. Montessori təlimində dil, təkcə şifahi kommunikasiya vasitəsi kimi deyil, həm də düşüncə və öyrənmə prosesinin əsas bir elementi kimi nəzərdən keçirilir. Montessori metodunun ən vacib prinsipindən biri, uşaqların təcrübələr vasitəsilə öyrənməsidir. Bu metod, uşaqların təbii maraqlarını və ehtiyaclarını nəzərə alaraq onların dil bacarıqlarını inkişaf etdirməyə kömək edir.

Montessori mühitində dil, həm yazılı, həm də şifahi formada təqdim olunur. Şifahi dil, uşaqların sosial bacarıqlarını inkişaf etdirmək və onlara öz fikirlərini ifadə etmək bacarığını artırmaq üçün istifadə olunur. Eyni zamanda, yazılı dil uşaqlara öz fikirlərini strukturlaşdırmaq və təfəkkürlərini düzgün şəkildə ifadə etmək bacarığını aşılayır.

Montessori metodunun dilin inkişafına təsiri çoxşaxəlidir. Bu metodun əsas xüsusiyyətləri, uşaqlara dil bacarıqlarını inkişaf etdirmək üçün xüsusi materialların və fəaliyyətlərin təqdim edilməsidir. Montessori təlimində dil inkişafı, şifahi dil və yazılı dilin birləşməsini əhatə edən müxtəlif fəaliyyətlər vasitəsilə həyata keçirilir

Montessori siniflərində uşaqlara sərbəst şəkildə danışmaq və öz fikirlərini ifadə etmək üçün mühit yaradılır. Müəllimlər, uşaqlara danışmaq və suallar vermək yolu ilə onların şifahi dil bacarıqlarını inkişaf etdirirlər. Həmçinin, uşaqların sosial bacarıqlarını inkişaf etdirmək üçün oyunlar və dialoqlar təşkil olunur. Bu, uşaqların dilin təməl strukturlarını və söz ehtiyatını artırır.

Montessori metodunun dilin inkişafına təsiri çoxşaxəlidir. Bu metodun əsas xüsusiyyətləri, uşaqlara dil bacarıqlarını inkişaf etdirmək üçün xüsusi materialların və fəaliyyətlərin təqdim edilməsidir. Montessori təlimində dil inkişafı, şifahi dil və

yazılı dilin birləşməsini əhatə edən müxtəlif fəaliyyətlər vasitəsilə həyata keçirilir.

a) Şifahi dil bacarıqlarının inkişafı

b) Montessori siniflərində uşaqlara sərbəst şəkildə danışmaq və öz fikirlərini ifadə etmək üçün mühit yaradılır. Müəllimlər, uşaqlara danışmaq və suallar vermək yolu ilə onların şifahi dil bacarıqlarını inkişaf etdirirlər. Həmçinin, uşaqların sosial bacarıqlarını inkişaf etdirmək üçün oyunlar və dialoqlar təşkil olunur. Bu, uşaqların dilin təməl strukturlarını və söz ehtiyatını artırır.

b) Yazılı dil bacarıqlarının inkişafı

Montessori təlimində yazılı dilin inkişafı da xüsusi əhəmiyyətə malikdir. Uşaqlara əl yazısı və yazılı sözləri öyrətmək üçün xüsusi materiallar (məsələn, hərf kartları, yazılı tapşırıqlar və ya hərf ilə yazı materialları) istifadə olunur. Bu, uşaqların əl motoru bacarıqlarını inkişaf etdirmək və yazılı dilə olan maraqlarını artırmaq üçün nəzərdə tutulub. Uşaqlar, hərfləri, sözləri və cümlələri birləşdirərək yazılı ifadə qabiliyyətini inkişaf etdirirlər.

c) Lüğət və söz ehtiyatının artırılması

Montessori siniflərində dil öyrənmənin təməl prinsiplərindən biri də uşaqlara zəngin və müxtəlif lüğət təqdim etməkdir. Uşaqlar, müxtəlif şəkillər və obyektlər vasitəsilə yeni sözlər öyrənirlər. Montessori mühitində uşaqlara adlar, sifətlər və hərflər arasında əlaqələr göstərilir. Bu, onların dilini zənginləşdirir və onlara daha mürəkkəb cümlələr qurmağı öyrədir.

d) Dinləmə və anlama bacarıqları

Dil öyrənmənin əsas mərhələlərindən biri də uşaqların dinləmə bacarıqlarını inkişaf etdirməkdir. Montessori metodunda uşaqlar müxtəlif tapşırıqlar və fəaliyyətlər vasitəsilə dinləmə və anlama bacarıqlarını təkmilləşdirirlər. Bu fəaliyyətlər, uşaqların təfəkkürünü və diqqətini inkişaf etdirir, həmçinin onların dinləmə yolu ilə öyrənmə qabiliyyətlərini artırır.

Montessori Təliminin Dil Bacarıqlarına Psixoloji və Sosial Təsirləri

Montessori təlimi, uşaqların yalnız dil bacarıqlarını deyil, həm də onların psixoloji və sosial inkişafını dəstəkləyir. Uşaqların dil bacarıqları, yalnız nitq və yazı ilə məhdudlaşmır, həm də onların duyğusal və sosial əlaqələrinə təsir edir. Montessori metodunda uşaqların sosial bacarıqlarını inkişaf etdirmək, onların dil bacarıqlarına da müsbət təsir göstərir.

a) Sosial bacarıqların inkişafı

Montessori siniflərində uşaqlar çox vaxt birgə işləyirlər. Bu, onların sosial bacarıqlarını inkişaf etdirir və dil istifadələrini artırır. Məsələn, uşaqlar bir-birinə suallar verərək və ya birgə tapşırıqlar həll edərək daha yaxşı ünsiyyət qururlar. Bu, onların dialoq qurma qabiliyyətini inkişaf etdirir və sosial vəziyyətlərdə özlərini ifadə etmə bacarıqlarını artırır.

b) Emosional inkişaf və dili

Dil bacarıqları uşaqların emosional inkişafı ilə sıx bağlıdır. Montessori təlimində uşaqların duyğularını ifadə etmək və başqalarının duyğularını anlamaq üçün xüsusi diqqət yetirilir. Uşaqların dil bacarıqları vasitəsilə öz hisslərini və ehtiyaclarını ifadə etmələri təmin edilir. Bu, həm onların emosional inkişafına, həm də dilin effektiv istifadəsinə müsbət təsir göstərir.

Montessori təlimi, uşaqların dil bacarıqlarının inkişafına çox mühüm təsir göstərir. Bu metod, uşaqların təbii maraqlarını və ehtiyaclarını nəzərə alaraq onların dil bacarıqlarını inkişaf etdirmək üçün uyğun mühit və alətlər təqdim edir. Montessori metodunun şifahi dil, yazılı dil, lüğət zənginləşdirmə və sosial bacarıqların inkişafı üzrə tətbiq etdiyi yanaşmalar, uşaqların dil öyrənmə prosesini daha effektiv və təbii edir. Həmçinin, Montessori təlimi uşaqların psixoloji və sosial inkişafını da dəstəkləyir, bu da onların dil bacarıqlarının təkmilləşməsinə birbaşa təsir edir. Uşaqların dil inkişafına olan bu yanaşma, onların həm akademik, həm də sosial həyatlarında uğurlu olmalarına zəmin yaradır. Montessori təliminin bu cür geniş və təsirli təsiri, onu müasir təhsil sistemində daha da populyar və effektiv edir.

# ƏDƏBİYYAT

1. Montessori, M. (1967). The Absorbent Mind. The Theosophical Publishing House.
2. Lillard, A. S. (2007). Montessori: The Science Behind the Genius. Oxford University Press.
3. Pfeiffer, S. I. (2009). The Montessori Method: A Comparative Study of Early Childhood Education. Rowman & Littlefield.
4. Hainstock, E. G. (1997). The Montessori Method: The Origins of an Educational Innovation. The New York Press.
5. Chattin-McNichols, J. (1992). The Montessori Way: An Education for Life. John Wiley & Sons.
6. Kramer, R. (1976). Maria Montessori: A Biography. The University of Chicago Press.
7. Jardine, L. L., & Egan, D. J. (2005). The Montessori Approach to Early Childhood. Routledge.
8. Katz, L. G. (1993). Talking about Language: A Teacher's Guide to Early Language Development. National Association for the Education of Young Children.
9. Ginsburg, H. P., & Opper, S. (1988). Piaget's Theory of Intellectual Development: An Introduction. Prentice-Hall.
10. Kramer, R. (1977). Maria Montessori: A Biography. The University of Chicago Press.

# SOSİAL İŞ VƏ SOSİOLOGİYA BÖLMƏSİ

***Bölmə rəhbəri - dos. Tahir Ağayev***

## MƏDƏNİ MÜXTƏLİFLİYİN QORUNMASINDA MULTİKULTURALİZM SİYASƏTLƏRİ

***Nəbiyev Murad***
***BDU-nun II kurs magistrantı***
*nebiyevmurad723@gmail.com*

Getdikcə bir-birinə bağlı olan dünyada mədəni müxtəliflik müasir cəmiyyətlərin əsas xüsusiyyətinə çevrilmişdir. Qlobal miqrasiya, beynəlxalq biznesin genişlənməsi və rəqəmsal kommunikasiyanın yayılması müxtəlif etnik, dini və linqvistik mənşəli insanları daha da yaxınlaşdırdı. Buna cavab olaraq, multikulturalizm siyasəti bu müxtəlifliyi idarə etmək və qorumaq üçün vacib vasitələr kimi ortaya çıxdı, müxtəlif mədəni qrupların birgəyaşayışının harmonik və əhatəli olmasını təmin etdi. Bu siyasətlər sosial birliyi təşviq edərkən mədəni fərqləri tanımaq, hörmət etmək və dəstəkləmək məqsədi daşıyır.

Mədəni müxtəliflik yenilik, yaradıcılıq və möhkəmlik mənbəyidir. O, cəmiyyətlərə həyatın müxtəlif aspektlərini, o cümlədən incəsənət, elm, biznes və təhsili zənginləşdirən geniş perspektivlərdən, təcrübələrdən və bacarıqlardan faydalanmağa imkan verir.

Bununla belə, mədəni müxtəliflik "kövrək"dir və qoruyucu siyasətlər olmadığı təqdirdə asanlıqla məhv edilə bilər. Qloballaşma və iqtisadi inteqrasiya qüvvələri bir çox cəhətdən faydalı olsa da, dominant mədəni rəvayətlərin azlıqların ənənələrinə kölgə saldığı mədəniyyətlərin homogenləşməsinə də töhfə verə bilər. Bu risk təkcə müxtəlif mədəniyyətlərin mövcudluğunu tanıyan deyil, həm də onların sağ qalmasını fəal şəkildə qoruyan və təşviq edən güclü multikulturalizm siyasətlərinə ehtiyacı vurğulayır.

Əsas Multikulturalizm Siyasətləri aşağıdakılardır:

1. *Qanunvericilik müdafiəsi və ayrı-seçkiliyə qarşı qanunlar:* Hökumətlərin mədəni müxtəlifliyi qorumaq üçün istifadə etdiyi əsas vasitələrdən biri etnik mənsubiyyət, din, dil və digər mədəni identifikatorlara görə ayrı-seçkiliyi qadağan edən qanunvericilik çərçivələrinin qəbul edilməsidir. Ayrı-seçkiliyə qarşı qanunlar müxtəlif mənşəli şəxslərin məşğulluq, təhsil, mənzil və ictimai xidmətlər kimi sahələrdə qərəzli münasibətdən qorunduğu hüquqi mühit yaradır.

*2. Mədəni təbliğ və dəstək proqramları:* Bir çox hökumətlər mədəniyyət institutlarına, festivallara və azlıqların mədəniyyətlərini təmsil edən media orqanlarına maliyyə və dəstək vasitəsilə müdafiədən kənara çıxan və mədəni müxtəlifliyi fəal şəkildə təşviq edən siyasət həyata keçirir. Bu proqramlar müxtəlif mədəniyyətlər haqqında məlumatlılığın artırılmasına kömək edir, mədəniyyətlərarası anlaşmanı təşviq edir və mədəni ifadələrin qorunub saxlanmasını və gələcək nəsillərə ötürülməsini təmin edir.

*3. Çoxdillilik və təhsil siyasətləri:* Dil mədəni kimliyin həlledici komponentidir və çoxdillilik siyasəti çox vaxt multikulturalizm strategiyalarının əsasını təşkil edir. Dövlət qurumları və məktəblərdə çoxlu dillərin tədrisi və istifadəsini təşviq etməklə hökumətlər dil müxtəlifliyinin qorunmasına kömək edə bilər. İkidilli təhsil proqramları azlıq icmalarından olan tələbələrə öz ana dilində təhsil almağa imkan verir.

4. *İmmiqrasiya və inteqrasiya siyasətləri:* Multikulturalizm siyasəti immiqrasiya ilə sıx bağlıdır, çünki bir çox mədəni müxtəlif cəmiyyətlər dünyanın müxtəlif yerlərindən gələn immiqrantların gəlişi ilə formalaşmışdır. Effektiv immiqrasiya və inteqrasiya siyasətləri yeni gələnlərin daha böyük cəmiyyətin bir hissəsinə çevrildiyi üçün qarşılanmasını və dəstəklənməsini təmin edir.

Multikulturalizm siyasəti qloballaşan dünyada mədəni müxtəlifliyin qorunması və təşviqi üçün həyati əhəmiyyət kəsb edir. Onlar müxtəlif mədəni qrupların unikal şəxsiyyətlərinin tanınması və hörmət edilməsi üçün bir çərçivə təmin etməklə yanaşı, sosial birliyi gücləndirir. Ayrı-seçkiliyə qarşı qanunları həyata keçirmək, mədəniyyət institutlarını dəstəkləmək, çoxdilliliyi təşviq et-

mək və inklüziv immiqrasiya siyasətini inkişaf etdirməklə hökumətlər mədəni müxtəlifliyin təkcə qorunub saxlandığı, həm də qeyd olunduğu mühitlər yarada bilər. Bununla belə, bu siyasətlərin uğuru onların mədəni qorunma ilə sosial birlik və ümumbəşəri insan hüquqlarının müdafiəsi kimi daha geniş məqsədlə balanslaşdırmaq bacarığından asılıdır. Artan qloballaşma və miqrasiya şəraitində multikulturalizm siyasətlərinin inklüziv, müxtəlif cəmiyyətlərin formalaşdırılmasında rolu həlledici olaraq qalacaq.

## ƏDƏBİYYAT

1.https://academic.oup.com/book/44933/chapter/384861317
2.https://link.springer.com/article/10.1007/s12134-020-00767-9
3.https://comparativemigrationstudies.springeropen.com/articles/10.1186/s40878-019-0152-1

# SOSİOLOJİ MƏLUMATLARDA VERİFİKASİYA VƏ VALİDASİYA PROBLEMİ

***Cəniyeva Səbinə İlqar qızı***
***BDU-nun II kurs magistrantı***
*sabinacaniyeva@gmail.com*

**Aktuallıq:** Məlumatların toplanması və təhlili tədqiqatın aparılmasının ən vacib mərhələlərindən və aspektlərindən biridir. Yüksək keyfiyyətli məlumatlar tədqiqatçılara tapıntıları dəqiq şərh etməyə, gələcək tədqiqatlar üçün əsas rol oynamağa və tədqiqat nəticələrinin  etibarlılığını yüksəltməyə imkan verir. Tədqiqatın təbiəti və geniş miqyaslı olması səbəbindən səhvlər mütləqdir. Bu səbəbdən də sosioloji məlumatlarda verifikasiya və validasiya problemi həmişə aktual məsələlərdən biridir.

**Əsas hissə:** Sosioloji tədqiqatlarda qeyri-dəqiq və ya səhv məlumatları aradan qaldırmağın yolu məlumatların yoxlanılmasıdır. Verifikasiya və validasiya bu yerdə tədqiqatçının istifadə etməli olduğu ən vacib iki metoddur. Ədəbiyyat icmalına nəzər yetirdik-

də aydın olur ki, tədqiqatçılar verifikasiya və validasiya proseslərini bir-birindən fərqləndirmədə çətinlik yaşaya bilirlər. Verifikasiya və validasiya sosioloji məlumatın və ya strukturun nəzərdə tutulan tələblərə cavab verməsini təmin etmək üçün istifadə edilən iki fərqli prosesdir. Əsas fərq bundan ibarətdir ki, verifikasiya - sosioloji məlumatın müəyyən edilmiş dizayn və tələblərə uyğun olaraq hazırlandığını yoxlamaq prosesidir. O, "Biz məlumatı düzgün formalaşdırırıqmı?" sualına cavab verir. Verifikasiya daha çox daxili proseslərə, sənədlərə və aralıq mərhələlərə (məsələn, yoxlamalar, nəzərdən keçirmələr və inkişaf zamanı testlər) diqqət yetirir.

Validasiya isə sosioloji məlumatın təyinatı üzrə istifadəsini yerinə yetirib-yetirmədiyini və cəmiyyətin ehtiyaclarına cavab verib-vermədiyini yoxlamaq prosesidir. O, "Biz düzgün məlumatı formalaşdırırıqmı?" sualına cavab verir. Validasiya son məlumatın real dünyada və ya cəmiyyətin gözlədiyi kimi düzgün işləməsini təmin etmək üçün prosesin sonuna doğru aparılır. Verifikasiyadan cari məlumatların dəqiq, ardıcıl və nəzərdə tutulmuş məqsədi əks etdirdiyini yoxlamaq üçün istifadə olunur. Bu proses istənilən vaxt baş verə bilər. Başqa sözlə, verifikasiya təkrarlanan məlumat keyfiyyəti prosesinin bir hissəsi kimi baş verə bilir, halbuki validasiya adətən məlumatın ilkin yaradılma anında və ya məlumat yeniləndikdə baş verir.

**Məqsəd:** Tədqiqatın məqsədi sosioloji məlumatların toplanması, emalı və təhlili proseslərinin maksimal dərəcədə dəqiq və doğru aparılmasında rol oynayan metod və ünsürləri vurğulamaq, onların önəmindən bəhs etməkdir.

**Nəticə və tövsiyyələr:** Sosioloji tədqiqatlar zamanı əldə olunan informasiyalar doğruluğu yüksək dərəcədə əks etdirməli və aparılan tədqiqatın məqsədinə, hədəfinə uyğun olmalıdır. Tədqiqatçı məlumatın əldə olunması və emalı proseslərində verifikasiya və validasiya metodlarınn nə olduğunu dərindən bilməli, onlar arasındakı fərqi görməli və tədqiqatın lazımi hissələrində onlardan istifadə etmə qabiliyyətinə malik olmalıdır. Beləliklə, fırıldaqçılıq və məlumatların saxtalaşdırılması şübhələrindən azad ol-

maq üçün tədqiqat tez-tez yoxlanışdan keçməlidir. Bəzən məlumatlardakı qəsdən səhvlər belə tədqiqatın düzgün aparılması kimi qiymətləndirilə bilər. Məlumatların bütövlüyü reputasiyanızı və tədqiqatınızın etibarlılığını qorumaq üçün vacibdir. Beləliklə, verifikasiya və validasiya prosesləri yalnız dəqiqliyi təmin etmir, həm də məlumatlarınızın tamlığını təsdiqləyir.

**ƏDƏBİYYAT**


1. Conference on Systems Engineering Research (CSER'13) Eds.: C.J.J. Paredis, C. Bishop, D. Bodner, Georgia Institute of Technology, Atlanta, GA, March 19-22, 2013.
2. The conundrum of verification and validation of social sciencebased models, Heidi Ann Hahn, Los Alamos National Laboratory, PO Box 1663 MS F696, Los Alamos, NM, USA
3. Improving wildlife data quality: guidance on data verification, validation and their application in biological recording Compiled by: Trevor James, NBN Development Officer for Societies & Schemes
4. National Biodiversity Network Trust Guidance on Data Verification & Validation (2006)
5. BRUCE C. STRAITS, *Approaches to Social Research,* 3rd ed. (1999)


## KEYFİYYƏT TƏDQİQAT METODLARININ ƏHƏMİYYƏTİ VƏ TƏTBİQİ


***Musayeva Nərmin Azər qızı***
***BDU-nun II kurs magistrantı***
*narminmusayeffa@gmail.com*


**Aktuallıq:** Keyfiyyət tədqiqatları elm üçün yeni biliyin istehsalı üsuludur. Sosioloji tədqiqatlar isə əsasən sosial hadisə və proseslərin tərəflərini, kəmiyyət və keyfiyyət dəyişkənliklərini, inkişaf təmayüllərini, səbəblərini və s. öyrənir və sosial problemlərin araşdırılması, öyrənilməsi, həlli yollarının işlənib hazırlanması üçün istifadə olunur. Bu tədqiqatların əsas səbəblərindən biri cə-

miyyətin geniş, məzmunlu və aktual informasiyaya daim ehtiyacının olmasıdır. Konkret sosioloji tədqiqatlar qəbul edilən metodoloji mövqeyə görə iki növə ayrılır: kəmiyyət və keyfiyyət tədqiqatları.

**Əsas hissə:** Kəmiyyət tədqiqatları əsasən təsviredici və izahedici xarakterə malik olduğu və tədqiqatçılar tərəfindən rəqəm və ədədlərlə işlənildiyi halda, keyfiyyət tədqiqatlarında sözlər və ifadələr əsas diqqət mərkəzindədir. Norman K. Denzin və Yvonna S. Lincoln yazırlar ki, keyfiyyət metodlarının başlıca məqsədi fərdlərin və təşkilatların davranış və fəaliyyətinin motivlərini, habelə onların baxış və müxtəlif məsələlər barəsindəki fikirlərini təfsilata vararaq öyrənməkdir. Keyfiyyət tədqiqatçıları sosial reallığı iştirakçıların gözü ilə görməyə çalışır, çünki inanırlar ki, fərdlərin dünyagörüşü və fəaliyyətini yalnız bu üsulla başa düşmək olar. Keyfiyyət tədqiqatları sual altındakı problemi mikro-səviyyədə öyrənib izah edir. Keyfiyyət tədqiqatları müşahidə, müsahibə, fokus-qruplar, dərinləşmış intervü, kontent təhlil, keys – stadi və s. kimi metodlardan istifadə edilərək həyata keçirilir. Bunlardan ən çox istifadə olunanları müsahibə, fokus – qruplar, müşahidə və kontent təhlil metodudur.

- *Müsahibə:* Bir və ya bir neçə şəxslə aparılan söhbət vasitəsilə məlumat toplama üsuludur. Müsahibə strukturlaşdırılmış, qismən strukturlaşdırılmış və struktursuz şəkildə həyata keçirilə bilər. Şəxsi fikirlər, təcrübələr və dərin məlumatlar əldə etmək üçün istifadə olunur.
- *Fokus qruplar:* Bir mövzu ətrafında bir neçə iştirakçı ilə aparılan müzakirə metodudur. İştirakçıların qarşılıqlı təsirindən yaranan müxtəlif fikirlər toplamaq məqsədilə istifadə olunur. Xüsusilə sosial araşdırmalarda geniş tətbiq edilir.
- *Müşahidə:* Bir hadisəni, prosesi və ya insan davranışını izləməklə məlumat toplama üsuludur. Müşahidə iştirakçı (aktiv müşahidəçinin də prosesi izləməsi) və qeyri-iştirakçı (passiv izləmə) olmaqla iki əsas növə bölünür.
- *Kontent təhlil:* Mətn, vizual materiallar, media məzmunu və ya sənədlərin təhlili vasitəsilə məlumat toplama metodudur. Bu metod vasitəsilə məzmunun strukturunu, mənasını və nümunələrini araşdırmaq mümkündür.

Bu metodların hər biri özünəməxsus xüsusiyyətləri ilə cəmiyyətdə baş verən sosial hadisə və prosesleri, insanların davranış və xüsusiyyətlərini daha dərindən anlamağa və öyrənməyə kömək edir.

**Məqsəd:** Tədqiqatın məqsədi keyfiyyət tədqiqat metodlarının sosial hadisələri və insan davranışlarını dərinləşdirilmiş bir şəkildə anlamaqda, insanların düşüncələrini, təcrübələrini hisslərini, motivasiyalarını və sosial kontekstlərini araşdırmaqda rolunu diqqətə çatdırmaq və təqdim etməkdir.

**Nəticə və tövsiyyələr:** Keyfiyyət tədqiqat metodları sosial fenomenləri və insan davranışlarını dərinləşdirilmiş bır şəkildə anlamaq üçün əvəzsiz bir vasitədir. Bu metodların tətbiqi nəticəsində əldə olunan məlumatlar, tədqiqatçıların sosial gerçəklikləri daha yaxşı anlamasına və sosial problemlərə effektiv yanaşmalar inkişaf etdirməsinə kömək edir. Keyfiyyət metodları, insanların düşüncə və hisslərini daha yaxından anlamağa imkan verir, beləliklə, sosial davranışların motivasiyalarını açığa çıxarır. Bu metodlar, sosial hadisələrin mədəni və tarixi kontekstlərini nəzərə alaraq, daha geniş bir perspektiv təqdim edir. İştirakçı müşahidə, müsahibələr və fokus qrupları vasitəsilə toplanan məlumatlar, statistik metodlarla əldə edilən məlumatlardan daha zəngin və dərin olur. Müxtəlif sosial qrupların perspektivlərini ələ alaraq, tədqiqatlar daha ədalətli və inklüziv nəticələr verir. Tədqiqatları həyata keçirərkən bir neçə keyfiyyət metodunu birləşdirərək daha dolğun nəticələr əldə etməyə çalışılmalı, kontekst dərindən araşdırılmalı, mədəni və tarixi faktlar nəzərə alınaraq nəticələr interpretasiya edilməli, tədqiqat zamanı iştirakçıların fəal rol almasına, təcrübələrini daha açıq şəkildə ifadə etmələrinə imkan yaradılmalı, tədqiqatçılar etik qaydalara riayət etməli, iştirakçıların gizliliyi qorunmalı və onların razılığı mütləq alınmalıdır. Həmçinin keyfiyyət tədqiqat metodları dinamik sosial reallıqları anlamaq üçün davamlı tədqiqatlar aparmağı tələb edir. Məlumatların dövri olaraq yenilənməsi əhəmiyyətlidir

## ƏDƏBİYYAT

6. Hovard Lyun və Bryus L.Berq (2021). Sosial elmlərdə keyfiyyət tədqiqat metodları (Tərcümə edən Z. Cəfərova). Bakı: TEAS Press.
7. Silverman, D. (2020). Qualitative research (5th ed.). London: Sage Publications.
8. Hennink, M., Hutter, I., & Bailey, A. (2020). Qualitative research methods (2nd ed.). London: Sage Publications.
9. Seidman, I. (2019). Interviewing as qualitative research: A guide for researchers in education and the social sciences (5th ed.). New York: Teachers College Press.
10. Denzin, N. K., & Lincoln, Y. S. (Eds.). (2018). The Sage handbook of qualitative research (5th ed.). Thousand Oaks, CA: Sage Publications.
11. Yıldırım, A., & Şimşek, H. (2018). Sosyal bilimlerde nitel araştırma yöntemleri (11. baskı). Ankara: Seçkin Yayıncılık.

*Bölmə rəhbəri - dos. Nərminə Mikayılova*

# KOMPÜTER SİSTEMLƏRİNİN MÜHAFİZƏYƏ EHTİYACI OLAN ZƏİF ELEMENTLƏRİNİNİN TƏYİN EDİLMƏSİ

***Babazadə Nəzrin İlqar qızı***
***Lənkəran Dövlət Universitetinin magistrantı***
*nazrinbabazade18@gmail.com*

Komputer sistemləri dövrümüzdə olduqca böyük əhəmiyyət kəsb edərək, həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Komputer sistemləri muasir dövrdə insanların iş yükünü olduqca sadələşdirir. Kompüter sistemləri fərdi istifadəçilərlə yanaşı birçox iri müəssisələr və şirkətlər də istifadə etməklə geniş istifadəçi kütləsinə sahibdir. Kompüter sistemləri vasitəsi ilə informasiyanın ötürülməsi, saxlanılması, emalı və s. bu kimi önəmli proseslər reallaşdırılır. Bu sistemlərin müsbət cəhətləri olduğu kimi bir sıra çatışmayan cəhətləri də var.

Hansılar ki, bura biz komputerin muhafizəyə ehtiyacı olan bir sıra zəif elementlərini və bu zəif elementlərin yaratdığı təhlükələri aid edə bilərik. Kompüter təhlükələri, informasiya texnologiyaların-dan bu qədər sıx istifadə edilən müasir cəmiyyətdə əsas təhlükələrdən biri hesab edilir. Müasir dövrümüzdə informasiya texnologiyaları və həmçinin şəbəkə və şəbəkə resurslarından, bulud texnologiyalarından demək olar ki, hər kəs tərəfindən istifadə edilir. Bu texnologiyalardan istifadə bir sıra təhlükələrin ortaya çıxmasına səbəb olur.[1]

Bu təhlükələrə şəbəkə hücumları, bir sıra zərərli proqramlar, təbii və süni fəlakətlər aid edilir. Bu təhlükələr məlumatların icazəsiz istifadəsinə informasiyanın və şəxsi məlumatların oğurlanmasına, çoxlu maliyyə itkilərinə və s. yol aça bilir. Bu səbəbdən də komputer sistemlərinin təhlükəsizliyinin təmini əsas məqsəd-

lərdən biridir. Dövrümüzdə komputer sistem-lərindən, şəbəkədən, informasiya texnologiyalarından səmərəli istifadə edilməsi, komputer sistemlərinin təhlükəsizliyinin təmin edilməsi sayəsində həyata keçirilir. Komputer sistemləri üçün təhlükə yaradan zəif elementlərə aşağıda sadalananlar aid edilir:

1. Hardware (Avadanlıq)

- Fiziki zədələnmə - Bu əsasən komputer və komputer qurğularının (resurslarının) qarşısında duran təhlükədir. Bura qurğu və ya avadanlıqların xarici fiziki təsirlərdən ziyan görməsi, düşməsi, sınması və b. Səbəblərdən ziyan görməsi aid edilə bilər.
- Elektrik problemləri – Elektrik dalğalanmaları, qısa qapanmalar və s. bu kimi hallar komputer resurslarının ziyan görməsi ilə nəticələnir.
- Yaşlanma və defektlər – Komputer və komputer sistemləri, zamanla fəaliyyətini ilk istifadə edilməyə başladığı dövrə nisbətən zəiflədir. Bu da komputer və komputer qurğularının zamanla sıradan çıxmasına və istifadəyə yararsız olmasına gətirib çıxarır.
- Serverlər - Məlumatların və ya informasiyanın saxlandığı əsas qurğular (avadanlıqlar).
- Şəbəkə qurğuları – Şəbəkə qurğuları dedikdə, Router, Switch və Firewall-lar kimi qurğular nəzərdə tutulur. Sadalanan şəbəkə qurğuları şəbəkənin təhlükəsizliyi üçün əsas amillərdən biridir.

2. Software (Proqram təminatı)

- Əməliyyat sistemləri – Birsıra əməliyyat sistemləri vardır ki , məsələn: Windows, Unix, Linux və s. əməliyyat sistemlərinin birsıra zəif elementləri mövcuddur. Hansılar ki, təhlükələrin yaranmasına səbəb olur.
- Tətbiq proqramları - Komputerin tətbiqi proqramlarının bəzi yanlışları və çatışmayan cəhətləri, həmçinin yenilənmələr istismara şərait yaradan əsas problemlərdəndir.

3. Məlumatlar

- Şəxsi məlumatlar – Bu tip məlumatlar, olduqca özəl sayılan istifadəçi məlumatları hesab edilir (debit və kredit kartları məlu-

matları , iş məlumatları və s. bu kimi məlumatlar). Şəxsi məlumatlar ən çox qorunma tələb edən məlumatlardandır.

- Nüsxələnmiş məlumatlar – Komputer sistemində mövcud olan informasiyalar nüsxələnərək yaddaşda saxlanılır. KS-də muhafizə edilən digər məlumatlar kimi ehtiyat nüsxələr də həmçinin muhafizə edilməlidir.

4. Şəbəkə

- Şəbəkə protokolları - Komputer sistemlərində istifadə edilən bir sıra protokollar vardır ki, onların bəziləri təhlükənin yaranmasına səbəb ola bilər. Bu zəif protokollara WPA2 və yaxud HTTP protokollarını göstərə bilərik.

5. İnsan faktoru

- Sistem istifadəçiləri – İnsan faktoru vasitəsilə təhlükənin yaranması adətən istifadəçilər tərəfinfən yaradılmış zəif parollar (şifrələr), məlumat və ya informasiyaların ötürülməsi və s. sayəsində baş verir.
- İstifadəçilərin bilgili olması – Sistem istifadəçiləri yarana biləcək təhlükələrin qarşısını almaq üçün müəyyən bilgi və ya məlumatları mənimsəməlidirlər.

Yuxarıda sadaladığımız elementlərin cədvəl şəklində təsviri isə aşağıdakı kimidir:

| ***Hardware*** | ***Software*** | ***Məlumatlar*** | ***Şəbəkə*** | ***İnsan faktoru*** |
|---|---|---|---|---|
| Fiziki zədələnmə | Əməliyyat sistemləri | Şəxsi məlumatlar | Şəbəkə protokolları | Sistem istifadəçiləri |
| Elektrik problemləri | Tətbiq proqramları | Nüsxələnmiş məlumatlar | | İstifadəçilərin bilgiləndirilməsi |
| Yaşlanma və defekt | | | | |
| Serverlər | | | | |
| Şəbəkə qurğuları | | | | |

Komputer sisteminin bu zəif elementləri müasir informasiya texnologiyalarının dayanıqlığını və təhlükəsizliyini ciddi sürətdə hədələyir. Bu kimi zəif elementlər sistemin çalışmasına, məlumatların mühafizə edilməsinə, müştəri etimadına ziyan vura bilir.[2]

Komputer sisteminin zəif elementlərinə nəzər saldıq. İndi isə bu elementlərin qarşısında duran təhlükələrə nəzər salaq. Komputer sistemlərinin qarşısında duran əsas təhlükələr aşağıdakılardır:

- Zərərli proqramlar – Bura əsasən virus proqramları trojanlar aid edilir. Bu virusların qarşısını almaq və təhlükəsizliyi təmin etmək üçün müəyyən antivirus proqramlarından istifadə edilir.
- Hücumlar – DDoS, Phishing, man-in-the-middle, kiber hücumlar aid edilir.
- Təbii fəlakətlər – təbii fəlakət təhlükələrinə insan iradəsindən kənarda baş verən proseslər aid edilir. Bura yanğınlar, su basmaları, zəlzələ və digər təbiət hadisələri aid edilir.

Sadalanan bu təhlükələrin sistemə müxtəlif təsirləri vardır. Bu təsirlər bütün sistemin işinin ləngiməsinə gətirib çıxarır. Təhlükələrin yarada biləcəyi ziyanlara misal olaraq, aşağıdakıları göstərə bilərik:

- Məlumat itkisi – Burada adətən şəxsi istifadəçi məlumatlarının itirilməsi və oğurlanması nəzərdə tutulur.
- Maliyyə itkisi – İş prosesinin ləngiməsinə və hətta dayanmasına səbəb ola bilir. İş prosesinin yenidən bərpası isə böyük maliyyə xərci tələb edən proses olduğu üçün bu olduqca böyük ziyan hesab edilir.
- Reputasiya zərəri – Təhlükələrin yaratmış olduğu ziyanlar müştəri güvəninin sarsılmasına gətirib çıxarır.
- Hüquqi problemlər – Qanunlara əməl olunmaması və bu səbəbdən verilmiş cəzalar nəzərdə tutulur.

Komputer sistemlərinin qarşısında duran bu kimi təhlükələr olduqca böyük problemlərə səbəb olduğu üçün müntəzəm şəkildə yeni mübarizə üsulları yaradılır. Hazırda KS-ləri qarşısında duran təhlükələrlə mübarizə üçün aşağıdakı strategiyalar tətbiq edilir:

- Antivirus proqramları – Bu proqramların quraşdırılması vasitəsi ilə sistemə ziyan vura biləcək bütün viruslar və zərərli proqramlar aşkar edilərək zərərsizləşdirilir. Ən çox istifadə edilən antivirus proqramlarına misal olaraq Norton Antivirus, Kaspersky Anti-Virus, Avast Free Antivirus və başqa antivirus proqramlarını göstərə bilərik.
- Firewall-lar – Əsasən şəbəkə üzərindən təhlükəsizliyi təmin etməyə xidmət göstərir.
- Nüsxələmə - İnformasiyalar və ya məlumatların qorunması məqsədi ilə onlar müntəzəm aralıqlarla nüsxələnir. Bu məlumatların orginal formasına ziyan gəldiyi halda ehtiyat nüsxədən istifadə edilə bilər.
- İstifadəçi bilgiləndirilməsi – Bütün şəbəkə istifadəçiləri təhlükəsizlik haqqında müəyyən dərəcədə bilgilərlə təmin olunaraq məlumatlandırılmalıdır.

**ƏDƏBİYYAT**

1. Stallings, W., & Brown, L. (2012). Computer Security: Principles and Practice. Prentice Hall.
2. Anderson, R. (2020). Security Engineering: A Guide to Building Dependable Distributed Systems. Wiley

## RƏQƏMSAL MODELLƏRİN YARADILMASI

***Əlizadə Gülay Adigözəl qızı***
***Lənkaran Dövlət Universitetinin magistrantı***
*elizadegulay15@gmail.com*

Rəqəmsal model – gerçək dünyadakı bir obyektin, sistemin və ya prosesin riyazi və ya məntiqi virtual sistemdə təsvir formasıdır. Bu təsvir, kompüterlərin başa düşə biləcəyi rəqəmsal məlumatlardan ibarətdir. Rəqəmsal model, məlumatları riyazi yanaşmalarla təhlil etmək və proqnozlaşdırmaq üçün istifadə olunan bir yanaşmadır. Bu model, verilənlərin rəqəmsal formatda təqdim

edilməsini təmin edir və müxtəlif alqoritmlərdən istifadə edərək müəyyən nəticələr çıxarmağa imkan verir.

Rəqəmsal modellərin yaradılması bir neçə mərhələdə yerinə yetirilir:

1. Məqsədin müəyyənləşdirilməsi və obyektin seçilməsi;
2. Məlumatların toplanması;
3. Məlumatların uyğunlaşdırılması, müqayisəsi və yoxlanması;
4. Modelin növünün müəyyən edilməsi;
5. Modelə uyğun proqram təminatının seçilməsi;
6. Modelləşdirmə metodunun seçilməsi;
7. Modelin qurulması;
8. Modelin testləşdirilməsi;
9. Təhlil və nəticə.

**1.Məqsədin müəyyənləşdirilməsi və obyektin seçilməsi-** məqsədin müəyyən edilməsi dedikdə riyazi modeli niyə və nə üçün qurmaq suallarının cavabı əhatə edir. Bu mərhələdə obyektin tipi onun aid olduğu sinif və ya sahə müəyyən edilir. Obyektin seçilməsi tamamiilə məqsəddən asılıdır. Beləki məqsədimizə uyğun obyekti müəyyən edib onun məqsədimizə nə qədər uyğun olub olmamasını araşdırmaq lazımdır.

**2.Məlumatların toplanması-**Məlumatların toplanması rəqəmsal modelin yaradılması prosesinin əsas mərhələlərindən biridir. Məlumat mənbələri iki yerə ayrılır: ilkin məlumat mənbələri(Tədqiqat, eksperimentlər , müşahidələr, və digər metodlar) və əlavə məlumat (Kütləvi məlumat bazaları, elmi jurnallar, dövlət statistikaları və göstəriciləri və digər publikasiya mənbələri).

**3.Məlumatların uyğunlaşdırılması, müqayisəsi və yoxlanması-** Məlumatların yoxlanması, toplanmış məlumatların və etibarlılığını, tamlığını, dəqiqliyini təmin etmək üçün vacib bir mərhələdir. Məlumatların yoxlanması, modelin dəqiqliyi üçün önəmli hesab olunan bir addımdır. Yoxlama prosesini diqqətlə yerinə yetirmək dəqiq nəticənin alınmasına və eləcədə, potensial yarana biləcək problemlərin qarşısını alır. Burada bir sıra hallar nəzərə alınmalıdır: Məlumatın müəyyən standartlara və ya qayda-

lara uyğun olub-olmaması yoxlanılmalı, Məlumatın əldə edildiyi mənbənin etibarlılığı araşdırılmalı, fərqli mənbələrdən alınan məlumatlar bir-biri ilə müqayisə edilməli, faktlar və statistikalar əsaslar və göstəricilər qiymətləndirilməlidir.

**4.Modelin növünün müəyyən edilməsi-**Rəqəmsal modelin növünün seçilməsi, layihənin məqsədinə, verilən məlumatların növünə və bizim ücün lazımlı olan nəticələrə əsaslanır. Sadə model seçmək, onun təhlilini və tətbiqini asanlaşdırsada çox zaman əhəmiyyətli modellər demək olarki mürəkkəb olur.Deməli daha mürəkkəb modellər  daha dəqiq nəticələr verir. Modelin hansı məsələni həll edəcəyini müəyyən etmək (Proqnozlaşdırma, optimallaşdırma və ya simulyasiya) üçün fərqli modellər seçmək lazımdır. Rəqəmsal modellərin əsas növləri: Statik modellər, dinamik modellər, deterministik modellər, stoxastik modellər, simulyasiya modelləri, həndəsi modellər, riyazi modellər, maliyyə modelləri və s.

**5.Modelə uyğun proqram təminatının seçilməsi-** Modelə uyğun proqram təminatının seçilməsi, modelin məqsədindən növündən və layihənin tələblərindən aslıdır. Rəqəmsal modellərin yaradılması və təhlili üçün proqram təminatının seçimi bir neçə amildən asılıdır: Modelin növündən- (Statistik Model ; simulyasiya Modeli); Büdcə və lisenziya -(Proqramın maliyyə məsələləri, ödənişli və ya ödənişsiz versiyaları arasındakı seçim); İstifadəçi Bacarıqları-( proqram təminatını istifadə etmək üçün lazımlı olan texniki tələbər və biliklər. Məsələn, Java kodlaşdırma bacarıqları olanlar  java kitabxanalarından istifadə edə bilər.

**6.Modelləşdirmə metodunun seçilməsi-** Metod modeli necə qurmaq sualının cavabını əhatə edir.Modelləşdirmə metodlarının seçilməsində onun növü rol oynayır.Bir neçə metoda nəzər salaq: Sistem Modelləşdirməsi metodu

İş Axını Modelləşdirməsi: BPMN (Business Process Model and Notation) [2].

Simulyativ modelləşdirmə metodu

Monte Carlo Simulyasiyası: rəqəmlərin istifadəsi ilə proseslərin simulyasiyası [1].

Fiziki Modelləşdirmə metodu

Təbiət qanunlarına ve hadisələrinə əsaslanan modellər: Fıziki proseslərin (məsələn, cərəyan, istilik və s) modelləşdirilməsi.

**7.Modelin qurulması-**bu mərhələyə arxada sadalanan 6 addımın nəticəsi şəkilində baxmaq olar. Beləki bu mərhələdə digər butun addımlar nəzərə alınır və gəlinən nəticə əsasında model təyin edilir və qurulur.

**8.Modelin testləşdirilməsi**- Rəqəmsal modelin testləşdirilməsi yəni yoxlanılması prosesi modelin yekun forması və nəticəsi üçün vacib rol oynayır. Rəqəmsal modelin testləşdirilməsi üçün bir neçə üsüla nəzər salaq: Qiymətləndirmə- modelin müəyyən qayda və tələblərlə nə dərəcədə uyğunlaşmasını yoxlayır; Səhvlərin müəyyən edilməsi- modeldəki səhvləri və ya gələcəkdə yarana biləcək səhvləri aşkar edir; Senari Testi: Modelin müxtəlif şəraitlərdə fərqli şərtlər altında necə davrandığını göstərmək üçün müxtəlif senarilər, o cümlədən kənar vəziyyətlər yəni potensial hadisələr altında sınaqdan keçirilməsi.

**9.Təhlil və nəticə-** Yuxarıda qeyd olunan mərhələdə müəyyən edilən səhvlər və aşkar edilən problemli situasiyalar təhlil edilir və ən uyğun şəkildə həll olunur. Bu mərhələdə artıq səhvlərin tamamilə aradan qaldırılması və yekun modelin təqdim olunması nəzərdə tutulur.

## ƏDƏBİYYAT

1.Reuven Y. Rubinstein and Dirk P. Kroese. Simulation and the Monte Carlo Method.

2. Zarour, K., Benmerzoug, D., Guermouche, N., & Drira, K. (2020). "A systematic literature review on BPMN extensions." Business Process Management Journal, 26(6), 1473-1503.

# RƏQƏMLİ KOMMUTASİYANIN PROQRAM TƏMİNATININ QURULMA PRİNSİPLƏRİ

***Həsənzadə Ləman Emin qızı***
***Lənkəran Dövlət Universitetinin magistrantı***
*iamlemanhasanzadeh@gmail.com*

Rəqəmli kommutasiya sistemləri məlumatların rəqəmsal formatda ötürülməsini həyata keçirir. Rəqəmli kommutasiya müasir telekommunikasiya sistemlərinin əsasını təşkil edən texnologiyadır. Rəqəmli kommutasiyanın proqram təminatı isə bu sistemlərin düzgün işləməsini və müxtəlif funksiyaların həyata keçirilməsini təmin edir. Məlumatların düzgün bir şəkildə yönləndirilməsi, səhvsiz ötürülməsi, əlaqənin etibarlı olması proqram təminatının əsas məqsədlərindəndir. Rəqəmli kommutasiya elə bir sistemdir ki, o məlumatların elektrik siqnalları vastəsilə ötürülməsini təmin edir. Rəqəmli kommutasiyanın ənənəvi kommutasiyadan ən böyük üstünlüyü onun yüksək sürət, əla keyfiyyət və az xərc tələb etməsidir [1].

Rəqəmli kommutasiyanın proqram təminatının qurulma prinsipləri bunlardır: Modulluq, Uyğunluq, Effektivlik, Təhlükəsizlik. Bu prinsiplər haqqında ətraflı məlumat verək.

1.Modulluq

Bu prinsipin əsas məqsədi proqram təminatının müstəqil modullara bölünməsindən ibarətdir. Burada hər modul müəyyən funksiyanı yerinə yetirir və beləliklə sistemin işi asanlaşır. Modulluq prinsipi sistemlərin inkişafında və idarə edilməsində olduqca əhəmiyyətli bir rola malikdir. Modulluq prinsipinin bir digər əhəmiyyəti sistemin etibarlılığını artırmasıdır. Modulluq prinsipi sistemin hər bir modulunu ayrı-ayrılıqda test etməyə imkan verir. Beləliklə problem yarandığı zaman bütün modular deyil də sadəcə problemin olduğu modulda düzəlişlər edilir. Bu da öz növbəsində sistemin etibarlılığını və performansını artırır [2].

2.Uyğunluq

Uyğunluq prinsipi sistemin fərqli komponentləri arasında birgə işləməni təmin edir. Rəqəmli kommutasiya sistemləri müxtəlif

platformalara məxsus avadanlıqların bir arada işləməsini təmin etməlidir. Uyğunluq prinsipi sistemin gələcəkdə genişləndirilə bilməsini təmin edir. Sistem genişləndirilən zaman yəni sistemə yeni funksiyalar modular əlavə edilən zaman uyğunluq prinsipi mütləq saxlanılmalıdır. Uyğunluq prinsipinin saxlanılması sistemin inteqrasiyasını da asanlaşdırır. Həmçinin uyğunluq prinsipi sistemdəki məlumatların təhlükəsizliyinin təmin edilməsində olduqca büyük rol oynayır [3].

3. Effektivlik

Rəqəmli kommutasiyanın proqram təminatının effektivlik prinsipi telekommunikasiya sistemlərinin proqram təminatının inkişafında önəmli rol oynayır. Effektivlik dedikdə sistemin uyğun resurslardan məsələn vaxtdan ,enerjidən və s. səmərəli istifadəsi başa düşülür. Effektivlik bir sistemin hər hansısa bir vəzifəni yerinə yetirmək üçün olan resursların miqdarı ilə ölçülür. Rəqəmli kommutasiyanın proqram təminatının effektivliyi onun daha az yaddaş istifadə etməsi ,daha az vaxt sərf etməsi ilə ölçülür. Başqa sözlə desək sistem nə qədər az yaddaş istifadə etsə nə qədər az vaxt sərf etsə bir o qədər effektiv və etibarlı sayılır.

Bu eyni zamanda xərclərin də az olduğu anlamına gəlir. Effektivlik prinsipini əsas götürən proqram təminatı məlumatların sürətli işlənməsini təmin etməlidir. Sistemdə heç bir ləngimə və gecikmə olmamalıdır. Effektiv sistemlər məlumatların sürətli işlənməsini təmin etdiyi kimi həm də problemlərin də qısa müddətdə aşkar edilməsini müəyyən edir və əlavə zaman itkisinin qarşısını alır. Bu da öz növbəsində sistem istifadəçilərinin məmnunluğunu artırır. Sistem istifadəçilərinin məmnunluğu sistemin effektivliyindən birbaşa asılıdır. Sistemin effektivliyinin artırılmasının bir çox yolları vardır. Yaddaşın düzgün idarə edilməsi sistemin effektivliyini artırır. Şəbəkə trafikinin tənzim edilməsi məlumatların daha sürətli ötürülməsinə səbəb olur bu da sistemin effektivliyini artır. Sistemin müntəzəm olaraq test edilməsi, sınağdan keçirilməsi onun effektivliyini artırır və sistemdən daha səmərəli istifadə edilir [4].

4. Təhlükəsizlik

Bu prinsipinin əsas məqsədi sistemdəki məlumatların təhlükəsizliyini qorumaqdır. Təhlükəsizlik prinsipi sistemin təhlükəsizliyini qorumaqla yanaşı həm də istifadəçilərin məlumatlarının qorunmasını təmin edir.Bu prinsip sistemi əsasən kiberhücumlara qarşı müdafiə edir. Təhlükəsizlik prinsipi sistemin etibarlılığını artırır. Rəqəmli kommutasiyanın məhz bu prinsipi istifadəçilərin sistemdən güvənli şəkildə istifadəsinə şərait yaradır, sistemdəki məlumatların tamlığını, konfidensial-lığını təmin edir.

Sistemdəki məlumatların qorunduğunu bilmək müştərilərin etimadını artırır və sistemdən səmərəli istifadəyə şərait yaradır. Sistemdəki məlumatların qorunması üçün müxtəlif tədbirlər görülür. Beləki məlumatlar şifrələnir və ya sadəcə müəyyən istifadəçilərin oxumasına icazə verilir. Nəticədə sadəcə giriş hüququ olan istifadəçilər məlumatlardan istifadə edə bilir. Sistemlərin təhlükəsizliyini təmin etmək üçün müntəzəm olaraq monitorinq aparılmalıdır. Rəqəmli kommutasiya sistemləri müəəyən təhlükəsizlik standartlarına cavab verməlidir [5].

Qeyd edilən hər bir prinsip rəqəmli kommutasiya sistemlərinin proqram təminatında önəmli rola malikdir və rəqəmli kommutasiya sistemlərinin proqram təminatını daha təhlükəsiz eyni zamanda çevik edir. Bu prinsiplərin hər biri mütləq balanslı şəkildə tətbiq edilməlidir.

## ƏDƏBİYYAT

1. Davis, B. A. (2018). Digital switching: Principles and practice. Springer
2. Smith, J. (2020). Software engineering for telecommunications. Wiley.
3. Patel, R. K. (2021). Standards and protocols in telecommunications. McGraw-Hill.
4. Chen, T. L. (2019). Optimizing performance in digital communication systems. Elsevier.
5. Johnson, M.R. (2020). Security protocols in telecommunications. Pearson.

# İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNDƏ ÇOXFAKTORLU AUTENTİFİKASİYNIN TƏHLİLİ VƏ İNTELLEKTUAL STRUKTURU

***Şükürov Qurban Azad oğlu***
***Lənkəran Dövlət Universitetinin magistrantı***
*qurbansukurov040@gmail.com*

İnformasiya təhlükəsizliyi informasiya texnologiyalarının inkişafının mühüm tərkib hissəsidir. Çox faktorlu autentifikasiya effektiv təhlükəsizlik mühafizəsi üsulu kimi sistemin təhlükəsizliyini əhəmiyyətli dərəcədə yaxşılaşdıra və tək şəxsiyyətin yoxlanılması riskini azalda bilər. Bununla belə, ənənəvi çoxfaktorlu autentifikasiyanın rahatlıq və təhlükəsizlik arasında uyğunluğu var və sürətlə dəyişən şəbəkə mühitinə və istifadəçi ehtiyaclarına uyğunlaşmaq üçün davamlı olaraq optimallaşdırılmalıdır. Bu tezis informasiya təhlükəsizliyində çoxfaktorlu autentifikasiya mexanizminin tədqiqinə diqqət yetirir, onun strukturunu, tətbiq vəziyyətini və mövcud problemləri müzakirə edir və praktik tətbiqlərdə effektivliyini artırmaq üçün bir neçə optimallaşdırma strategiyası təklif edir.

**Çox faktorlu autentifikasiya** autentifikasiyanın təhlükəsizliyini artırmaq üçün istifadəçilərdən giriş prosesi zamanı iki və ya daha çox autentifikasiya faktoru təqdim etmələrini tələb edən təhlükəsizlik tədbiridir [1].

Çox faktorlu autentifikasiyanın məqsədi istifadəçinin parolu oğurlansa belə, hesabın təhlükəsiz qalmasını təmin etməkdir [2]. Bu autentifikasiya metoduna adətən aşağıdakı amillər daxildir:

**Bilik faktoru:** Bu, istifadəçi adı, parol və ya PİN kimi istifadəçinin bilməli olduğu məlumatdır.

**Sahiblik faktoru:** Bu, adətən mobil telefon və ya hardware nişanı kimi istifadəçiyə məxsus fiziki cihazdır. Məsələn, bir çox banklar giriş prosesinin bir hissəsi kimi istifadəçinin mobil telefonuna birdəfəlik parol göndərəcək.

**Biometrik amillər:** Bu, istifadəçinin barmaq izləri və ya üz tanıma kimi biometrik xüsusiyyətlərini əhatə edir. Bunlar adətən barmaq izi skanerləri və ya kameralar kimi xüsusi cihazlar vasitəsilə yoxlanılır. Ümumiyyətlə, çoxfaktorlu autentifikasiya tək paroldan daha güclü təhlükəsizlik təmin edir. Haker istifadəçinin parolunu əldə etsə belə, hesaba daxil olmaq üçün onlara ikinci identifikasiya qatına ehtiyac olacaq. Buna görə də, birinci təhlükəsizlik təbəqəsi pozulsa belə, digər təhlükəsizlik təbəqələri hələ də hesabı kompromisdən qoruya bilər. Çox faktorlu autentifikasiya ilə əlaqəli iki oxşar termin "**iki faktorlu autentifikasiya** "və" **iki addımlı autentifikasiya**" dır .

Bu sözlər çox oxşardır, lakin onların məzmunu tamamilə fərqlidir. İki faktorlu autentifikasiya və iki addımlı autentifikasiya təhlükəsizliyi yaxşılaşdırmaq üçün bir neçə üsuldan istifadə edir, lakin onlar arasında çoxlu fərqlər var.

Əvvəlcə hər ikisinin xüsusiyyətlərini sıralayaq.

**İki faktorlu autentifikasiya** Bilik məlumatı, sahiblik məlumatı və biometrik məlumatın kombinasiyası eyni vaxtda istifadə olunur. (Nümunə) Parollar və autentifikasiya proqramları və s. [2].

**İki addımlı autentifikasiya**

Çoxsaylı məlumat parçaları istifadə olunur, lakin ümumiyyətlə "bilik məlumatı" və "sahibi məlumat" istifadə olunur. Ardıcıl olaraq iki elementdən istifadə edilir. (Nümunə) Əvvəlcə parolu daxil edin, sonra işarə kodunu daxil edin və s.

**İki faktorlu autentifikasiya** tez-tez biometrik məlumatlarla birlikdə istifadə edildiyi üçün daha yüksək təhlükəsizlik səviyyəsinə malik olsa da, **iki addımlı autentifikasiya** həm də istifadə rahatlığı və təhlükəsizlik təklif etdiyi üçün geniş istifadə olunur.

**Niyə iki faktorlu autentifikasiya?**

İki faktorlu autentifikasiya və iki addımlı autentifikasiya təhlükəsizliyi artırmaq üçün faydalı üsullardır.

Bununla belə, əslində **iki faktorlu autentifikasiyanın** daha yaxşı olmasının səbəbləri var [3].

1.**Qabaqcıl təhlükəsizlik**

İki addımlı autentifikasiyadan fərqli olaraq, identifikasiya üçün eyni vaxtda bir neçə amil tələb olunur ki, bu da kiberhücumlardan keçməyi çətinləşdirir [4].

2.**Yüksək çevik və rahat seçimlər.**

Smartfonlar və biometrika kimi müxtəlif amillər autentifikasiya üçün istifadə oluna bilər ki, bu da bizə seçimlərimizə və vəziyyətlərimizə uyğun autentifikasiya sistemi yaratmağa imkan verir.

3.**Gələcək texnoloji təkamülə sürətli reaksiya**

Struktur müxtəlif yeni autentifikasiya amillərinin nisbətən asan əlavə edilməsinə imkan verir və autentifikasiya texnologiyasının gələcək təkamülünə cavab verməyi asanlaşdırır [3].

Bu şəkildə, iki faktorlu autentifikasiya iki addımlı autentifikasiya ilə müqayisədə müxtəlif üstünlüklərə malikdir və bu onu biznes və istifadəçilər üçün yaxşı seçim edir.

Çox faktorlu autentifikasiyanın səmərəli istifadə oluna biləcəyi hallara nəzər salaq.

Çox faktorlu autentifikasiyanın təsirli olduğu hallara aşağıdakılar daxildir və bu **effektiv təhlükəsizlik tədbiridir**

Onlayn xidmətlər üçün hesabın qorunması

Korporativ şəbəkələrə təhlükəsiz giriş və s

Bulud xidmətlərindən istifadə

VPN-dən istifadə

Şəxsi məlumatların və məxfilik məlumatlarının idarə edilməsi-onlayn ödəniş. və s.

Çox faktorlu autentifikasiyanın tətbiqinin **üstünlükləri** və **mənfi** cəhətləri

Bir çox başqa vəziyyətlər olsa da, ənənəvi metodlardan daha yüksək təhlükəsizlik səviyyəsinin tələb olunduğu hallarda çox faktorlu autentifikasiya son dərəcə təsirli olur.

Çox faktorlu autentifikasiyanın **üstünlüklərinə** aşağıdakılar daxildir:

1.Çoxsaylı autentifikasiya faktorlarından istifadə etməklə təhlükəsizliyin artırılması

2.Müxtəlif elementləri birləşdirmək üçün çevikliyə nail olmaq

3.Nisbətən aşağı qiymətə təqdim edilə bilən yüksək qiymətli performans

Çox faktorlu autentifikasiyanın **çatışmazlıqlarına** aşağıdakılar daxildir:

1.Tək, sadə autentifikasiya əvəzinə tələb olunan əlavə addımlar səbəbindən istifadə imkanlarının azalması.

2.İcra və idarəetmənin mürəkkəbliyi

3.SMS-ə göndərilən kodların tutulması kimi risklər

4.Ənənəvi üsullardan fərqli olduğu üçün istifadəçi təhsili tələb olunur

**İntellektual Strukturu**

Çox faktorlu autentifikasiya sistemlərinin intellektual strukturu müasir texnologiyalar və süni intellekt metodlarının köməyi ilə daha da gücləndirilir:

1. **Davranış analizi:** İntellektual sistemlər istifadəçi davranışlarını izləyir və normadan kənar hərəkətləri təyin edir. Məsələn, qeyri-adi cihaz və ya coğrafi mövqedən giriş cəhdlərini müəyyənləşdirir və əlavə təhlükəsizlik tədbirləri görür.

2. **Maşın öyrənməsi:** Çox faktorlu autentifikasiya sistemləri maşın öyrənməsi alqoritmlərindən istifadə edərək təhlükəli giriş cəhdlərini proqnozlaşdırmağa kömək edir. Davranışların zamanla öyrənilməsi ilə təhlükəsizlik sistemləri adaptiv şəkildə güclənir [5].

3. **Risk əsaslı autentifikasiya:** Risk əsaslı yanaşma hər giriş cəhdini dinamik olaraq qiymətləndirir. Məsələn, istifadəçi normal şəbəkədən fərqli bir şəbəkədən daxil olmaq istədikdə, sistem əlavə autentifikasiya tələb edə bilər.

4. **Adaptiv çox faktorlu autentifikasiya sistemləri:** İntellektual sistemlər istifadəçinin profilinə və risk səviyyəsinə uyğun olaraq dinamik autentifikasiya tələb edir. Beləliklə, daha təhlükəsiz şəraitdə istifadəçilər daha az autentifikasiya addımları ilə daxil ola bilər.

Çox faktorlu autentifikasiyanın intellektual strukturu ilə təhlili həm sistemlərin təhlükəsizliyini, həm də istifadəçi təcrübəsini optimallaşdırmağa yönəlib. Bu yanaşma ilə məlumatların qorunması

sahəsində daha təhlükəsiz və çevik sistemlər formalaşdırmaq mümkündür.

### ƏDƏBİYYAT

1.Brooks, C. J., Grow, C., & Craig, P. Cybersecurity Essentials. Wiley. 2018
2. Multi-Factor Authentication: A Survey and Challenges in V2X Applications. 2024
3. Why Two-Factor Authentication Is Necessary In 2024
4.Multi-Factor Authentication (MFA) Statistics You Need To Know In 2024
5. Machine Learning for Cybersecurity: Principles and Applications. 2022

## OBRAZLARIN TANINMASI MƏSƏLƏSİNİN MODELLƏRİ VƏ ALQORİTMLƏRİ ÜZƏRİNDƏ KORREKT CƏBR

***Eyvazzadə Kənan Nurməmməd oğlu***
***Lənkəran Dövlət Universitetinin magistrantı***
*eyvazzadekenan@gmail.com*

Rəqəmsal texnologiyanın sürətlə inkişaf elədiyi müasir dövrdə, obrazların tanınması sahəsi geniş və mürəkkəb bir tədqiqat istiqamətinə çevrilmişdir. Bu texnologiya, kompüterlərin və digər avtomatik sistemlərin vizual məlumatları insanlar kimi emal etməsini və onları başa düşməsini təmin edir. Obraz tanıma yalnız üz tanıma və obyektlərin aşkarlanması kimi gündəlik texnologiyalarla məhdudlaşmır; həm də  tibbi diaqnostika, nəqliyyat sistemləri və təhlükəsizlik sahələrində də geniş istifadə olunur. Bu texnologiyanın əsasını təşkil edən  modellər və alqoritmlər, görüntülərdəki strukturları, obyektləri və əlaqələri tanımaq üçün böyük həcmli məlumatlarla işləyir və ciddi riyazi əsaslara söykənir.

Görüntülərin doğru  tanınması və təsnif edilməsi prosesində mürəkkəb riyazi strukturlar və hesablama modelləri istifadə olu-

nur. Məhz bu məqamda **korrekt cəbr** anlayışı ön plana çıxır. **Korrekt cəbr**, obraz tanıma məsələlərinin riyazi olaraq düzgün və optimal həlli üçün lazım olan alqoritm və modelləri əhatə edir. Riyazi yanaşmaların düzgün seçilməsi və onların alqoritmlərə tətbiqi, obrazların dəqiq tanınması prosesinin əsas hissəsini təşkil edir.

Obrazların tanınması məsələsinin modelləri və alqoritmləri üzərində **korrekt cəbr** müasir dövrdə bir çox kritik sahədə lazım və əhəmiyyətlidir. Bu sahələrə süni intellekt, maşın öyrənmə, səhiyyə, avtomobil sənayesi, təhlükəsizlik sistemləri və daha çoxu daxildir. Aşağıda bu metodların nəyə görə vacib olduğunu geniş şəkildə izah edəcəm:

**1. Sabitlik və Dəqiqlik**

Obraz tanıma modellərində və alqoritmlərində korrekt cəbr riyazi zəmanətlər verir ki, bu da modellərin **sabit və etibarlı** işləməsini təmin edir. Məsələn:

- **Sürücüsüz avtomobillər**: Avtomatik sürüş sistemlərində obraz tanıma obyektləri, piyadaları və yol nişanlarını doğru tanımalıdır. Korrekt cəbr bu sistemlərin **etibarlı** və **sabit** olmasını təmin edir, bu da qəzalardan qaçmaq üçün olduqca vacibdir.
- **Tibbi görüntü analizi**: Rentgen, MRI kimi tibbi görüntülərin analizi xəstələrin doğru diaqnozu üçün kritikdir. Obraz tanıma modellərinin nəticələrinin doğru olması, səhvlərin minimum olması üçün korrekt cəbr metodlarından istifadə edilir.

**2. Alqoritmlərin Optimizasiyası**

Korrekt cəbr metodları alqoritmlərin **optimallaşdırılması** üçün vacibdir. Müasir obraz tanıma sistemləri böyük həcmli məlumatları emal edir və sürətli nəticə çıxarmaq üçün optimallaşdırmaya ehtiyac var. Bu metodlarla:

- Modellərin **konvergensiya sürəti** artırılır.
- Xətaların **minimumlaşması** təmin edilir.
- Resurs istifadəsi optimallaşdırılır, bu da böyük məlumat dəstlərinin tez və effektiv emalını təşkil edir.

Obrazların tanınması (image recognition) məsələsi kompüter görməsi sahəsində mühim bir problemdir. Bu problemin həlli

üçün müxtəlif modellər və alqoritmlər işlənib hazırlanmışdır. Bu sahədə korrekt cəbr (correct algebra) tətbiqi isə riyazi metodlar və riyazi zəmanətlərin təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Korrekt cəbr dedikdə, çox vaxt formal sistemlər və riyazi zəmanətlər nəzərdə tutulur. Bu zəmanətlər modelin düzgün işləməsi, təlim prosesi və son nəticələrin doğruluğunun müəyyən edilməsi üçün vacibdir.

Obrazların tanınması üçün istifadə olunan ən məhşur modellər:

1. Konvolyusiyalı Neyron Şəbəkələri (Convolutional Neural Networks, CNN)

KNŞ-lər obrazların tanınmasında ən geniş istifadə olunan modellərdir. Bu modellər müxtəlif qatlarda (convolution layers) şəkilin xüsusiyyətlərini (edges, textures, shapes) öyrənərək, obyektləri tanıyır.

- Korrekt cəbr yanaşması: KNŞ-lərin riyazi modeli dərin öyrənmə alqoritmləri vasitəsilə optimallaşdırılır. Bu optimallaşdırma, gradient eniş metodu (gradient descent) və digər optimallaşdırma alqoritmləri ilə həyata keçirilir.

2. Qraf Şəbəkələri (Graph Neural Networks, GNN)

Qraf şəbəkələri obyektlərin əlaqələrini qraf strukturlarında təsvir edir. Bu, xüsusən də bir-biri ilə əlaqəli olan obyektlərin tanınması üçün istifadə edilir.

- Korrekt cəbr yanaşması: Qraf şəbəkələrində riyazi zəmanətlər qraf alqoritmləri ilə verilir. Bura spektral cəbr və qraf harmonik analiz metodları aid bilər.

3. Dəstək Vektor Maşını (Support Vector Machines, SVM)

DVM-lər klassifikasiya məsələləri üçün geniş istifadə olunan metodlardan biridir. Onlar verilmiş məlumatların ən yaxşı ayıran xəttini taparaq, verilənləri müxtəlif siniflərə ayırır.

- Korrekt cəbr yanaşması: DVM-lər qabarıq optimallaşdırma problemlərinə əsaslanır. Cəbr metodu burada funksiyanın minimizasiyası və hədlərin doğruluğunu təmin etmək üçün tətbiq edilir.

4. Dərin Neyron Şəbəkələri (Deep Neural Networks, DNN)

DNŞ-lər çox qatlı şəbəkələrdən ibarət olub, dərin öyrənmə alqoritmləri ilə böyük məlumat kütlələrində təlim keçir. Bu modellər də obrazların tanınması məsələsində geniş istifadə olunur.

- Korrekt cəbr yanaşması: Bu modellərin korrektliyi geri yayılma alqoritmi (backpropagation) vasitəsilə təlimin doğru həyata keçirilməsində təmin edilir.

5. K-means və Qruplaşdırma (Clustering) Alqoritmləri

Bu alqoritmlər məlumatları siniflərə ayırmaq üçün istifadə olunur. Obraz tanıma sistemlərində təsvirlərdəki obyektləri müxtəlif qruplara ayırmaqla müəyyən edilə bilər.

- Korrekt cəbr yanaşması: K-means alqoritmi, qruplaşdırma məsələsini həll etmək üçün təkrarlanan metodlardan istifadə edir və bu zaman qabarıq optimallaşdırma məsələləri həll olunur.

Korrekt cəbrin məqsədi bu modellərin təlim və proqnoz vermə mərhələlərində sabit və etibarlı nəticələrə zəmanət verməkdir. Bu yanaşmada modellərin öyrənmə prosesinin konvergensiyası (nəticəyə yaxınlaşma), dəqiqliyi və sabitliyi ilə bağlı zəmanətlər formal riyazi cəbr metodları ilə təmin edilir. Bu metodlar, adətən, funksiyaların optimallaşdırılması və differensial cəbrin tətbiqləri ilə sıx əlaqəlidir.

**Nəticə.** Bu mənbələr obrazların tanınması məsələlərində istifadə olunan modellərin, o cümlədən konvolyusiyalı neyron şəbəkələrinin (CNN), dəstək vektor maşınlarının (SVM) və dərin öyrənmə alqoritmlərinin korrekt işləməsini təmin edən **korrekt cəbr** yanaşmalarını geniş şəkildə izah edir. Korrekt cəbr obraz tanıma alqoritmlərinin sabitliyi, konvergensiyası və dəqiqliyi kimi əsas məsələlərə zəmanət verir, bu da riyazi baxımdan dəqiq və etibarlı modellərin qurulmasına kömək edir.

## ƏDƏBİYYAT

1. A Comprehensive Review of Convolutional Neural Networks: Toward the Optimization of Image Recognition." Zhang, Z., & Wu, Q. (2020).

2. "A Survey of Convolutional Neural Networks: Analysis, Applications, and Prospects." Li, Z., Liu, F., Yang, W., Peng, S., & Zhou, J. (2021)
3. "A Comprehensive Survey on Robustness of Deep Learning-Based Object Detection Algorithms." He, H., Zhang, S., & Sun, J. (2020)
4. "A Fast Convergence Method for Image Classification Using Support Vector Machines and Its Application to Large Datasets. Fan, R., & Lin, C. (2021)

## BİLİKLƏRİN EKSPERT SİSTEMLƏRİNDƏ TƏQDİMATI

***Şabanova Ruqiyyə Eldəniz qızı***
***Lənkəran Dövlət Universitetinin magistrantı***
***Elmi rəhbər : t.ü.f.doktoru V.X.Muradova***
*ruqiyyanazarova00@gmail.com*

Süni intellekt (Artificial Intelligence-AI) sistemləri müasir dövrümüzün ən əhəmiyyətli və sürətlə inkişaf edən sahələrindəndir. Süni intellektin tətbiqinin mühüm istiqamətlərindən biri də ekspert sistemlərdir. Bu sistemlər mütəxəssis biliklərini toplayaraq, qərar qəbuletmə proseslərini modelləşdirmə imkanlarına malikdir. Ekspert sistemlərin bu imkanları onların geniş tətbiq sahəsinə malik olmasına şərait yaratmışdır. Ekspert sistemlərin tətbiq sahələrinə aşağıdakılar aiddir: [1] [2].

1. *Tibb* - Tibbi müayinələr və diaqnostika
2. *İqtisadiyyat* - Maliyyə analizi və proqnozlaşdırma
3. *Təhsil* - Fərdiləşdirilmiş öyrənmə
4. *Sənaye* - Proseslərin optimallaşdırılması və avtomatlaşdırılması

Ekspert sistemlərin əsas funksional cəhəti biliklərin düzgün və effektiv şəkildə təqdimatına əsaslanır. Biliklərin ekspert sistemlərində təqdimatı sistemin düzgün məntiqi çıxarışlar etməsi və doğru qərarlar qəbul etməsi üçün mühüm şərtdir. Ekspert sistemlərində biliklərin təqdimatı üçün müxtəlif üsullardan istifadə olunur. Müxtəlif təqdimat üsulları biliklərin fərqli formalarda və

strukturlarda təqdim olunmasına şərait yaratmaqla , ekspert sistemlərin effektivliyini artırır. Bu metodlara *qayda əsaslı bilik təqdimatı, semantik şəbəkələr, frame-lər və ontologiyalar, qeyri-müəyyənlik və qeyri-dəqiqliklərin idarə edilməsi (fuzzy logic) və.s* aid edilir [2] [3].

1. *Qayda əsaslı bilik təqdimatı* – Bu təqdimat modeli ənənəvi ekspert sistemlərində ən geniş yayılmış bilik təqdimat üsuludur. Bu metodda biliklər "Əgər ... onda ..." formatında qaydalar şəklində təsvir olunur. Qaydaların istifadəsi sadə və tətbiq miqyası genişdir. Lakin qaydaların çoxlu miqdarda olması halında sistemin idarə edilməsində çətinliklər yarana bilər. Bununla yanaşı, qayda əsaslı sistemlər səhiyyə, hüquq və maliyyə sistemlərində geniş istifadə olunur [4].

2. *Semantik şəbəkələr* – Semantik şəbəkələr bilikləri obyektlər və onlar arasındakı əlaqələr formasında təqdim etməyə imkan verir. Bu bilik təqdimatının əsas üstünlüyü biliklər arasındakı əlaqələrin qrafik formada vizuallaşdırılması imkanlarının olmasıdır. Semantik şəbəkələrdə əlaqələr qövslər kimi, obyektlər isə düyünlər kimi təsvir edilir. Biliklərin semnatik şəbəkələr vasitəsilə təqdimatı zamanı mürəkkəb olan bilik strukturları daha aydın formada təqdim və düzgün əlaqələr şəklində təhlil olunur.Semantik şəbəkələrdən dillə bağlı tədqiqatlarda və informasiya texnologiyalarında geniş tətbiq imkanına malikdir [4].

3. *Frame-lər və ontologiyalar* – Frame-lər obyektlərin strukturlaşdırılması və onların xüsusiyyətlərinin təsviri üçün istifadə olunan bilik təqdimatı metodudur. Frame-lər obyektlər haqqında məlumatların müəyyən olunmuş struktura uyğun saxlanılması və idarə edilməsini asanlaşdıran üsuldur. Ontologiyalar frame-lərə nisbətən daha geniş anlayışdır. Biliklərin ontologiya ilə təqdimatı zamanı obyektlər, onların xüsusiyyətləri və əlaqələri haqqında daha dərin təsvirlər verilir. Ontologiyalar vasitəsilə biliklər daha anlaşıqlı və sistemli şəkildə təqdim olunur ki, bu da tədqiqatçıların və digər elm adamlarının işini asanlaşdırır [5].

*4. Qeyri-müəyyənlik və qeyri-dəqiqliklərin idarə edilməsi* – Realda biliklər hər zaman tam və dəqiq olmur. Buna görə ekspert

sistemlər qeyri-dəqiq və qeyri-müəyyən biliklərlə işləməyi bacarmalıdır. Ehtimal nəzəriyyəsi və fuzzy logic kimi metodlar bu problemi həll etmək üçün istifadə olunur. Ehtimal nəzəriyyəsi müəyyən ehtimallarla nəticələr çıxarmağa imkan verir, fuzzy logic isə qeyri-müəyyənlikləri "boşluqlu" qaydalar əsasında idarə edir. Bu metodların hər biri biliklərin təqdimatı və nəticə çıxarma prosesində çevikliyi artırır [6].

Biliklərin ekspert sistemlərində effektiv şəkildə təqdim olunması bu sistemlərin işinə birbaşa təsir edən əsas amillərdən biridir. Bu amil də biliklərin təqdim olunması üçün uyğun metod və modellərin seçilməsini vacib edir. Qayda əsaslı bilik təqdimatı, semantik şəbəkələr, framelər və ontologiyalar, qeyri-müəyyənlik və qeyri dəqiqliklərin idarə edilməsi kimi yanaşmalar, müasir ekspert sistemlərin inkişafı və optimallaşdırılmasında geniş istifadə olunur [5] [6].

Bu tezisdə, biliklərin təqdimatının müxtəlif üsulları və onların tətbiq sahələri nəzərdən keçirilmişdir. Gələcəkdə bu yanaşmaların birləşdirilməsi və daha dinamik modellərin inkişafı üçün yeni tədqiqat istiqamətləri müəyyənləşdirilməlidir.

## ƏDƏBİYYAT

1. Russel, S., & Norvig, P. (2021). Artificial intelligence: A Modern Approach. Pearson.
2. Durkin, J. (1994). Expert Systems: Design and Development. Macmillan Publishing.
3. Jackson, P. (1999). Introduction and to Expert Systems. Addison-Wesley.
4. Giarratano, J., & Riley, G. (2005). Expert Systems: Principles and Programming. Thomson Course Technology.
5. Noy, N. F., & McGuinness, D. L. (2001). Ontology Development 101: A Guide to Creating Your First Ontology. Standford Knowledge Systems Laboratory.
6. Kosko, B. (1992). Neural Networks and Fuzzy Systems: A Dynamical Systems Approach to Machine Intelligence. Prentice Hall.

# BİG DATANIN ELMİ NƏZƏRİ PROBLEMLƏRİ

***Kazımova Günel İsmayıl qızı***
***Lənkəran Dövlət Universitetinin magistrı***
*kazimova2017@gmail.com*

Son dövrdə informasiyaya əlyetərliyin asanlaşması və kommunikasiya vasitələrinin çoxalması nəticəsində hər il rəqəmsal informasiyanın həcmi böyuk həcmdə artmağa başlamışdır. IDC (ing. International Data Corporation) analitik şirkətinin məlumatına görə, dünyada yaradılmış və replikasiya olunmuş informasiyanın həcminin təxminən 7,5 zetabayta bərabər olması,informasiyanın 90%-dən çox hissəsini strukturlaşdırılmamış verilənlərin (foto,video,mp3 faylları,sosial media faylları və s.) təşkil etdiyi bildirilir, 2020-ci ildə dünyada rəqəmsal informasiyanın həcminin 44 zetabayta çatması haqqında proqnoz verilmişdir [1]. Big data ənənəvi məlumat emalı sistemlər tərəfindən işlənməsi çətin olan böyuk həcmlərdə yüksək sürətlə və müxtəlif formatlarda olan məlumatları əhatə edir. Əsas xususiyyətləri məlumat növləri,emal sürəti və miqyasıdır. Big data on əsas ölçudə (10V modeli) təsvir olunur şəkil 1.




Şəkil 1. Big Data 10 V modeli

Həcm ilk növbədə saxlama problemi yaradır ki, bu da geniş-miqyaslı saxlanma və paylanmış emal tələb edir. İnformasiyanın həcmi həndəsi silsilə şəklində artdığı üçün onun etibarlı saxlanılması, təhlükəsizliyinin təmini, idarə olunması və ona operativ müraciətin təşkili hər bir təşkilatın qarşılaşdığı problemdir. BV elmi-tədqiqat, idarəetmə və biznes proseslərə böyük təsir göstərmiş və onun saxlanması üçün qənaətbəxş texnologiyaların tətbiqi problemlərinin həlli mütəxəssislərin diqqətini cəlb etmişdir. Relyasion verilənlər bazaları (RVB) uzun illər ərzində strukturlaşdırılmış verilənlərin saxlanılması və əldə edilməsi nöqteyi-nəzərindən çox səmərəli idi. Ancaq strukturlaşdırılmış verilənlərdən strukturlaşdırılmamış verilənlərə keçid tendensiyası ilə əlaqədar olaraq ənənəvi RVB BV-nin saxlanması üçün əlverişli hesab olunmur. RVB-nin bu uyğunsuzluğu effektiv paylanmış saxlama mexanizmlərinin yaradılmasını zəruri etmişdir [2].

Big Data analizi, müasir dövrdə təşkilatların strateji qərarlarını yerinə yetirmək üçün kritik bir sahədir. Bu sahənin analizi zamanı qarşılaşılan problemlər, yalnız texniki çətinliklərlə məhdudlaşmır, həm də təşkilati, etik və insan faktorları ilə bağlıdır. Aşağıda bu problemləri daha dərindən izah etmək olar

*1.Məlumatın keyfiyyəti*

Məlumatın keyfiyyəti analizin doğruluğu üçüm mühüm rol oynayır.Məlumatın tamlığı doğruluğu nəzərə alınmalıdır.Natamam və doğru olmayan məlumatlar analizin nəticəsinə ciddi şəkildə dəyişdirə bilər və məlumatın mənbəsindən asılı olaraq etibarlılıq dərəcəsi dəyişə bilir.Buna görə məlumatın toplanması saxlanması və işlənməsi mərhələlərində keyfiyyətin təmin edilməsi üçün sistemik yanaşmalar tətbiq olunmalıdı.

*2.Məlumat Təhlükəsizliyi*

Big Datanın işlənməsi,məlumatın təhlükəszliyi ilı bağlı problemlər yaradır.Şəxsi məlumatların qorunması,yayılması və hüquqi tələblər müəssisələr üçün problem yarada bilir.Məlumatın toplanması və analizivaxtı təhlükəsizlik protokollarının tətbiqi,həmçinin məlumatların şifrələnməsi vacibdir.Məlumatların qorunmasını təmin etmək üçün müəssisələr bir çox proseslər həyata keçir-

məlidirlər,təhlükəsizlik yoxlamaları aparmalı və məlumatların necə işləndiyini izləməlidir

*3. Sürət və Performans*

Real vaxtda analizin həyata keçirilməsi sürət tələb edir.Məlumatın həcmi artamda onun emalı və analizi üçün lazım olan resurslarda artır.Hesablama gücü və şəbəkə bant genişliyi,analizin sürətinə təsir edən iki əsas amildir.Bu problemləri həll etmək üçün paralel emal,bulud hesablama və dağıtılmış sistemlər kimi texnologiyalardan istifadə olunmalıdır.

*4. Məlumat müxtəlifliyi*

Big Data müxtəlif formatlarda və növlərdə məlumatları əhatə edir.Strukturlaşdırılmış,yarı strukturlaşdırılmış və məlustrukturlaşdırılmamış məlumatların inteqrasiyası və analizi,mürəkkəbliyi artırır.Bu problemlərin həlli üçün məlumatların müxtəlifliyini başa düşmək və düzgün emal edəcək alətlər seçmək vacibdir.

*5. Bilik və bacarıq əksikliyi*

Big Data analizi üçün mütəxəssis kadrların yetərsizliyi,müəssisələrin bu sahədəki fəaliyyətini məhdudlaşdırır.Data analitikləri maşın öyrənməsi mühəndisləri və data mütəxəssisləri kimi spesifik peşə sahiblərinə olan tələb sürətlə artır.Mütəxəsislər bu sahədə tələb olunan təcrübəli işçilər tapmaqda çətinlik çəkir.Müəssisələr buna görədə işçilərin təlimi və inkişafı üçüm investesiya qoyulmalı,təhsil müəssisələri yeni mütəxəssislər yetişdirməyə maraqlı olmalıdırlar.

*6.Analiz Alətləri və Texnologiyaları*

Bazarda Big Data analizi alətləri müxtəlifdir.Hadoop, Spark, Tableau kimi alətlər seçimində müəssisələrin ehtiyaclarına və resurslarına uyğun qərar verməlidirlər.Yanlış alət seçimi analiz prosesini gecikdirə və ya yanlış nəticələrə çıxara bilər.Buna görədə lazımi alətlərin seçilməsi,onların inteqrasiya olunması və işçilərin bu alətlər üzrə məlumatlandırılması vacibdir [3].

Həll təklifləri

Məlumat idarəetmə sistemləri:Keyfiyyətin artırılması üçün sistemik məlumat idarəetmə strategiyaları inkişaf etdirmək

Təhlükəsizlik Protokolları:Verilənlərin qorunmasını təşkil etmək üçün yüksək səviyyəli təhlükəsizlik siyasəti aparmaq.

Mütəxəssis Təlimləri:İşçilərə müntəzəm olaraq Big Data üzrə təlimlər,seminarlar vermək

Analiz Alətləri ilə tanışlıq:müxtəlif analiz alətləri seçmək.

Big Data analizi sahəsindəki bu problemləri həll etmək,müəssisələrin məlimatlarından daha səmərəli istifadəsinə və strateji qərarlarını daha düzgün verməsinə imkan tanıyır.

Uğurlu Big Data strategiyası müəssisələrin rəqabətin qabiliyətini artırmaq üçün mühümdur.

## ƏDƏBİYYAT


1.Əliquliyev R.M., Hacırəhimova M.Ş. ‘Big Data ‘ fenomeni :problemlər və imkanlar

2. Stonebraker.M., Cetintemel.U (2010) One Size Fits ALL “An İdea Whose Time Has Come and Gone

3.Provost.F., Fawcett.T “Data Science for Business “


# İNFORMASİYA SİSTEMİNİN ARXİTEKTURASININ STRUKTURU


***Şiriyeva Elvira Nəsib qızı***

***Lənkəran Dövlət Universitetinin magistrantı***

*elvirasiriyeva19@gmail.com*


İnformasiya sistemlərinin arxitekturası, müəssisələrin fəaliyyətini dəstəkləyən və optimallaşdıran mühüm elementlerden biridi. Müasir mühasibat uçotu informasiya sistemləri daha cox süretli, təhlükəsiz və bulud əsaslı həllərə əsaslandırmaq olar. Lənkəran Dövlət Universitetinin mühasibat uçotunun informasiya alt sisteminin kompüter modelinin qurulması üçün arxitekturanın strukturuna dair ümumi çərçivə müasir standartlara cavab verməsi vacibdir.

1. Arxitekturanın Əsas Komponentləri

Müasir informasiya sisteminin arxitekturası bir neçə mühüm komponentdən ibarətdir bunlar aşağıdakılar aid edilir.

İstifadəçi interfeysi: İstifadəçilərə intuitiv və asan idarə olunan interfeyslər təqdim edilməlidir. Bu interfeyslər mühasibat əməliyyatlarının səmərəli idarə olunmasını təmin edir. Bu sahədə son araşdırmalar göstərir ki, istifadəçi dostu interfeyslər maliyyə idarəetməsində iş axınını xeyli optimallaşdırmasina kömək ola bilər. (Khosrow-Pour, 2021).

Tətbiq proqramları: Müasir mühasibat uçotu proqram təminatları, xüsusilə əməkdaşlıq resurslarının idarə edilməsi sistemləri, müəssisələrin bütün mühasibat və maliyyə əməliyyatlarını bir platforma üzərində birləşdirmesine köməkliy edir. Bu yanaşma iş proseslərinin avtomatlaşdırılmasına və insan səhvlərinin azalmasına imkan verir. (Schwalbe, 2019).

Məlumat bazası: Məlumat bazası arxitekturası mühasibat uçotunda dəqiqlik və təhlükəsizlik baxımından böyük əhəmiyyətli rolu var. Verilənlər bazası modelləri ilə mühasibat əməliyyatlarının təhlili və maliyyə axınlarının izlənməsi daha effektiv şəkildə təmin edilə bilər. Xüsusilə, NoSQL məlumat bazalarının tətbiqi məlumatların sürətli və geniş miqyaslı işlənməsinə şərait yaradır. (Sharma & Jain, 2018).

Şəbəkə və Bulud əsaslı xidmətlər: İnformasiya sisteminin bulud əsaslı arxitektura modelinin seçilməsi, məlumatlara uzaqdan giriş və təhlükəsizliyin təmin olunmasına yardım edir. Bulud əsaslı ERP sistemləri təşkilatların məlumatları daha asanlıqla emal etməsini və saxlama xərclərinin azaldılmasında böyük rol oynayır. (Chang, 2018).

Texniki təminat (Hardware): Yüksək performanslı serverlər və təhlükəsizliyi təmin edən hardware komponentlərinin seçilməsi, sistemin davamlılığını və məlumatların təhlükəsizliyini yerinə yetirir. (Rittinghouse & Ransome, 2017).

2. Arxitektura Modeli

Müasir mühasibat informasiya sistemləri üçün çoxqatlı arxitektura modeli daha cox istifadə olunur. Bu model mühasibat əməliyyatlarının daha çevik və miqyaslanabilən olmasını icra

edir. Lənkəran Dövlət Universitetinin mühasibat uçotu sistemi üçün üç səviyyəli model aşağıdakı strukturları aid etmək olar:

1. Müştəri səviyyəsi: İstifadəçilərin sistemə daxil olduğu səviyyədir və istifadəçilər buradan interfeys vasitəsilə məlumatlara girişi təmin edir.

2. Tətbiq səviyyəsi: Mühasibat əməliyyatları və maliyyə analizlərinin həyata keçirildiyi əsas səviyyəsi demək olar.

3. Məlumat bazası səviyyəsi: Məlumatların saxlanıldığı və emal edildiyi səviyyədir. Bu səviyyədəki təhlükəsizlik tədbirləri, məlumatların məxfiliyini təmin etmək üçün ciddi əhəmiyyət daşıyır. (Stair & Reynolds, 2018).

3. Yenilik və Nəticə

Lənkəran Dövlət Universitetinin mühasibat uçotunun informasiya alt sisteminin kompüterləşdirilməsi və çoxqatlı arxitektura modelinə əsaslanması işlərin səmərəliliyini çoxaldacaqdır. Bulud əsaslı xidmətlər və çevik məlumat bazası texnologiyalarının tətbiqi nəticəsində mühasibat məlumatlarının dəqiqliyi və etibarlılığı yerinə yetirəcəkdir. Bu sistem müasir universitet idarəetməsi üçün vacib olan şəffaflığı və hesabatlılığı coxaldacaqdır. Həmçinin, maliyyə idarəçiliyində cəldliyi və sürəti əldə ediləcəkdir.

## ƏDƏBİYYAT


1. Chang, V. (2018). A proposed cloud computing business framework. Information Systems, 38(1), 35-45.

2. Khosrow-Pour, M. (2021). Advanced Methodologies and Technologies in Network Architecture, Mobile Computing, and Data Analytics.IGIGlobal.

3.Rittinghouse, J. W., & Ransome, J. F. (2017). Cloud Computing: Implementation, Management, and Security. CRC Press.

4. Schwalbe, K. (2019). Information Technology Project Management (9th ed.). Cengage Learning.

5. Sharma, V., & Jain, S. (2018). Big data architecture and its challenges in cloud environment. Journal of Cloud Computing, 7(1), 1-11.

6. Stair, R., & Reynolds, G. (2018). Principles of Information Systems (13th ed.). Cengage Learning.

# BİZNES İNFORMASİYA SİSTEMLƏRİNİN LAYİHƏLƏNDİRİLMƏSİ

***Hüseynova Zeynəb Xaqani qızı***
***Lənkəran Dövlət Universitetinin magistrantı***
*zeynebmeherremova2023@gmail .com*

Biznes informasiya layihələndirilməsi müasir təşkilatların fəaliyyətini səmərəli və effektiv şəkildə idarə etməyə kömək edən sahədir.Bu mövzu haqqında geniş məlumat vermək üçün aşağıdakı əsas istiqamətləri nəzərdən keçirək:

- Biznes informasiya sistemlərinin tərifi
- Layihələndirmə prosesi
- Layihələndirmə metodologiyaları
- Texnologiyalar
- İstinadlar
- Tətbiq nümunələri

Biznes informasiya sistemləri məlumatları toplama, saxlama, emal etmə və yayımlama proseslərini idarə edən sistemləridir. Bu sistemlər müştəri münasibətləri, maliyyə, əməliyyatlar və insan resursları kimi istifadə olunur.[1]

Biznes informasiya sistemlərinin layihələndirilməsi aşağıdakı mərhələlərdən ibarətdir:

- Tələblərin Analizi:Müştəri və istifadəçilərin tələblərinin toplaması.
- Sistem dizaynı:Toplanan tələblərə əsasən sistemin arxitekturasını və dizaynının hazırlanması.
- İnkişaf:Sistem komponentlərinin proqramlaşdırılması və inteqrasiyası.
- Test və Qiymətləndirmə:Sistemin düzgün işləməsini təmin edən testlər aparmaq.
- İstifadəyə Vermə:Sistemin real mühitdə istifadəyə verilməsi.
- Dəstək və baxım**:** Sistemin davamlılığını təmin etmək

Fərqli layihələndirmə metodologiyaları var: Şəlalə metodologiyası, Agil metodologiyası, Devops

Biznes informasiya sistemlərinin layihələndirilməsi üçün istifadə olunan texnologiyalar:

- Veritabanı idarəetmə sistemləri: Məlumatların saxlanması və idarə olunması
- Veb texnologiyaları:HTML, CSS, Java Script
- Proqramlaşdırma dilləri: Python, Java, C#
  Fərqli sahələrdə BİS-lərin necə və harada istifadə olunduğu:
- Maliyyə sektorunda-kredit qiymətləndirmə sistemləri
- Ticarət sektorunda-müştəri münasibətləri idarəetmə sistemləri
- İstehsalat sektorunda-istehsal proseslərinin avtomatlaşdırılması

Biznes informasiya sistemlərinin layihələndirilməsi mövzusu həmişə inkişaf edir və daima aktual bir mövzudur.Bu sahənin aşağıdakı yeni ideya və yenilikləri ilə tanış olaq.

1. Cloud Compating (bulud hesablama)
2. Big data və analitika
3. Ai və maşın öyrənmə
4. İnformasiya təhlükəsizliyi
5. UX və istifadəçi interfeysi (UI) dizaynı
6. Agil və hibrid metodologiyası
7. İnteqrasiya və inteqrasiya platformaları
8. Rəqəmsal transformasiya

## ƏDƏBİYYAT


1. Laudon, K. C., & Laudon, J. P. (2020). *Management Information Systems: Managing the Digital Firm*.
2. O'Brien, J. A., & Marakas, G. M. (2011). *Management Information Systems*.
3. Cohn, M. (2005). *Agile Estimating and Planning*. Satzinger,

4. J. W., Jackson, R. B., & Burd, S. D. (2012). *Systems Analysis and Design in a Changing World*.
5. Schwalbe, K. (2018). *Information Technology Project Management*.

## VERİLƏNLƏRİN ANALİZİNİN MODELLƏRİ VƏ DATA SCİENCES ANLAYIŞI

***Teymurov İsmayıl Rafiq oğlu***
***Lənkəran Dövlət Universitetinin magistrantı***
*ismayilteymurov.444@gmail.com*

Verilənlərin analizi və Data Science bu gün bütün sahələrdə böyük əhəmiyyəti vardır.

Müasir dövrdə hər gün inanılmaz sayda çoxlu məlumatlar toplanır— sosial media, IoT cihazları, biznes tranzaksiyaları, tibb sahəsində olan məlumatlar və s. Bu cür böyük həcmli məlumatların effektiv şəkildə işlənməsi və təhlili üçün Data Science alətlərinə və güclü analiz modellərinə ehtiyac yaranır.

Data Science prosesinin əsas mərhələləri verilənlərin yığılması, təmizlənməsi və işlənməsidir.

1. Verilənlərin Yığılması (Data Collection)

Layihənin tələblərinə uyğun olaraq məlumatların etibarlı və keyfiyyətli mənbələrdən toplanmasıdır.

Texnikalar:

Manual Collection: Müsahibələr və anketlər keçirərək məlumatların manuel olaraq toplanması

API-lərdən istifadə: Hava proqnozu xidmətləri, sosial media platformaları kimi müxtəlif onlayn mənbələrdən informasiya toplamaq üçün tətbiq interfeyslərindən (API) istifadə.

Web Scraping: Veb səhifələrdən məlumatların avtomatik olaraq toplanması (məsələn, Python-da BeautifulSoup, Scrapy kitabxanaları ilə) [1].

2. Verilənlərin Təmizlənməsi (Data Cleaning)

Əldə olan məlumatların keyfiyyətini artırmaq üçün ziddiyyətli, səhv və natamam məlumatların aradan qaldırılması prosesidir.

3. Verilənlərin İşlənməsi (Data Processing)

Verilənlər müxtəlif transformasiyalara məruz qalaraq analiz üçün hazır vəziyyətə gətirilməsinə verilənlərin işlənməsi mərhələsi (Data Processing) deyilir.

Əsas Proseslər:

Verilənlərin çevrilməsi: Verilənlər dəyiştirilərək daha uyğun formada təhlil olunur

Verilənlərin miqyasının normallaşdırılması və standartlaşdırılması: Verilənlər fərqli miqyaslarda ola bilər onların eyni səviyyəyə gətirilməsidir. Maşın öyrənməsi modellərin də bu çox vacibdir.

Normallaşdırma: Data nın minimum-maximum aralığında (məsələn, [0,1]) gətirilməsi.

Standartlaşdırma: Data nın orta və standart sapma ilə ölçülməsi.

Xüsusiyyət mühəndisliyi (Feature Engineering): Verilənlərdə ayrıca sütunların yaradılması.

Verilənlərin bölünməsi: Modelləşdirmə prosesində verilənlər təlim, test və doğrulama olaraq dəstlərə bölünür [2].

1. Machine Learning (Maşın Öyrənməsi)

Machine Learning maşınlara insan müdaxiləsi olmadan təcrübə ilə öyrənmə və özünü inkişaf etditmə qabiliyyətini verir. Süni intellektin bir alt sahəsidir.

Machine Learning 3 əsas kateqoriayaya bölünür:

Nəzarət olunan öyrənmə (Supervised Learning): Giriş və çıxış verilənləri üzərində öyrədilən modeldir (məsələn, meyvə görüntülərini alma, heyva, nar kimi kateqoriyalara ayırmaq).

Nəzarətsiz öyrənmə (Unsupervised Learning): Çıxış məlumatları olmur

Yarımnəzarətli öyrənmə (Semi-supervised Learning): Bir hissəsi etiketlənmiş və bir hissəsi etiketlənməmiş verilənlərlə işləyir. Çətin və bahalı olduğu hallarda verilənlərin tam etiketlənməsindən istifadı olunur [3].

**2.** Deep Learning (Dərin Öyrənmə)

Deep Learning dən maşın öyrənməsi ilə həll edilə bilməyən problemlərdə istifadə olunur. Deep Learning Machine Learning in bir alt sahəsidir. Deep Learning insan beynindəki sinir hüceyrələrinə bənzər şəkildə işləyən çox qatlı neyron şəbəkələrdən istifadə edir. Əsas tətbiqləri Şəkil tanıma (Image Recognition), təbii dilin işlənməsi (Natural Language Processing - NLP), Səsin tanınması – dır [4].

3. Statistik Analiz

Statiktik Analiz riyazi bir yanaşma olub data nın toplanması, təsviri və interpretasiyası ilə bağlıdır. Statistik analiz verilənlər arasındakı təxminləri, əlaqələri və proqnozları öyrənmək üçün istifadə olunur və **Data Science**-də məlumatların nəticələrin çıxarılması və düzgün təhlili üçün çox vacibdir.

Statistik Modellər:

Lineer Regressiya (Linear Regression)**:** Giriş verilənlərindən çıxış proqnozu vermək lə yanaşı iki və ya daha çox dəyişən arasında xətti əlaqəni öyrənir.

Loqistik Regressiya (Logistic Regression)**:** Kateqoriyalı verilənlərin proqnozu üçün istifadə olunur. Əsasən iki dəyərli çıxışlar üçün əlverişlidir. (məsələn, bacaracaq var/yox)

ANOVA (Variance Analysis)**:** Bir neçə qrup arasında orta dəyərlərin fərqini öyrənir [5].

Verilənlərin analizi və Data Science, günümüzdə məlumatların yığılması, işlənməsi və təhlili üçün çox önəmli bir sahədir. Bu sahənin inkişaf etməsi nəticəsində müxtəlif sektorlarda toplanan böyük həcmli məlumatların effektiv istifadə edilməsinə imkan yaranır.

## ƏDƏBİYYAT

1. Mayer-Schönberger, V. & Cukier, K. (2013). Big Data: A Revolution That Will Transform How We Live, Work, and Think. Eamon Dolan/Houghton Mifflin Harcourt.
2. McKinney, W. (2017). Python for Data Analysis: Data Wrangling with Pandas, NumPy, and IPython. O'Reilly Media.

3. Grus, J. (2019). Data Science from Scratch: First Principles with Python. O'Reilly Media.
4. Goodfellow, I., Bengio, Y., & Courville, A. (2016). *Deep Learning.* MIT Press.
5. Hastie, T., Tibshirani, R., & Friedman, J. (2009). *The Elements of Statistical Learning: Data Mining, Inference, and Prediction.* Springer.

## İNFORMASİYA MÜBADİLƏSİMDƏ SİQNALLARIN MAGİSTRALA ÖTÜRÜLMƏSİ

***Həsənova Ruqayyə Talıb qızı***
***Lənkəran Dövlət Universitetinin magistrantı***
*hassanoffa.r@gmail.com*

Mikroprosessor sistemlərində informasiya mübadiləsinin əsas komponentlərindən biri siqnalların magistrala ötürülməsidir. Magistral, sistem daxilində məlumatların və idarəetmə siqnallarının ötürülməsi üçün ortaq rabitə xəttidir. Magistralın düzgün qurulması və idarə edilməsi mikroprosessor sistemlərinin performansı və etibarlılığı baxımından mühüm əhəmiyyət daşıyır.

Mikroprosessor sistemlərində əsas siqnal növləri məlumat, ünvan və idarəetmə siqnallarıdır. Məlumat siqnalları prosessor və yaddaş qurğuları arasında məlumat mübadiləsini təmin edir, ünvan siqnalları isə hansı yaddaş hüceyrələrinin və ya giriş-çıxış cihazlarının istifadə ediləcəyini təyin edir. İdarəetmə siqnalları, əməliyyatın hansı mərhələdə olduğunu və hansı cihazların fəal olduğunu bildirir. Magistral arxitekturası üç əsas komponentdən ibarətdir:

1. Məlumat magistralı: Bu magistral, verilənlərin prosessor və yaddaş arasındakı ötürülməsini təmin edir.
2. Ünvan magistralı: Yaddaş hüceyrələrinin və cihazların ünvanlarını təyin edən siqnalları daşıyır.
3. İdarəetmə magistralı: Sistemdəki məlumat axınını və cihazların işini koordinasiya edir [3].

Bu siqnal növləri bir araya gələrək, magistralda ardıcıl və ya paralel məlumat mübadiləsi təmin edir. Magistralın effektiv fəaliyyəti üçün sinxronizasiya mühüm rol oynayır. Mərkəzi prosessorun siqnalın nə zaman göndəriləcəyi və qəbul ediləcəyinə dair dəqiq cədvəl tərtib etməsi tələb olunur [2].

Siqnalların magistrala ötürülməsi iki əsas üsulla həyata keçirilir:

- Sinxron ötürülmə: Bu metodda bütün siqnallar mərkəzi saat impulsları ilə sinxronlaşdırılır. Saat impulsu siqnalın göndərilmə vaxtını təyin edir və məlumatların vaxtında ötürülməsini təmin edir. Sinxron ötürülmə sistemi yüksək sürətə malik olsa da, saat impulsunun dəqiqliyi sistemin mürəkkəbliyini artırır [1].
- Asinxron ötürülmə: Asinxron ötürülmədə məlumatlar və idarəetmə siqnalları saat impulslarından asılı deyil və cihazlar arasında siqnallar əvvəlcədən razılaşdırılan əl işarələri (handshake) vasitəsilə ötürülür. Bu metod daha az mürəkkəbdir, lakin sinxron sistemlərə nisbətən daha aşağı sürət təmin edir [4].

**Magistralda Sinxron və Asinxron ötürmə metodlarının müqayisəsi cədvəli**

| **Xüsusiyyət** | **Sinxron magistral ötürmə** | **Asinxron magistral ötürmə** |
|---|---|---|
| Saat impulsu | Bütün cihazlar mərkəzi saat siqnalı ilə sinxronlaşdırılır | Saat siqnalı tələb olunmur, əl işarələri istifadə olunur |
| Mürəkkəblilik | Yüksək: Dəqiq saat siqnalı tələb edir | Daha az mürəkkəb: Sinxronizasiyaya ehtiyac yoxdur |
| Sürət | Yüksək sürətli məlumat mübadiləsi təmin edir | Daha yavaş: Cihazlar əl işarələrini gözləyir |
| Uyğunlaşma | Fərqli sürətli cihazlarla sinxronizasiya çətin olur | Fərqli cihaz sürətlərinə daha asan uyğunlaşır |

Sinxron və asinxron ötürmə metodlarının müqayisəsi göstərir ki, sinxron sistemlərdə məlumatların ötürülməsi yüksək sürətlə və dəqiqliklə həyata keçirilir, lakin mürəkkəblik artır. Asinxron sistemlər isə daha sadə quruluşa malikdir, lakin sürət baxımından məhduddur.

Siqnalların magistrala ötürülməsi prosesində sinxronizasiya, məlumatların itirilməsinin və ya səhv ötürülməsinin qarşısını almaq üçün zəruridir. Sinxronizasiya prosessor və periferik qurğular arasında əlaqə qurulmasına kömək edir. Sinxron ötürülmə metodlarında istifadə edilən saat siqnalları bütün sistem komponentlərini bir ritmə uyğun işlədir. Bu zaman məlumat siqnalları bir-birinin ardınca müəyyən qaydada ötürülür.

Asinxron sistemlərdə isə daha çox əl işarələri vasitəsilə qarşılıqlı əlaqə təmin olunur. Burada cihazlar ötürmə zamanı qarşılıqlı siqnalları gözləyir və yalnız məlumat göndərən cihaz qəbul edən tərəfindən təsdiq edildikdə məlumat mübadiləsi baş verir.

Müasir mikroprosessor sistemlərində magistral strukturları daha mürəkkəb və çevikdir. Məsələn, PCIe (Peripheral Component Interconnect Express) və USB (Universal Serial Bus) kimi magistral standartları məlumatların effektiv və sürətli şəkildə ötürülməsini təmin edir. PCIe magistralı yüksək sürətli cihazlar arasında məlumat mübadiləsi üçün istifadə edilərkən, USB daha çox giriş/çıxış cihazlarının sistemə qoşulmasını təmin edir.

Müasir sistemlərdə paralel magistrallarla yanaşı, daha səmərəli olan seriyalı magistral texnologiyaları da geniş istifadə olunur. Serial magistrallar daha az naqil istifadəsi ilə yüksək sürət təmin edir.

Müasir mikroprosessor sistemlərində bir çox fərqli magistral texnologiyaları istifadə olunur. Aşağıdakı cədvəl bəzi əsas magistral texnologiyalarını müqayisə edir:

| **Magistral texnologiyası** | **Sürət** | **Tətbiq sahəsi** |
|---|---|---|
| PCIe (Peripheral Component Interconne ct Express) | 32 GB/s | Yüksək sürətli cihazlar (qrafik kartları, SSD) |

| | | |
|---|---|---|
| USB (Universal Serial Bus) | 10 Gbps | Giriş-çıxış cihazları (klavia-tura, siçan) |
| Thunderbolt | 40 Gbps | Hər növ yüksək sürətli məlu-matın ötürülməsi |
| Ethernet | 40 Gbps və daha çox | Şəbəkə bağlantısı |

Bu cədvəl göstərir ki, PCIe, USB və Thunderbolt kimi müasir magistral texnologiyaları yüksək sürətli məlumat ötürülməsi üçün istifadə olunur. Xüsusilə PCIe və Thunderbolt çox yüksək sürət imkanları təqdim edir, bu da məlumat mübadiləsini sürətləndirir.

**Nəticə.** Siqnalların magistrala ötürülməsi mikroprosessor sistemlərinin kritik komponent-lərindən biridir və bu prosesin effektiv təşkili sistemin ümumi performansına birbaşa təsir edir. Sinxron və asinxron ötürmə metodları hər birinin öz üstünlükləri və çatışmazlıqları ilə fərqlənir. Sinxron ötürmə sistemləri yüksək sürət təmin etsə də, mürəkkəb sinxronizasiya mexanizmləri tələb edir, asinxron sistemlər isə sadə və az kompleks olsa da, daha aşağı sürət təqdim edir. Müasir mikroprosessor sistemlərində isə magistral texnologiyaları yüksək ötürmə qabiliyyətinə malikdir və PCIe və USB kimi standartlar məlumat mübadiləsinin çevik və sürətli olmasını təmin edir. Gələcək inkişaflar, siqnalların daha səmərəli ötürülməsi üçün yeni magistral texnologiyalarının yaradılmasına yönəldiləcəkdir.

## ƏDƏBİYYAT

1. Hennessy, J. L., & Patterson, D. A. (2021). Computer Architecture: A Quantitative Approach (7th ed.). Morgan Kaufmann.
2. Mukherjee, T. (2021). Modern Processor Design: Fundamentals of Superscalar Processors (2nd ed.). McGraw Hill.
3. Silberschatz, A., Galvin, P. B., & Gagne, G. (2022). Operating System Concepts (10th ed.). Wiley.
4. Stallings, W. (2021). Computer Organization and Architecture (12th ed.). Pearson.

# OPTİMAL KLASTERLƏRİN TƏRİFİ VƏ HƏLL ALQORİTMLƏRİNİN ANALİZİ

***Eyvazzadə Kənan Nurməmməd oğlu***
***Lənkəran Dövlət Universitetinin Magistrı***
*eyvazzadekenan@gmail.com*

Bu mövzuda müzakirə ediləcək əsas məqamlar optimal klaster sayını təyin edən müxtəlif metodlar, klasterlərin keyfiyyətini qiymətləndirmək üçün istifadə olunan metriklər və müxtəlif klasterləşdirmə alqoritmlərinin müqayisəsidir. Klaster analizində optimal klasterlərin düzgün seçilməsi həm məlumatların aydın qruplaşdırılmasına, həm də verilənlərin analiz nəticələrinin etibarlılığına böyük təsir göstərir. Bu mövzuda müzakirə ediləcək əsas məqamlar optimal klaster sayını təyin edən müxtəlif metodlar, klasterlərin keyfiyyətini qiymətləndirmək üçün istifadə olunan metriklər və müxtəlif klasterləşdirmə alqoritmlərinin müqayisəsidir.Bu yanaşma xüsusilə verilənlərin içərisindəki gizli strukturları üzə çıxarmaq, təsnifləşdirmə proseslərini avtomatlaşdırmaq və böyük məlumat yığınlarında əsas nümunələri aşkar etmək baxımından mühüm yeniliklər gətirib.

**1. Verilənlərin dərin analizi**

Optimal klasterlərin müəyyən edilməsi ilə verilənlər toplusunun strukturunu daha yaxşı anlamaq mümkün olur. Əvvəlcədən müəyyən edilməmiş və gizli qalmış verilənlər arasındakı əlaqələr bu üsulla üzə çıxa bilər. Bu metod xüsusilə böyük verilənlər dəstələrində statistik təhlillərin dərinləşdirilməsi və məlumatların vizual analizi üçün əlverişlidir.

**2. Avtomatik qruplaşdırma və təsnifləşdirmə**

Klaster analizinin optimal parametrlərinin seçilməsi avtomatik təsnifləşdirmə proseslərində əhəmiyyətlidir. Bu, xüsusilə maşın öyrənməsi və süni intellekt tətbiqlərində geniş istifadə edilir. Klasterlər arasında sərhədlərin dəqiq müəyyən edilməsi süni intellekt sistemlərinin daha dəqiq qərar qəbul etməsinə və verilənləri effektiv şəkildə qruplaşdırmasına imkan yaradır.

**3. Optimal klasterlərin tərifi**

Optimal klasterlər verilənlər toplusunda təbii olaraq formalaşan qrupları əks etdirir. Optimal klasterlərin əsas xüsusiyyəti odur ki, hər bir klaster daxilindəki obyektlər bir-birinə daha çox oxşar, müxtəlif klasterlərdə olan obyektlər isə daha fərqli olur. Optimal klaster sayı və formalaşdırılan klasterlərin keyfiyyəti üçün müəyyən göstəricilər və kriteriyalar vardır:

**Sıxlıq:** Hər bir klaster daxilindəki obyektlərin oxşarlıq səviyyəsi maksimum olmalıdır.

**Fərqlilik:** Müxtəlif klasterlər arasında oxşarlıq minimal olmalıdır.

**Kompaktlıq və fərqlilik metrikləri:** Siluet metrikası, daxili klaster məsafələri kimi göstəricilər optimal klaster sayını təyin etmək üçün geniş istifadə olunur.

**4. Optimal klaster sayının müəyyən edilməsi üçün metodlar**

Optimal klaster sayını müəyyən etmək üçün bir sıra statistik və ya həndəsi metodlardan istifadə edilir:

**Dirsək (Elbow) metodu:** Bu metod klaster sayının artmasına baxmayaraq məsafə metrikası üzrə azalmaların məhdudlaşdığı nöqtəni "optimal klaster sayı" olaraq seçir.

**Siluet Skoru:** Hər bir obyekt üçün orta oxşarlıq səviyyəsi ilə müqayisə olunan siluet skoru 0-1 arasında qiymətləndirilir və optimal klaster sayının yüksək siluet skoruna uyğun seçilməsi tövsiyə olunur.

**Davies-Bouldin İndeksi:** Klasterlər arası məsafələri analiz edərək klasterlərin keyfiyyətini qiymətləndirən bu indeks optimal klaster sayı üçün minimum dəyərə malik olmalıdır.

**5. Optimal klasterlərin tapılması üçün alqoritmlər**

Klaster analizində ən çox istifadə olunan alqoritmlərə aşağıdakılar daxildir:

**K-Ortalamalar (K-means):** Ənənəvi və sürətli klaster alqoritmi olan K-means, hər bir klasterin mərkəzini iterativ olaraq tənzimləyərək obyektləri optimal qruplara ayırır. Optimal klaster sa-

yı seçildikdən sonra bu alqoritm klasterləri formalaşdırmaq üçün əlverişlidir.

**Hiyerarxik klasterləşdirmə:** Hiyerarxik metodlar, obyektləri ağac strukturu formasında qruplaşdırır. Hiyerarxik klasterləşdirmədə optimal kəsim nöqtəsi müəyyən edilərək klasterlər ayrılır. Bu metod verilənlər arasındakı əlaqələri göstərmək üçün təsirli olsa da, böyük verilənlərdə hesablama baxımından zəif ola bilər.

**DBSCAN:** Bu alqoritm sıxlıq əsaslı klasterləşdirmə üsulu ilə qeyri-xətti strukturları aşkar edir. DBSCAN mürəkkəb və qeyri-xətti verilənlər üçün uyğun olsa da, optimal parametr seçimi prosesini çətinləşdirə bilər.

Klaster keyfiyyətinin qiymətləndirilməsi üçün əlavə ölçümlər aşağıdakı kimidir:

**Rand indeksi və düzgün klasterləşmə indeksi (Adjusted Rand Index):** Bu indekslər klasterləşdirmə prosesinin verilənlər üzərində nə qədər doğru nəticələr verdiyini qiymətləndirir.

**Purity metrikası:** Bu metrik hər bir klaster daxilindəki obyektlərin düzgün etiketlənməsi səviyyəsini qiymətləndirir.

**Silhouette coefficient:** Verilənlərin ümumi kompaktlığını və ayrıqlığını ölçmək üçün istifadə olunur və 1-ə yaxın olan siluet qiymətləri daha yaxşı klasterləri göstərir.

Optimal klasterlərin təyin edilməsi üçün bu metod və alqoritmlər arasından seçilmiş yanaşma verilənlərin təbiətinə, klasterlərin sıxlıq və fərqlilik dərəcəsinə əsaslanır.

Nəticə. Optimal klasterlərin təyin edilməsi və klasterləşdirmə alqoritmlərinin analizi məlumatların daha dəqiq və mənalı qruplaşdırılmasını təmin edərək bir çox sahədə tətbiq tapır. Bu mövzu üzrə tədqiqatların nəticəsi göstərir ki, düzgün klaster seçimi ilə, optimal klasterlərin təyini və analizi məlumatların düzgün qruplaşdırılmasını təmin edir və müxtəlif sahələrdə elmi yeniliklərin əldə edilməsinə, həmçinin praktiki tətbiqlərdə dəqiq qərarların qəbuluna imkan yaradır. Bu, klaster analizini verilənlərin araşdırılması və qruplaşdırılması üçün effektiv və güclü bir metod halına gətirir.

## ӘDӘBİYYAT

1.Kassambara, A. (2020). *Practical Guide to Cluster Analysis in R: Unsupervised Machine Learning* Han, J., Pei, J., & Kamber, M. (2022). *Data Mining: Concepts and Techniques* (4th ed.). Morgan Kaufmann

2.Aggarwal, C. C. (2020). *Machine Learning for Text* (1st ed.). Springer.

3.Schubert, E., & Rousseeuw, P. J. (2021). "Faster k-Medoids Clustering: Improving the PAM, CLARA, and CLARANS Algorithms." In *Proceedings of the 2021 SIAM International Conference on Data Mining (SDM)*

4.Xu, C., Karypis, G., & Zhu, X. (2021). "A Survey on Incremental Learning for Clustering." *IEEE Transactions on Knowledge and Data Engineering*

5.Misra, S., & Singh, S. K. (2022). "An Improved Density-Based Clustering Algorithm for Big Data Applications." *Journal of Big Data*

## MÜNDƏRİCAT

## PSİXOLOGİYA BÖLMƏSİ

***Piriyeva Elnarə, Vəlizadə Şəbnəm.*** Yeniyetmələrdə sosial fobiyanın formaları ........................................................ 3

***Səlimova Rəna.*** Yeniyetmələrin peşəseçiminə təsir edən amillər ........................................................................ 6

***Гаджизаде Хумар.*** Социально-психологические особенности детей, воспитывающихся в учреждениях интернатного типа ...................................................... 9

***Kızılelma Tuğba Hüseyin.*** Posttravmatik stress pozuntusunun psixoterapiyalar ilə mualicəsi .......................... 13

***Məlikov Azər.*** Hafizənin öyrənilməsində ebbinqhauzun yanaşması ........................................................................ 15

***Soltanova İsbəndiyarova Qəmzə.*** Uşaqlarda böhranın ümumi əlamətləri ........................................................... 18

***Zamanova Aytac.*** Sosial intellektin inkişaf etdirilmə üsulları ........................................................................ 20

***Rəhimova Leyla.*** Tələbələrdə sosial-emosional öyrənmənin inkişaf istiqamətlərinin öyrənilməsi .................... 23

***Mansurzadə Nəzrin.*** Ailədaxili konfliktlərin uşaqların inkışafına təsiri .................................................................. 26

***Xasıyeva Anarə.*** Ailə mühiti və yeniyetmələrdə natamamlıq kompleksinin təşəkkül xüsusiyyətləri ................. 31

***Abdullayeva Sevinc.*** İntihar problemi və onun məsləhət praktikasında həlli istiqamətləri ........................................... 33

***Zeyniyeva Müjgan.*** Uşaqların psixoloji inkişafında ailə mühitinin rolu ............................................................... 36

***Əliyev İlkin.*** Androloji problemlərinin ailə münasibətlərinə təsiri....................................................................................39
***Əlili Türkan.*** Psixoloji xidmətin tətbiqi sahələri...................42
***Əbilova Narın.*** Cinsi zorakılığa məruz qalmış yetkinlik yaşına çatmayanların psıxoloji xüsusiyyətləri ........................44

## FƏLSƏFƏ VƏ TARİX BÖLMƏSİ

***Yusifzadə Zöhrə.*** Qədim uyğurların yazılı abidələri ..............49
***Mirzəyeva Yeganə.*** Vətəndaş cəmiyyəti quruculuğunda islam həmrəyliyinin önəmi ..................................................52
***Babayev Əli, Ağayev Çingiz.*** Milli-mənəvi dəyərlərin qorunması təhlükəsizliyin mühüm tərkib hissəsidir ...............56
***İsrafilov Mahir.*** Elmi-mədəni və bədii irsimiz ......................61
***Бабаев Эльвин, Сафарова Сабина.*** Значение Востока в развитии мировой литературы............................................63
***Babayev Əli.*** Azərbaycanda multikultural, tolerant dəyərlərin tarixi haqqında qısa xülasə....................................66

## PEDAQOGİKA VƏ FİLOLOGİYA BÖLMƏSİ

***Су Бойи.*** Роль мониторинга в управлении качеством образования ..........................................................................71
***Hüseynli Sənay.*** Azərbaycan dilinin formalaşmasının sosial-siyasi aspektləri ..........................................................74
***Həsənov Namiq.*** C.Oldrıc “sürgün edilmiş axırıncı adam” romanında Ərəb Şərq ..........................................................78
***Kazımov Elvin.*** Vaqif Mustafayevin kino dili........................84
***Əlizadə Aysun.*** Tetra trankinq sistemi....................................86

***Kazımova Çimnaz.*** Montessori təliminin uşaqların dil bacarıqlarının inkişafına təsiri ............................................. 89

## SOSİAL İŞ VƏ SOSİOLOGİYA BÖLMƏSİ

***Nəbiyev Murad.*** Mədəni müxtəlifliyin qorunmasında multikulturalizm siyasətləri .................................................. 94
***Cəniyeva Səbinə.*** Sosioloji məlumatlarda verifikasiya və validasiya problemi ............................................................ 96
***Musayeva Nərmin.*** Keyfiyyət tədqiqat metodlarının əhəmiyyəti və tətbiqi .......................................................... 98

## İNFORMASİYA BÖLMƏSİ

***Babazadə Nəzrin.*** Kompüter sistemlərinin mühafizəyə ehtiyacı olan zəif elementlərininin təyin edilməsi ................. 102
***Əlizadə Gülay.*** Rəqəmsal modellərin yaradılması ................ 106
***Həsənzadə Ləman.*** Rəqəmli kommutasiyanın proqram təminatının qurulma prinsipləri ............................................ 110
***Şükürov Qurban.*** İnformasiya təhlükəsizliyində çoxfaktorlu autentifikasiynın təhlili və intellektual strukturu ........... 113
***Eyvazzadə Kənan.*** Obrazların tanınması məsələsinin modelləri və alqoritmləri üzərində korrekt cəbr ..................... 117
***Şabanova Ruqiyyə.*** Biliklərin ekspert sistemlərində təqdimatı ....................................................................... 121
***Kazımova Günel.*** Big datanın elmi nəzəri problemləri .......... 124
***Şiriyeva Elvira.*** İnformasiya sisteminin arxitekturasının strukturu ................................................................... 127

***Hüseynova Zeynəb.*** Biznes informasiya sistemlərinin layihələndirilməsi ........................................................................ 130

***Teymurov İsmayıl.*** Verilənlərin analizinin modelləri və data sciences anlayışı ................................................................ 132

***Həsənova Ruqayyə.*** İnformasiya mübadiləsimdə siqnalların magistrala ötürülməsi ............................................. 135

***Eyvazzadə Kənan.*** Optimal klasterlərin tərifi və həll alqoritmlərinin analizi .............................................................. 139

Redaktor: **V.K.MUSAYEVA**

Gənc tədqiqatçıların Respublika
elmi-praktik konfransının materialları
(25 oktyabr 2024-cü il)

Naşir: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operatorlar: Leyla Məmmədli, Ömər Qasımov

Çapa imzalanmışdır: 25.10.2024
Kağız formatı: 60x84 1/16 Həcmi: 9,25 ç.v.
Sayı: 100

“Füyuzat” nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850-98-69
e-mail: fuyuzat2020@gmail.com